RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 43 (8922) CÜMƏ, 25 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Aysberqin zirvəsi

## Prezident İlham Əliyev TASS Agentliyində Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşdə Moskva Bəyannaməsini belə dəyərləndirdi

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində fevralın 23-də TASS Agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə birinci xanım Mehriban Əliyeva da iştirak edib.

Görüş iştirakçılarını salamlayan TASS Agentliyinin Baş direktoru **Sergey MİXAYLOV dedi:** Salam, həmkarlar. Biz sizin hamınızı burada görməyə şadıq. Əlbəttə, pandemiya üzərində qələbə elan edə bilmərik, lakin yavaş-yavaş TASS-ın məşhur "TASS-ın baş redaktorları klubu"nu bərpa edirik. Ona görə yox ki, biz əlifba sırası ilə "A" hərfindən başlamağı qərara almışıq, sadəcə, belə alınıb. TASS agentliyinə gəldiyinizə görə çox sağ olun. Cənab Prezident, biz çox şadıq, siz burada həmişə çox əziz qonaqsınız və 10 il bundan əvvəlki görüş yadımızdadır, Mehriban xanım da burada olmuşdu. Ümumiyyətlə, nisbətən yaxın vaxtlarda, 5-6 il bundan əvvəl. Adətən bizim görüşlər səmimi dostluq şəraitində keçir. İstənilən sualları verə bilərsiniz. Siz nə isə demək istəyirsinizmi?

*Ardı 2-ci səh.*

# İlham Əliyevin hədəfləri

## Dostların sayı artdıqca və dostluğumuz möhkəmləndikcə gücümüz də artır

**Azərbaycan Prezidenti İlham Əliyev bizi hər zaman möhtəşəm addımları ilə təəccübləndirməyi və sevindirməyi bacarır.**

**Qəflətən elə gözlənilməz gedişlər edir ki, heyran olmaya və qürur duymaya bilmirsən!**

*15 iyun 2021-ci ildə Şuşa şəhərində imzalanan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik bəyannaməsini ratifikasiya və təsdiq edərək yenicə qüvvəyə mindirmişdik.*

*Bunun ardınca 22 fevral 2022-ci ildə Moskvada daha bir vacib və mühüm əhəmiyyətli sənəd - Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında bəyannamə imzalandı.*

Yaxın tarixə baş vursaq, bu müqavilələrin necə vacib əhəmiyyət daşıdığını, xüsusən müstəqil Azərbaycan üçün nə qədər vacib və gərəkli olduğunu görərik!

Türkiyə bizə dost və qardaş ölkədir!

Necə deyərlər, əti ətimizdən, qanı qanımızdandır!

Ulu Öndərimizin təbirincə söyləsək: bir millət, iki dövlətik!

Amma 1992-ci ildə ozamankı Prezident Ə.Elçibəy Kəlbəcərdən dinc əhalini təhlükəsiz, sağ-salamat çıxarmaq üçün Türkiyədən 2 mülki vertolyot ala bilmədi!

Çünki Süleyman Dəmirəl Türkiyəsi icazə olmadan qardaş Azərbaycana kömək göstərmək imkanında deyildi!

**Rəcəb Tayyib Ərdoğan Türkiyəsi isə artıq dünya dövlətinə çevrilib, öz maraqlarını təmin edən müstəqil siyasəti yürüdür!**

**Azərbaycan Prezidenti cənab İlham Əliyev isə Türkiyə-Azərbaycan qardaşlığını tarixində görünməyən səviyyəyə yüksəltməyi, strateji müttəfiqliyə çevirməyi bacardı!**

II Qarabağ müharibəsində və bu gün də qardaş Türkiyə bütün varlığı - silahı, ordusu, iqtisadi qüdrəti, mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu və indi də Qarabağdadır!

*Ardı 7-ci səh.*

# Azərbaycan və Moldova bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Moldova parlamentinin Sədri İqor Qrosu ilə videoformatda görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Moldova parlamenti Sədrinin Azərbaycana səfəri çərçivəsində səmərəli görüşlərin keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı onun işğaldan azad edilmiş ərazilərə və Şuşa şəhərinə səfər etdiyini, Ermənistanın 30 illik işğal dövründə törətdiyi dağıntılarla, eyni zamanda azad edilən ərazilərdə Azərbaycan tərəfindən qısa müddətdə görülən quruculuq işləri ilə yerində tanış olduğunu bildirdi. Dövlətimizin başçısı ötən ilin dekabrında Brüsseldə Moldova Prezidenti ilə görüşünü və bu yaxınlarda Moldovanın xarici işlər nazirinin Azərbaycana səfərini qeyd edərək əlaqələrimizin dinamik və intensiv xarakter daşıdığını məmnunluqla vurğuladı. Bu kursun davam etdirilməsinin və əlaqələrimizin daha da gücləndirilməsinin vacibliyini qeyd etdi.

Moldova parlamentinin sədri İqor Qrosu Azərbaycanda olmağından məmnunluğunu ifadə edərək səfər çərçivəsində Milli Məclisin Sədri və digər rəsmi şəxslərlə səmərəli və məhsuldar görüşlər keçirdiyini bildirdi. Ölkələrimizin daim bir-birinin ərazi bütövlüyünə və suverenliyinə dəstək verdiklərini qeyd etdi. İqor Qrosu işğaldan azad olunmuş ərazilərə və Şuşa şəhərinə səfər etdiyini, oradakı vəziyyətlə yerindəcə tanış olduğunu bildirdi. Moldova parlamentinin Sədri ölkəsində yaşayan Azərbaycan diasporunun yerli cəmiyyətə çox yaxşı inteqrasiya etdiyini də diqqətə çatdırdı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, enerji sahəsində əməkdaşlıq, beynəlxalq təşkilatlar, beynəlxalq parlamentlərarası təsisatlarda birgə fəaliyyət və digər məsələlərə dair fikir mübadiləsi aparıldı.



## Dünya İqtisadi Forumunun prezidenti: "Azərbaycan iqtisadiyyatı regionda vacib amilə çevrilib"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ölkəmizə səfərləri zamanı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışında iştirak etmələrini məmnunluqla vurğuladı.

O, ölkəmizin bütün sahələrdə əldə etdiyi iqtisadi uğurların əhəmiyyətini qeyd etdi, Azərbaycan iqtisadiyyatının regionda vacib amilə çevrilməsinin önəmini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Borge Brende Dünya İqtisadi Forumunun növbəti toplantısında iştirak etmək üçün forumun təsisçisi və icraçı sədri Klaus Şvabın dəvətini Prezident İlham Əliyevə çatdırdı.

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və qardaş xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın maraqlarına xidmət edən dövlətlərarası əlaqələrimiz ötən otuz il ərzində dinamik inkişaf yolu keçmiş, əməkdaşlığımız həm ikitərəfli, həm də çoxtərəfli əsasda genişlənmişdir.

Səudiyyə Ərəbistanı bizim üçün vacib tərəfdaş və qardaş ölkədir. Mən qarşılıqlı etimad üzərində qurulmuş münasibətlərimizin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm. Eyni zamanda ölkələrimizin beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığını məmnunluqla qeyd edir, qarşılıqlı fəaliyyətimizi bundan sonra da davam etdirmək əzmində olduğumuzu bildirirəm.

Azərbaycan xalqı Səudiyyə Ərəbistanının ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstəyi və ədalətli mövqeyini yüksək qiymətləndirir və bunu qardaşlığımızın bariz ifadəsi kimi qəbul edir.

Bu gün bir sıra sahələrdə əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda, o cümlədən OPEC+ formatı çərçivəsində uğurlu işbirliyimiz təqdirəlayiqdir. Bərpaolunan enerji sahəsində əməkdaşlığımızı xüsusilə qeyd etmək istəyirəm. Azərbaycanın bu sektorda ən böyük elektrik stansiyası olacaq və ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası layihəsinin investoru və icraçısının məhz qardaş ölkənizin "ACWA Power" şirkətinin olması bizi sevindirir.

Əlahəzrət!

Səudiyyə Ərəbistanına etdiyim səfərlər zamanı mənə göstərilən yüksək diqqət və qonaqpərvərliyi, Sizinlə mehribanlıq və səmimiyyət şəraitində keçən görüşlərimizi həmişə ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ənənəvi dostluq əlaqələrini genişləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər, Səudiyyə Ərəbistanı Krallığının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2022-ci il*

# Aysberqin zirvəsi

## Prezident İlham Əliyev TASS Agentliyində Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşdə Moskva Bəyannaməsini belə dəyərləndirdi

*Əvvəli 1-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən Rusiyanın aparıcı media rəhbərləri ilə görüşmək imkanı yaratdığına görə TASS rəhbərliyinə təşəkkür etmək istərdim. Zənnimcə, mənim Rusiyaya rəsmi səfərimin formatı və əlbəttə, xüsusən dünən qarşılıqlı müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması nəzərə alınmaqla, əsl münasib vaxtdır. Rusiya ilə Azərbaycan arasında çoxsaylı sənədlər imzalanıb - 200-dən artıq. Lakin bu, xüsusi sənəddir, çünki dövlətlərarası münasibətlər qurulmasından 30 il keçdikdən sonra biz müttəfiqlik səviyyəsinə çatmışıq. Əslində, mən deyərdim ki, biz bunu rəsmən təsbit etmişik. Ona görə ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri, mənim fikrimcə, uzun illər boyu müttəfiqlərin münasibətlərinin bütün parametrlərinə cavab verirdi. Yəni, bu sənəd təkcə böyük işə yekun vurmaqla qalmayıb, həm də Rusiya ilə Azərbaycanın gələcək qarşılıqlı əlaqələri üçün, müsbət regional inkişaf üçün böyük perspektivlər açır. Bu sənəd imzalanandan heç bir gün keçməmiş mən buradayam. Qeyd edildiyi kimi, mən buraya ilk dəfə gəlməmişəm və bu divarlar mənə doğma olub. Xüsusən TASS-da həmişə mövcud olan sərbəstlik şəraitini, fikir mübadiləsi aparmaq və bəzən rəsmi bəyanatların çərçivəsindən kənarda olan müəyyən məsələləri aydınlaşdırmaq imkanını vurğulamaq istərdim.

Dünən Rusiya Prezidenti və mən rəsmi bəyanatlar verdik. Həmin bəyanatlar Azərbaycan mətbuatında tam şəkildə dərc edilib. Fikrimcə, onlarla tanış olmağa imkanınız olub. Buna görə təkrarçılıq etmək istəməzdim. Zənnimcə, sadəcə, bizim söhbətimiz üçün daha çox vaxt saxlamaq lazımdır. Beləliklə, sizin hamınızı görməyə çox şadam. Sağ olun ki, gəlməyə, vaxtınızı bu görüşə sərf etməyə imkan tapmısınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

**Sergey MİXAYLOV:** Buyurun, həmkarlar.

**Vladislav FRONİN,** "Rossiyskaya qazeta"nın Baş redaktoru: **Onda bəyannaməyə aid birinci sual yaranır. Bəyannamədə 43 bənd var. Siz ümumi sözlərlə "ümumi səviyyə" deməsək, yeni səviyyə daha konkret olaraq nə deməkdir? Xahiş edirəm izah edin, həqiqətən iqtisadiyyatda, mədəniyyətdə, qarşılıqlı fəaliyyətin digər sahələrində yeni səviyyə nədən ibarətdir? Axı, bizdə neçə illərdir ki, müqavilə mövcuddur. Bəs bu, nə deməkdir, müqavilədən yüksək sənəddirmi?**

**Prezident İlham ƏLİYEV:** Mənim fikrimcə, elədir. Bu, müqavilədən yüksəkdir, ona görə ki, yadımdadırsa müqavilə dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında idi, lakin o, müttəfiqlər kimi münasibətlərin formatını müəyyən etmirdi. Uzun illər boyu Rusiya ilə Azərbaycan arasında münasibətləri mən də, Prezident Putin də strateji tərəfdaşların münasibətləri kimi xarakterizə etmişik. Münasibətlərin indiki formatı ali formatdır. Yəni, bundan yüksək format praktiki olaraq yoxdur. Dövlətlərarası münasibətlərdə bu, belə demək mümkünsə, aysberqin zirvəsidir. Mən tapşırıq vermişəm, Azərbaycanın Xarici İşlər Nazirliyi bəyannamənin tam mətnini öz saytında yerləşdirib ki, hər kəs onunla tanış ola bilsin. Mənim dünən qeyd etdiyim kimi, orada 43 bənd var. Əlbəttə, bütün bəndləri şərh etmək həddən artıq vaxt aparar. Bir də ki, buna ehtiyac yoxdur, baxmaq olar. Lakin bu bəyannamənin adının özü çox şeydən xəbər verir. Bu, artıq dediyim kimi, qarşılıqlı fəaliyyətin səviyyəsinin artırılması üzrə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsi, Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrupun bir ildən artıq müddətdə, - keçən ilin yanvar ayından, - bu bəyannamənin mətni üzərində konkret işinin nəticəsidir. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir. Əlbəttə, bu bəyannaməni müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər də işlənib hazırlanma mərhələsindədir.

Onu da deməliyəm ki, Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər - ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş səkkiz yol xəritəsi reallaşma mərhələsindədir. Yəni, münasibətlər o dərəcədə şaxələndirilib ki, bizim hansı sahələrdə əməkdaşlıq etməyimizi müəyyənləşdirməkdənsə, hansı sahələrdə əməkdaşlıq etmədiyimizi göstərmək və ya söyləmək daha asandır. Əlbəttə, hesab edirəm ki, bizim iki qonşu ölkə üçün bu səviyyəni qarşılıqlı müttəfiqlik səviyyəsi kimi müəyyən etmək böyük nailiyyətdir və əlbəttə, böyük məsuliyyətdir. Biz gələcəkdə də həmişə bu yüksək səviyyəyə uyğun olmalıyıq.





**Dmitri KİSELYOV,** "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru: **İlham Heydər oğlu, müttəfiqlik münasibətləri bir şəraitdə və bir Rusiya ilə hazırlanıb, lakin dünyada vəziyyətin keyfiyyətcə dəyişdiyi və Rusiyanın da keyfiyyətcə dəyişdiyi məqamda imzalanıb. Biz hamımız nə barədə danışdığımızı bilirik. Bax, bu dəyişmiş şəraitdə Rusiya ilə müttəfiqlik münasibətləri nə deməkdir? Bu, vəziyyəti - bizim müttəfiqlik münasibətlərimizi nə dərəcədə dəyişir və Siz bu şəraitdə həmin münasibətləri necə açıqlayırsınız?**

**Prezident İlham ƏLİYEV:** Bütün bunlar o qədər yaxın vaxtda baş verib ki, əlbəttə, bunu hələ yenidən dərk etmək lazımdır. Lakin deməliyəm ki, bəyannamənin mətni bir neçə ay bundan əvvəl hazır idi. Yəni, son mətn hazır idi, sadəcə, prezidentlərin şəxsən görüşməsi lazım idi. Əlbəttə, pandemiya ilə bağlı bütün məhdudiyyətlər və prezidentlərin iş qrafiki nəzərə alınmaqla. Hələ mənim Moskvaya bundan əvvəlki səfərim zamanı - noyabrın axırlarında razılıq əldə edilmişdi ki, bu görüş cari ilin əvvəlində olacaq. Hətta Rusiya tərəfi görüşün tarixini də təklif etmişdi. Təklif edilən tarix imzalanma günündən təqribən 20 gün əvvəl idi və biz həmin təklifi qəbul etmişdik. Təbii ki, mən bu tarixi təshih etmək imkanını heç nəzərdən keçirməmişdim, ona görə ki, haqqında sizin dediyiniz hadisələr ayın 21-də, mən təyyarə ilə buraya uçanda baş verdi. Hətta mən hələ Bakıda olsaydım belə, buraya uçub gələrdim. Buna görə də bizim münasibətlərimizdə heç nə dəyişməyib və dəyişməməlidir. Biz bundan sonra da bəyannamədə əks olunmuş və uzun illər boyu işlədiyimiz istiqamətlərdə çalışacağıq. Biz uzun illər boyu beynəlxalq arenada həmişə bir-birimizi dəstəkləyirik. Saxta təvazökarlıq olmasın, deyə bilərəm ki, bu yolun əsasını mən qoymuşam, AŞ PA-da Azərbaycan parlamenti nümayəndə heyətinin sədri olarkən. Biz oraya seçiləndə bizim təşəbbüsümüzlə Rusiya nümayəndə heyəti ilə görüş təşkil etdik və razılığa gəldik ki, bütün məsələlər barədə bir-birimizi dəstəkləyəcəyik və həmişə həmrəylər kimi səs vermişik. Bu ənənə sonradan başqa beynəlxalq strukturlara da transformasiya edib. Ona görə də bunu hətta mütəxəssis olmayanlar da izləyə bilərlər. Odur ki, mənim fikrimcə biz dünən, sadəcə, olanları rəsmiləşdirdik, bunu lazım olduğu şəkildə, bizim münasibətlərimizin ruhuna uyğun şəkildə adlandırdıq və bundan sonra da bu istiqamətdə işləyəcəyik. Əminəm ki, bizim regionda baş vermiş və hələ baş verə biləcək hadisələrlə əlaqədar istər Azərbaycan tərəfindən, istərsə də Rusiya tərəfindən heç bir düzəliş olmayacaq.

**Mixail KOMİSSAR,** "İnterfax" Agentliyinin baş direktoru: **Elə bu mövzunun davamı kimi və eyni zamanda, yaxın vaxtlarda Qarabağda vəziyyətin müəyyən dərəcədə nizamlanmasını nəzərə alaraq Siz necə hesab edirsiniz, indi Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Şanxay Əməkdaşlıq Təşkilatına tərəf meyil edə bilərmi? Belə planlar varmı?**

**Prezident İlham ƏLİYEV:** Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, biz müəyyən mənada artıq fəaliyyətə başlamışıq. Artıq neçə ildir ki, biz dialoq üzrə tərəfdaşıq. Bu, birinci pillədir. İkinci pillə - müşahidəçilərdir. Biz bir neçə il bundan əvvəl öz statusumuzu müşahidəçi statusuna qədər yüksəltmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Katibliyinə rəsmən müraciət etmişik. Təəssüf ki, bu məsələ indiyə qədər həll edilməyib. Mənim Rusiya rəhbərliyi ilə, Çin Xalq Respublikasının rəhbərliyi ilə və Şanxay Əməkdaşlıq Təşkilatının digər üzvləri ilə bu kontekstdə əlaqələrim onu göstərir ki, bizim statusumuzu yüksəltməmək üçün heç bir səbəb yoxdur. Lakin bizə məlum olmayan səbəblərə görə, bu məsələ indiyə qədər baş tutmur.

Digər inteqrasiya layihələrinə gəldikdə, biz bunun məqsədəuyğunluğunu və milli maraqlarımıza nə dərəcədə cavab verməsini əsas götürürük. Fikrimcə, heç kəs üçün sirr deyil ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında aparıcı rol Rusiyaya məxsusdur. Bu, yaxın vaxtlarda MDB məkanında nümayiş etdirildi və hətta Qazaxıstan hadisələrindən əvvəl də hamıya aydın idi. Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri, habelə 43 bənddən 2-si - 6-cı və 16-cı bəndlər, - zəruri hallarda hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir. Mənim fikrimcə bu, tamamilə kifayətdir. Axı aydındır ki, KTMT-ni KTMT edən Rusiyanın orada olmasıdır. Əgər Rusiya KTMT-də olmasa, KTMT heç kəsin yadına düşməz. Hər şey bundan irəli gəlir. Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla KTMT-nin digər üzvləri ilə bizim çox etimadlı, yaxın, dostluq münasibətlərimiz var. Fikrimcə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Hər halda biz Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusunda olduğumuzu rəsmən bəyan etmişik. Yəqin ki, müəyyən mərhələdə bu, baş tutacaq. Lakin indiki geosiyasi reallıqlarda biz realist olmalı, əldə edilməsi mümkün olmayanı arzu etməməliyik. Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqamətində irəliləməliyik. Buna görə düşünürəm ki, dünənki sənəd sizin sualınıza müəyyən dərəcədə cavab verir. Növbəti mövzuları qabaqcadan duyaraq deyə bilirəm ki, eyni sözlər Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı ilə bağlı suala da aiddir. Həm ekspertlər cəmiyyətində, həm də siyasi müstəvidə bu barədə də çoxdan diskussiya gedir. Lakin biz burada da onu əsas götürürük ki, bu, bizim iqtisadi maraqlarımıza nə dərəcədə cavab verəcək, çünki bizim strategiyamız və taktiki addımlarımız həmişə öz resurslarımıza, nəyə malik olmağımıza əsaslanıb. Biz özünəyetərli iqtisadiyyat yaratmağa və istər beynəlxalq maliyyə təsisatlarından, istərsə də hər hansı başqa maliyyə mədaxilindən asılı olmamağı bacarmışıq.

Buna görə də biz hər şeyi praqmatik baxımdan təhlil edəcəyik. Dünən Rusiya Federasiyası Hökumətinin başçısı ilə görüşdə bu mövzu müzakirə edilib. Bizim mövqeyimiz Rusiya tərəfə açıq çatdırılıb ki, biz, necə deyərlər, qarşımıza iki kağız vərəqi qoymalıyıq - harada müsbət cəhətlər, harada müəyyən məhdudiyyətlər ola bilər və ya bizim iqtisadi suverenliyimizə müəyyən dərəcədə düzəliş edilə bilər. Təbii ki, lehinə və əleyhinə olan məqamları təhlil edəndən sonra bizə sərfəli olan qərar qəbul ediləcək. Bununla yanaşı, deməliyəm ki, MDB üzvü olan bütün ölkələrlə, - təbii ki, Ermənistan istisna olmaqla, - azad ticarət haqqında, o cümlədən Rusiya ilə müqavilələr imzalanıb. İqtisadi və gömrük baryerlərinin yumşaldılması istiqamətində addım atılıb. Sonrasını isə, necə deyərlər, yaşayarıq, görərik. Heç nəyi tapmaca kimi tapmaq olmaz və biz heç vaxt qısa müddətdə əldə edilməsi mümkün olmayan hansısa hədəflər elan etməmişik. Lakin təbii ki, bu, bizim komandamızın daxilində müzakirələr çərçivəsində gündəlikdədir.

**Marqarita SİMONYAN,** "RT" telekanalının və "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş redaktoru: **İlham Heydər oğlu, biz yeni-yeni sanksiyaların, o cümlədən personal sanksiyaların müzakirə olunduğu prosesdəyik, burada iştirak edənlərin bəzilərinin, məsələn, Dmitrinin Avropaya girişi artıq qadağan edilib, mənim kimi bəzilərinə isə yəqin ki, bu gün qadağan ediləcək. Biz insanların nəyi isə etdiklərinə və ya etmədiklərinə görə, yaxud Dmitri ilə mənim kimi nəyi isə dediyimizə və ya demədiyimizə görə harayasa getməyin qadağan edilməsinə dair çox nümunə gətirə bilərik. Biz, həmçinin vətəndaşlıq əsasında ölkəyə girişə qadağa qoyulmasına dair çox nümunə göstərə bilərik, çünki müxtəlif ölkələr arasında münasibətlər müxtəlif olur. Lakin dünyada etnik əlamətinə görə ölkəyə girişə qadağa qoyulmasına aid nümunələr, demək olar ki, yoxdur.**

*Ardı 3-cü səh.*

# Aysberqin zirvəsi

## Prezident İlham Əliyev TASS Agentliyində Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşdə Moskva Bəyannaməsini belə dəyərləndirdi



*Əvvəli 2-ci səh.*

**Biz hamımız bilirik ki, ermənilərin Azərbaycana girişinə qadağa qoyulub. Adətən bu, təhlükəsizlik mülahizələri ilə izah olunur. Beləliklə Azərbaycan xalqı qəribə də olsa, pis şəkildə təqdim olunur. Mənim üçün inanmaq çətindir və mən inanmıram ki, insanlar Azərbaycanda canlı etnik erməni görərsə onun üstünə atılar və onu tikə-tikə edərlər, hər halda orta əsrlərdə yaşamırıq. Siz bu məsələyə belə sivil, mədəni münasibət nümunəsi göstərmək və bu cəfəng status-kvonu, sadəcə, ləğv etmək istəməzdinizmi?**

**Prezident İlham ƏLİYEV:** Birincisi, deməliyəm ki, bizimlə bölüşdüyünüz informasiya yumşaq desək, həqiqətə uyğun deyil. Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Onlar Avropa Oyunları kimi idman tədbirlərində iştirak edirlər. Ermənistandan olan komanda iştirak edib, mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı. Mən onun da əlini sıxıb təbrik etdim və bu, zaldakı adamların ürəyincə olmasa da, onlar məni uzun müddət alqışladılar.

**Marqarita SİMONYAN:** Mən bu əhvalatı bilirəm.

**Prezident İlham ƏLİYEV:** Bax, görürsünüz. Deməli, sizin dediklərinizdə hər halda müəyyən qərəzlilik var. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycana müxtəlif tədbirlərə gələndə də eyni vəziyyət baş verir. Bir neçə il bundan əvvəl Katolikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm - erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var. Çünki təqribən 30 il ərzində Qarabağda və Zəngəzurda bütün Azərbaycan mədəniyyəti, tarixi, dini irsi məhv edilib. Mən özümlə kitab gətirmişəm, bu, hətta kitab deyil, "Qarabağ işğaldan əvvəl və sonra" adlı fotoalbomdur. Mən onu sizə təqdim edəcəyəm, siz baxarsınız, bu, hər bir sözdən yaxşıdır, orada nə baş verib və təbii ki, çoxlu zərərçəkən, valideynlərindən, yaxınlarından məhrum olan çoxlu insanlar. Bizdə indiyədək itkin düşənlərimizin sayı təqribən 4 mindir. Əfsuslar olsun ki, onlar bizə qaytarılmır və kütləvi məzarlıqların yerləri bildirilmir.

Biz öz vətəndaşlarımızın və qonaqlarımızın təhlükəsizliyinə cavabdehik. Buna görə xahişimiz ondan ibarətdir ki, ya Ermənistan vətəndaşları, ya da erməni soyadlı vətəndaşlar Azərbaycana gələndə müvafiq orqanlar məlumatlandırılsın. Xüsusi halda Rusiyadan söhbət gedirsə, səfirlik və səfir Polad Bülbüloğlu bu təlimatları bilir. Azərbaycana gəlməyə rədd cavabı verilən hallar olub. Lakin belə hallar məhz ona görə olub ki, bu formal qaydalara riayət edilməyib.

Erməni silahlı dəstələrinin nəzarəti altında olan əraziyə təsadüfən düşmüş, öz evlərinə getmək istəyən və tutulub saxlanmış, sonra əsir götürülmüş və işgəncələrə məruz qalmış azərbaycanlıların başına gələnlər barədə danışmaq istəmirəm. Bu, başqa mövzudur. Lakin düşünürəm ki, müharibə başa çatandan sonra əgər Ermənistan rəhbərliyi sülh müqaviləsi üzərində işləməyə başlamaq barədə bizim ideyaları qəbul etsə, belə səfərlər müharibədən əvvəl olduğu kimi adi hal ala bilər. İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub. Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların, ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır. Onların sayı deyilən 30 mindən çoxdur. Yəqin ki, 30 min 10-15 il bundan əvvəl olub, bununla belə onlar var, yaşayırlar və normal yaşayırlar, heç kəs onlara heç bir iddia irəli sürmür. Buna görə də sizin sualınıza cavab vermək imkanından istifadə edərək sizi Azərbaycana gəlməyə dəvət etmək istərdim. Siz görərdiniz ki, heç bir məhdudiyyət yoxdur.

**Marqarita SİMONYAN:** Siz dediniz ki, mənim sualımda qərəzlilik var. İnanın, qərəzlilik yoxdur. Sizin dediyiniz halları mən bilirəm. Siz deyirsiniz ki, hər halda bunlar xüsusi hallardır. Onlar ölkənin Prezidentinə məlumdur - idman tədbirləri, siyasi, ictimai tədbirlər. Amma, məsələn, mənim bu sistemdə işlədiyim 20 il ərzində heç kəs oraya erməni soyadlı səs rejissorunun da daxil olduğu çəkiliş qrupu göndərə bilməyib. Əgər indi belə deyilsə, Siz erməni soyadlı məni dəvət edirsinizsə, bəlkə mən özümlə daha bir neçə həmkarımı götürüm, onlar məmnuniyyətlə gələrdilər. Mən Sizi düz başa düşdümsə, belə hallarda, əgər biz oraya qrup şəklində gəliriksə, müraciət etmək olar?

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Mixail QUSMAN:** Bu, o demək deyil ki, Marqaritanın başçılıq etdiyi qrupda işləyənlərin hamısı ermənidir. Xeyr, bu, o demək deyil.

**Prezident İlham ƏLİYEV:** Amma mən fikirləşirəm ki, onların əksəriyyəti ermənilərdir.

**Marqarita SİMONYAN:** Siz yanılırsınız.

**Prezident İlham ƏLİYEV:** Siz də indicə yanıldınız.

**Marqarita SİMONYAN:** Mənim 6 min işçim var. Onların əksəriyyəti ingilis və amerikalıdır. Mən düz başa düşürəmmi ki, biz oraya gələ bilərik. İlham Heydər oğlu, mənim beşinci nəslim rusiyalıdır.

**Prezident İlham ƏLİYEV:** Bəli, lakin mən belə başa düşdüm ki, siz indiki halda erməni kimi sual verdiniz.

**Marqarita SİMONYAN:** Mən öz əməkdaşlarını yalnız etnik əlamətə görə iki ölkəyə - erməni soyadlı insanları Azərbaycana və gürcü soyadlı insanları Abxaziyaya göndərə bilməməklə üzləşən təşkilatın rəhbəri kimi sual verdim. Sadəcə, mənə elə gəlir ki, müasir dünyada bu, düzgün deyil və indi Sizinlə söhbətimizdə hansısa etnik səviyyəyə keçməyimiz də düzgün deyil.

**Prezident İlham ƏLİYEV:** Siz başladınız, mən, sadəcə, düzəliş vermək istədim, dedim ki, sizin dediyiniz düz deyil. Mən yüzlərlə belə misal göstərə bilərəm, erməni soyadlı insanlar həm çəkiliş qrupunun tərkibində, həm rəsmi nümayəndə heyətlərinin tərkibində, o cümlədən Rusiyadan, digər ölkələrdən - Fransadan, ABŞ-dan gəlirlər. Belə hallar çox olub, sadəcə, yəqin bu barədə sizin məlumatınız yoxdur. Lakin düşünürəm ki, siz öz qrupunuzla gəlsəniz, bunu yəqin edərsiniz.

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban ƏLİYEVA:** Olarmı, mən Marqaritanın dediklərinə bir az əlavə edim.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, olar.

**Mehriban ƏLİYEVA:** Bizim Moskvaya səfərimiz ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərilirdi. Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq göz yaşları tökə-tökə öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə danışmağa çalışırdı. O, hətta evinin xarabalığını da tapmadı, yəni o, heç olmasa həmin sahəni tapmağa çalışırdı. Bu, həqiqətən tamamilə dəhşətli mənzərədir. Düşünürəm, indi imkan yaranıb, mən sizin hamınızı dəvət etmək istəyirəm. Ona görə ki, cənab Prezident kitab barədə də danışdı, lakin bunları öz gözünüzlə görmək lazımdır. Nə üçün indi bu barədə danışıram, - o qadın öz sərgüzəştini danışdı və paralel olaraq müharibədən əvvəl, birinci müharibədən əvvəl çəkilmiş kadrlar qalıb. O vaxt o qadının ailəsində toy olub, - onlar bu toyu həyətdə necə qeyd ediblər, gənc gəlini qəbul ediblər və indiki, bugünkü kadrlar. Onun gözlərindən sevinc yaşı axır: nəhayət ki, bu torpağa qovuşub. O deyirdi: "Mən bu günü gördüm. Xoşbəxtəm ki, bu günə qədər yaşadım". Sonda həmin qadın bir ovuc torpağı götürüb öpür. İndi mən bunu ona görə danışıram ki, bunları çatdırmaq çətindir, yəqin bunu görmək, hiss etmək lazımdır ki, belə insanlar çoxdur. Birinci müharibə illərində bizdə 1 milyona yaxın qaçqın olub. Bu günü görmək arzusu ilə yaşayanların çoxu dünyasını dəyişib, sağ qalanlar üçün indi, əlbəttə, xoşbəxt günlərdir. Təbii ki, bu insanların ailələri var, tanışları var. Belə vəziyyətlər yarananda, həqiqətən Prezidentin vurğuladığı kimi, ilk növbədə, onları qorumaq lazımdır. Ona görə ki, çox vaxt biz böyük problemlərdən söz açanda ümumi şəkildə danışırıq və ayrıca insanı görmürük, - bu, bəlkə də təbiidir. Hər bir problemin arxasında yəqin ki, konkret insan dayanır, onun həyat tarixçəsi, emosiyaları dayanır və təəssüf ki, insanlar da, onların emosional fonu da fərqlidir. Məhz bu səbəbdən dövlət, - indiki halda Prezident Azərbaycan dövlətinin adından danışır, - Azərbaycana gələn hər kəsi qorumalıdır. Lakin dövlət insanların hansı emosiyalarla yaşadığını da bilir. Mən məktəbdə oxuyanda bizim sinif çoxmillətli idi - ermənilər, ruslar, yəhudilər, azərbaycanlılar... Hətta deyə bilmərəm ki, mənim sinfimdə azərbaycanlılar əksəriyyət təşkil edirdi, - yadınızdadırsa o vaxt bir sinifdə 45 şagird olurdu. Biz hamımız dostluq edirdik, əlbir idik, heç bir pislik gözləmirdik. Hesab edirəm ki, bu məziyyət Azərbaycan xalqının ən yaxşı cəhətlərindən biridir və o, yox ola bilməz. Bu gün belə olması tamamilə izah edilə biləndir və təəssüf ki, bunun baş verməsinin tarixi səbəbləri var.

**Marqarita SİMONYAN:** Sizinlə bir sinifdə oxuyan ermənilər yəqin ki, artıq Azərbaycanda yaşamırlar, onlar gələ bilərlərmi? Mən bunu soruşuram. İndi mən tarixə varmaq istəmirəm.

**Mehriban ƏLİYEVA:** Əlbəttə, Marqarita, gələ bilərlər.

**Marqarita SİMONYAN:** Yəni, onlar səfirliyə müraciət etməlidirlər və gələ bilərlər.

**Timur VAYNŞTEYN,** NTV telekanalının baş prodüseri: **Marqarita, bu mövzuda biz hətta səninlə danışdıq. Hətta dedim ki, mən Mehriban xanımın oxuduğu məktəbdən təqribən 150 metr məsafədə yerləşən 160 nömrəli məktəbdə oxumuşam. Bizim sinifdə də müxtəlif millətlərdən 45 nəfər var idi, özü də o zaman hələ bilmirdilər, sonralar kimin hansı millətdən olmasını öyrənməyə başladılar. Mən erməni millətindən olan məktəbli yoldaşımı konkret bilirəm, o, bir neçə il əvvəl Bakıda olub, o zaman səfirliyə müraciət edib. Bütün bunlar rəsmi idi. Aydındır ki, bizim eşitdiyimiz hallar yəqin var. Sadəcə, hadisələr olur, təəssüf ki, sosial şəbəkələrə çıxır. Lakin qlobal olaraq mümkündür. Mən yaxın vaxtlarda öz məktəbimdə oldum. Orada hər şey gözəldir. Mən hətta oxuduğum illərdən əvvəl həmin məktəbdə işləmiş pedaqoqlara rast gəldim. Hərçənd mən məktəbi bitirəndən 30 ildən çox vaxt keçib. Əlbəttə, mənim diqqət yetirdiyim, heyrətamiz faktlardan biri odur ki, məktəb indi də rus dilində işləyir. Siz dünən Vladimir Vladimiroviçlə bunu müzakirə etdiniz ki, Azərbaycanda tədrisin rus dilində aparıldığı 300-dən çox məktəb - 340 məktəb və təqribən 20 ali təhsil müəssisəsi, o cümlədən Rusiyanın məşhur universitetlərinin filialları var. Mənə elə gəlir, biz bu gün Rusiyanın müxtəlif ölkələrlə münasibətindən danışanda, vacib məsələlərdən biri məhz müttəfiqlikdir. Çünki bir çox ölkələr, təəssüf ki, həmin 1990-cı illərdə rus dilində təhsil imkanlarını və ünsiyyətin qarşısını, ümumiyyətlə, kifayət qədər sərt şəkildə kəsdilər, bu gün biz ümumilikdə Rusiyanın bu ölkələrlə kifayət qədər mürəkkəb münasibətlərini görürük, mən keçmiş Sovet İttifaqı ölkələrindən danışıram. Siz necə hesab edirsiniz, bu tendensiya, ümumiyyətlə, necə davam edəcək?**

**Prezident İlham ƏLİYEV:** Bu, dövlət siyasətinin bir hissəsidir. Lakin sizin suala cavab verməzdən əvvəl mən söhbətimizin mövzusu barədə kiçik bir arayış vermək istərdim. Lap elə bu günlərdə, hətta ola bilər elə bu gün Azərbaycan parlamentinin iki üzvü İrəvanda Avronestin sessiya iclasında olublar. Onların ora getməsi üçün biz Dövlət Təhlükəsizliyi Komitəsi və ya Nazirliyindən, - mən bilmirəm Ermənistanda necə adlandırılır, - bu adamların təhlükəsizliyi barədə zəmanət aldıq. Bəziləri biləndə ki, onlar Ermənistandadır, iğtişaşlar başlandı. İndi buna sosial şəbəkələrdə baxmaq olar, iğtişaşlar səngimir. Mənə bu gün məlumat verdilər ki, etirazçılardan on nəfəri saxlanılıb, onlar bizim deputatlarımız üçün, sadəcə, təhlükə doğurur. Bundan başqa, bu iclasın iştirakçıları üçün naharın nəzərdə tutulduğu yerdə, - orada isə təbii ki, təkcə bizim vətəndaşlar deyil, həm Avropa Parlamentinin üzvləri, həm Şərq Tərəfdaşlığı ölkələrindən üzvlər var, - restoranın sahibləri azərbaycanlılara xidmət göstərməkdən imtina ediblər. Onlar Ermənistanın baş nazirini bunda ittiham edirlər ki, guya o, azərbaycanlılar Yerevana gedəcək deyən Əliyevin fikri ilə oturub-durur. Bəli, mən bunu demişəm. Onu da demişəm ki, tanklarda yox, tədbirlərə gedəcəyik. Bu, ona görədir ki, onlar özləri razılaşdırılmadan, bütün təhlükəsizlik tədbirləri olmadan getsəydilər, onların üzərində hansı Linç mühakiməsinin qurulacağını və bütün bunların nə ilə qurtaracağını təsəvvür etmək çətin deyil. Mən əminəm ki, ən azından hamının gözü qarşısında onların başlarını kəsərdilər. Buna görə biz də tədbirlər görürük. Bu mövzu, yeri gəlmişkən, Rusiya xarici siyasət idarəsinin rəhbəri Sergey Viktoroviç Lavrovun səfərləri zamanı müzakirə edilib. Mən o vaxt izah etməyə çalışdım ki, biz hər hansı ekssess baş verməsinə yol verə bilmərik və onda bizi də ittiham edəcəklər ki, kimsə kiməsə hücum edib, daş atıb, buna görə də biz məsuliyyətli yanaşmalıyıq. Əgər bunların hamısı təşkil edilib və razılaşdırılıbsa, onda buyurun, heç bir məhdudiyyət yoxdur. Üstəlik, Mehribanın dediyi tamamilə doğrudur, müharibənin yaraları sağalmayıb. Əgər bu yaralar bizdə 30 il ərzində sağalmayıbsa, təbii ki, ikinci müharibədə məğlubiyyətdən sonra erməni xalqının da yaraları indi sağalmayıb. Bunu da başa düşmək lazımdır. Biz axı, hansısa vakuumda yaşamırıq, biz insanlar arasında yaşayırıq və buna məsuliyyətlə yanaşmalıyıq. Yeri gəlmişkən, bizim, o cümlədən mənim atdığım addımlar, erməni rəhbərliyindən fərqli olaraq, barışmalı olduğumuzu bəyan etməyimiz belə məsələlərin yaranmamasına, bunun adi hala çevrilməməsinə yönəlib. Yəqin ki, İkinci Dünya müharibəsi qurtarandan sonrakı ilk ildə də almanlar və SSRİ vətəndaşları bir-birinə qonaq getməyiblər. Onda da yəqin ki, müəyyən vaxt lazım olub. Təsəvvür edin, deyək ki, Ukraynanın və ya Belarusun, yaxud Smolenskin işğalı dövründə Moskvaya almanlar gəlsəydilər, onlara nə edərdilər? Yəni, bu analogiya, necə deyərlər, tam adekvatdır. Bu sözləri mövzuya qayıdaraq deyirəm.

Rus dilində təhsilə gəldikdə, bəli, bu, düşünülmüş siyasətdir. Təbii ki, biz bunu, ilk növbədə, özümüz üçün edirik, rus dilində təhsil almaq istəyənlərin - həm azərbaycanlıların, həm qeyri-azərbaycanlıların belə imkanları olsun. Bizim rus sektoru dediyimiz məktəblərə tələbat çoxdur və dediyim kimi, həmin məktəblərdə həm azərbaycanlılar, həm də qeyri-azərbaycanlılar - 140 mindən çox uşaq və ali məktəblərin rus bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır. Arayış üçün deyim ki, Ermənistanda erməni millətinin uşaqlarının qeyri-erməni məktəblərində təhsil alması, ya qanunvericiliklə, ya da hansısa təlimatlarla ümumiyyətlə qadağan edilib. Bildiyimə görə, Ermənistanda cəmi bir və ya iki rus məktəbi var, onlar da hərbçilər üçündür. Necə deyərlər, baxın görün kim kimdir. Odur ki, əlbəttə, dünən imzalanmış bəyannamədə humanitar əməkdaşlıq haqqında bənd də var, bu, qarşılıqlı əməkdaşlıqdır. Moskvaya səfərdən əvvəl mənə arayış verildi, orada deyilir ki, Rusiyada da təqribən 80 məktəbdə Azərbaycan dili bölməsi var. Biz bunu çox alqışlayırıq ki, azərbaycanlılar və Rusiya vətəndaşları, burada işləyənlər, onların uşaqları da öz dillərində təhsil ala bilsinlər. Yəni, bu qarşılıqlı proses tamamilə əməkdaşlıq ruhundadır və düşünürəm ki, Timur dediyi kimi, postsovet məkanındakı digər ölkələrlə müqayisədə, bu, məsələyə necə yanaşmaq nümunəsidir. Bu, təkcə təhsilə yox, bütövlükdə rus dilinə münasibətə aiddir.

*Ardı 4-cü səh.*

# Aysberqin zirvəsi

## Prezident İlham Əliyev TASS Agentliyində Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşdə Moskva Bəyannaməsini belə dəyərləndirdi

*Əvvəli 3-cü səh.*

Azərbaycanda dövlət ali təhsil müəssisəsi var - Slavyan Universiteti, orada, ilk növbədə, rus dili öyrənilir, rus dili və digər slavyan dilləri üzrə müəllimlər hazırlanır.

Pandemiyaya qədər, demək olar, Bakıda hər həftə yaradıcı ziyalıların nümayəndələri çıxış edirdilər - tamaşalar, konsertlər olurdu, yəni biz bu cür qarşılıqlı əlaqədə yaşayırıq. Timur yaxşı bilir, birinci il deyil və çox vacibdir ki, bizim artıq bir dövlətdə olmadığımız illərdə yeni nəsil yetişib, biz bunu qorumağı bacardıq və bunu gələcəkdə də qorumaq üçün əlimizdən gələni edəcəyik.

**Pavel QUSEV,** "Moskovskiy komsomolets" qəzetinin baş redaktoru: **Rusiyalıların nəzərində Türkiyə istirahət üçün çox populyar yerdir. Azərbaycan burada birinciliyə nail olmaq barədə düşünürmü, alkoqollu içkilər daha yaxşı, dəniz pis deyil, meyvələr və yerdə qalan hər şey, çay - aladır. Mənə elə gəlir ki, Azərbaycan Türkiyə ilə güclü rəqabət apara bilərdi.**

**Prezident İlham ƏLİYEV:** Yox, əlbəttə, düşünürəm bu, ağlabatan deyil. Çünki birincisi, Türkiyənin turizm sənayesi, mən hesab edirəm, dünyada ən yaxşılarından biridir və əlbəttə, iqlim şəraiti də. Yəni, sırf iqlim şəraiti səbəbindən bizim rəqabət aparmağımız tamamilə faydasızdır. Əlbəttə ki, biz, mən düşünürəm, tamam başqa seqmenti təmin edərik. Biz buraya gələnlərin özlərini evlərində olduğu kimi hiss etmələrini təmin edərik. Türkiyəyə isə görməli yerlərə baxmaq, dənizdə çimmək, xizək sürmək üçün gedirlər. Bütün bunları da Azərbaycanda etmək olar, lakin rusiyalılar çox vaxt elə bil öz evlərinə gedirlər. Yeri gəlmişkən, pandemiyaya qədər 2019-cu ildə bizdə Rusiyanın bir milyon vətəndaşı turist kimi səfərdə olub, onlar, ilk növbədə, ona görə gedirlər ki, özlərini rahat, öz mühitində, o cümlədən dil mühitində hiss edirlər. Əlbəttə ki, sizin dedikləriniz də mövcuddur, lakin bütün başqa şərait olsaydı və bu ab-hava olmasaydı, onlar yəqin ki, gəlməzdilər. Biz hər il təqribən 15-20 faiz artım müşahidə edirdik, pandemiya bütün bunları dağıtdı, lakin ötən il yenə 15 faiz artım oldu. Odur ki, biz, sadəcə, təkcə Moskvada deyil, Rusiyada daha fəal olmalı, imkanlarımızı göstərməliyik. Yəni, Azərbaycanda istirahət ən müxtəlif formalardadır və düşünürəm ki, istənilən adam, necə deyərlər, özünə maraqlı məşğuliyyət tapa bilər, sadəcə, bunu yaxşı təqdim etmək lazımdır. Əlbəttə ki, turizm sənayesinin zəif olması bizim zəif yerimizdir. Lakin burada yəqin ki, həm də obyektiv səbəblər var. Çünki bu sahə bizim üçün nisbətən yenidir və burada kadrların hazırlığı, servis məsələləri mühüm rol oynayır. Lakin məsələn, indi Rusiya şəhərləri ilə Azərbaycan şəhərləri arasında həftədə yüz reys var, əlbəttə, bu, yaxşı göstəricidir. Mən fürsətdən istifadə edib sizin hamınızı Azərbaycana dəvət etmək istərdim, ya qrup şəklində, ya fərdi qaydada.

**Mixail QUSMAN:** Yaz gələndə, təbiət çiçək açanda, - TASS-ın təcrübəsi var, - biz bütün heyətlə Azərbaycana gələrik.

**Konstantin REMÇUKOV,** "Nezavisimaya qazeta"nın baş redaktoru: **Avropada olanda ATV kanalını tapdım və iki həftə hər gün xəbərlərə baxdım. Aydın oldu ki, bu, Azərbaycan xəbərləridir. Mənim o zaman türklərlə Sizin əməkdaşlığınız haqqında belə geniş məlumatım yox idi: Hər gün regional aeroport, avtostansiyalar açılır və insanlar danışır. Türkiyənin regional güc kimi rolunun dinamizmini, bəzən Rusiyanın mənafeləri ilə kəsişən və ya üst-üstə düşən maraqlar, bəzən Suriyadakı kimi münaqişəli, Ukraynaya hərbi dronların tədarükü halında olduğu kimi məqamlar nəzərə alınmaqla, dünyanın bu hissəsində tərəfdaşlar kimi Azərbaycan-Türkiyə münasibətlərini səciyyələndirməyinizi xahiş etmək istərdim. Sağ olun.**

**Prezident İlham ƏLİYEV:** Münasibətlər də müttəfiqlik münasibətləridir. İşğaldan azad edilən Şuşa şəhərində ötən il iyunun 15-də mən və Prezident Ərdoğan tərəfindən müttəfiqlik barədə bəyannamə imzalandı. Bu da bizim malik olduqlarımızın formallaşdırılması idi, çünki Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri birinci il deyildi ki, mövcud idi. Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə idi. Biz müstəqil dövlət kimi ən birinci addımlardan Türkiyə tərəfindən mənəvi dəstəyi hiss etdik. Son illər ərzində Prezident Ərdoğanın prezidentliyi dövründə və mənim dövrümdə, - bu dövrlər ümumilikdə daha çox üst-üstə düşür, - biz faydalı əməkdaşlıq fəaliyyətimizin əmsalını əhəmiyyətli şəkildə artırmışıq. Belə bir misal çəkim: Azərbaycan Türkiyə iqtisadiyyatına 19 milyard dollar, Türkiyə isə Azərbaycana 13 milyard dollar sərmayə qoyub. Podratçı kimi Türkiyə şirkətləri tərəfindən icra olunan çoxlu infrastruktur layihələri var. Təbii ki, mədəni yaxınlıq, dil yaxınlığı, etnik yaxınlıq - bunlar çox vacibdir. Bu, həmin bünövrədir ki, bizə bu münasibətləri misli görünməmiş səviyyəyə yüksəltməyə imkan verib.

Ancaq biz bilirik, etnik yaxınlıq, o cümlədən dil yaxınlığı əfsuslar olsun ki, heç də həmişə sıx münasibətlərin rəhni deyil. Bizim vəziyyətdə buna nail olunduğu, fikrimcə, uzun illər ərzində və indi də qorunub saxlanılan düzgün siyasət, bərabərhüquqlu münasibətlər sayəsində buna nail olduq. Əlbəttə, Türkiyə Azərbaycana İkinci Qarabağ müharibəsinin elə ilk günlərindən siyasi və mənəvi dəstək göstərən ölkə oldu. Həmçinin bu siyasi, mənəvi dəstəklə Türkiyə bəzi ölkələrdəki bir sıra dairələrin Azərbaycana münasibətdə düşmənçəsinə hərəkətlərin birmənalı şəkildə qarşısını aldı. Biz bunu çox yüksək qiymətləndiririk. İkinci Qarabağ müharibəsinin ilk günündən, ilk saatlarından Prezident Ərdoğan bəyanatla çıxış etdi və sonra dəfələrlə Azərbaycanı dəstəkləyən bəyanatlar verdi. Təəccüblü deyil ki, indi Qarabağın və Şərqi Zəngəzurun bərpası işində ən başlıca rolu Türkiyə şirkətləri oynayır, onlar bizə çox kömək edirlər.

Deməliyəm ki, biz bütün bərpa işlərini yalnız öz vəsaitimiz hesabına görürük, biz heç kimdən nə kredit qismində, nə də hansısa müftə kömək kimi bir manat, rubl və ya dollar almamışıq. Biz hər şeyi öz hesabımıza edirik, lakin podratçı kimi Türkiyə şirkətlərindən çox fəal istifadə edirik. Yeri gəlmişkən, deməliyəm ki, Rusiyanın 14 şirkəti də onlara işğaldan azad edilən ərazilərdə işləmək imkanı yaradılması istəyi ilə bizə müraciət edib. Fikrimcə, əgər bizim nöqteyi-nəzərdən baxsaq dünən imzalanan sənəd mahiyyətcə tarixi nailiyyətdir. Çünki Azərbaycan iki böyük ölkə, iki qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir. Düşünürəm ki, başqa heç bir ölkə bununla öyünə bilməz. Mən hələ o barədə demirəm ki, NATO-ya üzv ölkə ilə və KTMT-nin de-fakto rəhbər ölkəsi ilə. Bu, əslində, nailiyyətdir və yəqin, heç kim üçün sirr deyil ki, artıq əməkdaşlığın üçtərəfli formatı da de-fakto formalaşır. O, hələ formalaşmayıb, prezidentlər də daxil olmaqla, hələ xarici işlər nazirlərinin görüşü baş tutmayıb, lakin o, artıq formalaşır. O, ümumi maraqlar, praqmatizm və oxşarlıq əsasında formalaşır. Bizim idarəetmə sisteminin oxşarlığı, tərəfdar olduğumuz dəyərlərin oxşarlığı heç kim üçün sirr deyil. Məsələn, bizə çox xoşdur ki, prezidentlər Ərdoğan və Putin arasında olduqca etibarlı münasibətlər mövcuddur. Onların hər ikisi bu barədə açıq şəkildə danışırlar. Beləliklə, mən fikirləşirəm ki, bu münasibətləri formalaşdıracağımız o gün artıq uzaqda deyil. Xüsusən ona görə ki, Azərbaycan Rusiyanın və Türkiyənin müttəfiqidir, burada necə deyərlər, artıq növbəti addım tələb olunur. Ancaq bu, bizim işimiz deyil, lakin biz öz tərəfimizdən iki ölkənin maraqlarının yaxınlaşdırılması üzərində həmişə işləmişik.

**Oleq DOBRODEYEV,** Ümumrusiya Dövlət Teleradio Yayımlar şirkətinin baş direktoru: **İlham Heydər oğlu, mən Sizdən bunu soruşmaq istərdim. Mənim yəqin ki, ən ağır xatirələrimdən biri 1990-cı illərin əvvəllərində Bakıda olanda yüz minlərlə qaçqın barədə idi, praktik olaraq bütün şəhər, şəhərin bütün mərkəzi. Əlbəttə, Siz xatırlayırsınız. Mənim sualım belədir. Artıq 30 ildən çox müddət keçib. Aydındır ki, bu, ağlasığmaz ağrı, faciədir, lakin Siz haqlı olaraq dediniz, ən ağrılı odur ki, bu, hər bir konkret insanın üzərindən keçir. Onlar indi hansı fəallıqla geriyə qayıdırlar?**

**Prezident İlham ƏLİYEV:** Hələ ki, qayıtmağa yer yoxdur, çünki birincisi, hər şey dağıdılıb və ikincisi, hər yer minalanıb. Müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur. Müharibə başa çatandan sonra ilk aylarda Vladimir Vladimiroviç Putinin çağırışlarına baxmayaraq, baş nazir Paşinyan onlarda mina xəritələrinin olmaması barədə inadla danışırdı. Bu, yalan idi və biz bilirdik ki, minalanmış sahələrin xəritəsi var. Bir neçə aydan sonra artıq onlar etiraf etdilər ki, bəli, belə xəritələr mövcuddur, lakin onları bizə verməkdən imtina edirdilər. Əslində, bununla beynəlxalq humanitar hüququ kobud şəkildə pozur və barələrində danışdığınız qaçqınları ölümə məhkum edirdilər. Çünki insanlar 30 il gözləmişdilər, hamının qarşısını almaq, hər yolda blok-postlar qurmaq da mümkün deyildi. Yəni, dolayı yollar var, insanlar keçir, gedirlər, öz evlərinin heç olmasa xarabalığını axtarıb tapmaq istəyirlər və həlak olurlar. Minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir. Yəni, əslində, yararsızdır. Bu, başlıca problemdir ki, niyə biz artıq indi insanları qaytara bilmirik. Buna baxmayaraq, biz indi pilot layihəni icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərindən birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə, müqayisə üçün deyim ki, biz Livanın ərazisinə bərabər ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni, sözün əsl mənasında, hər şey dağıdılıb. Ağdam şəhərində 30-40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb aparıb, satıblar. Başdaşlarını sındırıb, aparıb və satıblar. Yəni, misli görünməmiş, ağlasığmayan miqyasda vandallıq. Bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altında olan ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bunu görməməyi üstün tutub.

Beləliklə, bizim qarşıda böyük işlərimiz var - su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışdıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq. Pilot layihə icra olunur, lakin bu, vaxt aparacaq. Deməliyəm ki, bununla paralel olaraq, işğal dövründə biz qaçqınlar üçün fəal şəkildə evlər tikirdik, hər il təxminən 5-6 min ailəni, təqribən 30 min insanı yerləşdirirdik. Yəni, onlardan təqribən 70 faizi normal yaşayır. Biz Bakıda, Sumqayıtda, Gəncədə və bir çox şəhərlərdə evlər tikirdik. Lakin onların 30 faizi hələ də uyğunlaşdırılmayan binalarda, yataqxanalarda, uşaq bağçalarında və ağır şəraitdə yaşayır. Buna görə də, ilk növbədə, bu kateqoriyadan olan insanlar geri qaytarılacaq. Artıq bizim tərəfimizdən Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin Baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcək. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. "Yaşıl enerji" prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası "yaşıl enerji" zonası və "ağıllı şəhərlər", "ağıllı kəndlər" konsepsiyası olacaq. Bu insanlar çox gözləyiblər, bu səbəbdən onlar Azərbaycanda mümkün olan ən yaxşı şəraitdə yaşamalıdırlar. Mən konkret müddət deyə bilmərəm, hətta onlarla görüşlərdə deyə bilmərəm, onları yanılda bilmərəm. Biz bu prosesi sürətləndirmək üçün hər gün, hər saat hər şey edirik. Lakin bizə, əlbəttə ki, kömək lazımdır, məhz minalardan təmizlənmə baxımından, hətta maliyyə yardımı deyil, texniki yardım lazımdır. Sadəcə, biz fiziki cəhətdən çatdıra bilmirik. Bizim Minatəmizləmə Agentliyimiz var, Müdafiə Nazirliyində bir neçə batalyonumuz var, FHN qrupu var. Lakin fiziki baxımdan çatmır, çünki bu, çox ləng prosesdir. Buna görə də biz beynəlxalq strukturlara kömək üçün müraciət etmişik. Lakin əfsuslar olsun ki, artıq bir il üç ay keçib, hələ də müraciətimiz cavabsız qalıb.

**Konstantin ERNST,** Birinci kanalın baş direktoru: **Minalardan təmizlənmə işlərində Rusiya FHN-in böyük təcrübəsi var. Onlar Afrikada böyük müqavilələr götürürlər, onlarda təcrübə böyükdür.**

**Prezident İlham ƏLİYEV:** Onlar, ilk növbədə, treninq üzrə pulsuz kömək qismində iştirak ediblər, çünki hər şeydən ziyadə indi bizə bacardığımız qədər çox mütəxəssis hazırlamaq lazımdır ki, onlar bu işlə məşğul olsunlar. Əfsuslar olsun ki, minalardan təmizləmə işlərini aparanlar arasında da zərər çəkənlər var. Bu, əsas problemdir.

Əlbəttə ki, itkin düşənlər, çünki İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad etdiyimiz ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu bizim tərəfimizdən tapılıb və biz onların hamısını qaytarmışıq. Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur. Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir.

**Yevgeni BEKASOV,** "Rossiya-24" telekanalının Baş redaktoru: İlham Heydər oğlu, qısa sual verəcəyəm. Hazırda spot bazarındakı qazın qiymətinin artması barədə hamınız bilirsiniz. Azərbaycan Avropa bazarına tədarükü artırmağa hazırdırmı və hansı miqdarda?

**Prezident İlham ƏLİYEV:** Belə sorğular bizə mövcud vəziyyəti nəzərə almaqla Avropa komissiyasının məsul nümayəndələri tərəfindən daxil olur. Lakin məsələ ondadır ki, bizim ölkədə Avropaya tədarükə başladığımız bütün həcmlər, biz isə bunu bir ildən bir qədər artıq, Trans-Adriatik qaz kəmərinin tikildiyi zaman etməyə başladıq, hamısı artıq çoxdan, 4 və ya 5 il əvvəl kontraktlaşdırılıb. Siz yaxşı bilirsiniz, qaz elə bir məhsuldur ki, onu əvvəlcə satmaq, sonra isə hasil etmək lazımdır, ona görə də biz, sadəcə, fiziki olaraq, buna malik deyilik, yəni, bizə əlavə qazın lazım olduğunu nəzərə almamışdıq. Bizim ən böyük istehlakçımız Türkiyədir. Ondan sonra İtaliya, sonra Gürcüstan, Yunanıstan, Bolqarıstan. Biz keçən il cəmi 19 milyard kubmetr qaz ixrac etmişik, bu il daha çox olacaq. Ola bilər ki, artığı spot bazarında satılsın.

Uzunmüddətli kontraktlara gəldikdə isə bunun üçün təbii ki, biz əlavə olaraq sərmayə qoymalıyıq. Söhbət böyük həcmlərdən gedirsə, o cümlədən Trans-Adriatik qaz kəmərinin genişləndirilməsinə sərmayə qoymaq lazımdır, çünki o, bizim qazın həcminə uyğun hesablanmışdı. Bütün bunlar, təbii ki, böyük xərc və təminat tələb edir. Artıq bizə bir neçə ölkə müraciət edir, lakin onlar özləri də, yəqin başa düşürlər ki, bu, həll oluna bilməz. Spot bazarında satışlar cüzi ola bilər, həcmi artırmaq üçün isə təbii ki, potensial var. Bir neçə ildən sonra biz ən azı iki yeni yataqdan qaz hasil edəcəyik, onlardan birindən artıq gələn il. Bu qaz, təbii ki, xarici bazarda satıla bilər.

Lakin deməliyəm ki, bizim üçün ən cəlbedici tərəfdaş Türkiyədir. Birincisi, çünki biz müttəfiqik və düşünürəm ki, Türkiyə və Azərbaycan arasında qarşılıqlı fəaliyyət təsəvvür oluna biləcək ən yüksək səviyyədədir. İkincisi, Türkiyə bazarında artan tələbatdır və Rusiya iri təchizatçıdır. Bazar da böyüyür, çünki Türkiyədə qazlaşdırma prosesi gedir. Lakin yaxşı şərtlər təklif olunduğu təqdirdə, əlbəttə, biz istənilən digər variantı gözdən keçirə bilərik. Hazırda Avropada müxtəlif ölkələr arasında Türkiyədən keçməklə Rusiya, Azərbaycan və ya hər hansı digər ölkənin qazına yönəldilmiş interkonnektorların yaradılması üzrə iş gedir. Odur ki, sata biləcəyimiz həcmi dəqiq təsəvvür etmək üçün səylərimizi əlaqələndirmək planında Rusiya ilə Azərbaycan arasında fəal əməkdaşlıq da mümkündür. Başqa sözlə, bir-birimizə problem yaratmamalıyıq. Çünki qazın yüksək qiyməti həm bizim, həm Rusiyanın maraqlarına cavab verir. Buna görə düşünürəm ki, burada söhbət rəqabətdən getmir, həcmlər müqayisə olunmazdır. Lakin aydındır ki, qaz bazarında hətta kiçik həcmlər bəzən müəyyən əhəmiyyət kəsb edə bilər. Bax, bunun qarşısını almaq üçün biz prinsip etibarilə Rusiya tərəfi ilə bu istiqamətdə iş birliyi qurmağa hazırıq.

**Jurnalist:** Biz Pavel Nikolayeviçin sayəsində artıq aprel ayında Azərbaycana səfər barədə razılığa gəlmişik.

**Mixail QUSMAN:** TASS ənənəvi olaraq təşkilati məsələlərlə məşğul olur.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, maraq olsa, həmçinin istərdim ki, Siz işğaldan azad etdiyimiz ərazilərdə də olasınız. Hazırda, yeri gəlmişkən, artıq ikinci beynəlxalq səyahətçilər qrupu gəlir, üstəlik, onlar bizim onlara yardım etməyimizi xahiş edirlər, yəni, biz onları çağırmırıq, onlar özləri gəlirlər. Nomad Maniya beynəlxalq səyahətçilər qrupu vardır. Bu, yəqin ki, heç bir yerdə görə bilməyəcəyiniz bir mənzərədir. Bu, əslində, ağır, çox ağır sınaqdır. Müharibədən dərhal sonra ilk dəfə biz Mehribanla orada olanda bunu gördük. Onu heç nə ilə müqayisə etmək olmaz. Yenə də deyirəm, dağıntının miqyasını təsəvvür etmirdik, biz güman edirdik, bilirdik, orada binoklla nəyisə görmüşdük, lakin bunun bu qədər kütləvi xarakter daşıdığını təsəvvür etmirdik.

**Mixail QUSMAN:** İlham Heydər oğlu, Azərbaycanın COVID-19-la necə mübarizə apardığını mən şəxsən özüm bilirəm və ÜST yüksək qiymət verib. Hazırda vəziyyət necədir?

**Prezident İlham ƏLİYEV:** Mən düşünürəm ki, bu suala Mehriban cavab versə, daha məqsədəuyğun olar, çünki bizdə bu məsələ ilə o, məşğul olur.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:** Hazırda vəziyyətə görə, demək olar ki, Azərbaycanda son dalğa azalmaqdadır. Lakin maraqlıdırsa, mən bir qədər təcrübəmiz barədə danışa bilərəm, çünki Azərbaycan da daxil olmaqla, bütün ölkələrin qarşılaşdığı vəziyyət qeyri-adi idi və problem çox böyük idi. İki ildən bir qədər artıq müddət keçəndən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm. Bütün bunlar başlayanda, 2020-ci ilin fevral-mart ayları idi. Yəqin ki, hamınız xatırlayırsınız, müxtəlif versiyalar var idi, kimsə inanırdı, kimsə dərk edirdi, kimsə anlamırdı, inkaretmə mövcud idi. Fevral ayının sonunda biz aydın şəkildə dərk edirdik ki, nəyisə həqiqətən də çox ciddi hadisə baş verir və bu, qeyri-ordinar, təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Mən hesab edirəm ki, sonrakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt aydın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaq.

Lakin cənab Prezident sağ olsun, o, dərhal tövsiyələri dinləməyə başladı. Beləliklə, biz birinci mərhələdə sərhədlərin bağlanması barədə qərarı kifayət qədər tez qəbul etdik. Mart ayı idi. Bu, əlbəttə, müəyyən dərəcədə kömək etdi, lakin hadisələrin sonrakı gedişi göstərdi ki, güclü, ciddi karantin rejimləri nə dərəcədə kifayət imiş. Bundan başqa, tez bir zamanda daha bir vacib tədbir görülməli idi və komanda bu işin öhdəsindən gəldi. Təbii ki, səhiyyə sahəsində bizim zəif yerlərimiz gözdən keçirilməli idi, çünki əsas problem - səhiyyə sistemində kollaps idi və artıq təxminən aprel ayında bizdə nəyin çatışmadığını bilirdik. Biz qısa müddətdə on, sonradan isə daha iki - cəmi 12 modul tipli xəstəxana ala bildik. Əlbəttə, yenə vəsait ayrılmışdı. Həmin xəstəxanalar çox qısa müddətdə ölkəyə gətirildi və yığıldı. Bir ildən sonra, ilk ilin təcrübəsinə əsaslanaraq, hansı avadanlığın, hansı xəstəxanaların bizə lazım olduğunu biz dəqiq bilirdik. Məsələn, pandemiyanın ikinci ilində biz artıq sırf reanimasiya çarpayıları ilə təchiz olunmuş modul tipli xəstəxanalar sifariş edirdik, çünki aydın oldu ki, adi çarpayılarla problem olmayacaq, reanimasiya çarpayıları ilə isə ola bilər.

Yəqin əsas aspektlərdən biri ondan ibarətdir ki, bu komanda işləyirdi. O, indiyə qədər işləyir. Deyə bilərəm ki, onların bugünə qədər verdiyi proqnozlar 90-95 faiz düz çıxıb. Yəni, biz hər bir dalğanı gözləyirdik. Bizdə nə vaxt artım, nə vaxt azalma, nə vaxt pik olacağı barədə xəta bir həftə ola bilərdi. Bu, bizə çox kömək edirdi, çünki hökumətin müəyyən təcili tədbirlər, karantin tədbirləri görməsi lazım olanda, müddətləri düzgün hesablamasına imkan verirdi. Təbii ki, bununla paralel olaraq zəruri tibbi avadanlıq və dərmanlar alındı. Birinci ilin sonuna, hətta ortalarına doğru artıq aydın oldu ki, söhbət vaksinasiyadan gedir. Burada da həmkarlarımız sürətlə əlaqə saxlaya bildilər. Səhv etmirəmsə, dünyada birinci vaksinasiya 2020-ci ilin dekabrında Amerikada, gərək ki, Birləşmiş Ştatlarda həyata keçirilib. Bizdə vaksinasiya 2021-ci il yanvarın 18-də başlandı. Yəni, ölkəyə vaksinlər kifayət qədər tez çatdırıldı. Bunlar Çin vaksinləri, növbəti mərhələdə Rusiya vaksinləri idi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də aldıq. Yəni, vaksinləri seçmək imkanı vardı. Təbii ki, vaksinasiyanın könüllü olacağı qərara alındı və seçim vardı. Burada, əlbəttə, ikinci aspekt çox vacibdir. Hesab edirəm ki, Mixailin dediyi kimi, bizim təcrübəmizi uğurlu hesab etsək, yəqin ki, cəmiyyətlə düzgün kommunikasiya çox vacib aspektdir. Ona görə ki, situasiya insanlar üçün yeni, çox cəhətdən qorxulu idi. İnkar edənlər də vardı, hər yerdə olduğu kimi, prinsip etibarilə müxtəlif konspiroloji versiyalar vardı. Bizə nə kömək etdi? İlk növbədə, bizə kömək edən bunu başa düşməyimiz oldu ki, qərargahdan daxil olacaq ismarıclar tamamilə dürüst olmalıdır, biz onları elə yoxlamalıyıq ki, sonradan dəyişməyək. Ona görə ki, belə vəziyyətdə dediyimizi etmək çox vacib idi. Bu halda da mən yenə Prezidentə minnətdaram, çünki o, insanlara, ictimaiyyətə müraciət edir və bu ismarıcları verirdi. Əlbəttə, burada insanların Prezidentə etimadı öz rolunu oynadı. COVID ilə bağlı vəziyyətdə bu etimadın nə dərəcədə vacib olması bir daha təsdiqləndi, ona görə ki, Prezidentdən eşidilənlər birmənalı həqiqət kimi qəbul edilirdi. Əlbəttə, skeptiklər, skeptik əhval-ruhiyyəli insanlar vardı, az sayda vaksin əleyhdarları var. Lakin bütövlükdə biz ciddi ziddiyyətlərdən və ya iğtişaşlardan qaça bildik. Bizdə insanlar vaksin vurdurmağa getdilər və yetərincə intizamlı şəkildə vaksinləndilər. Bugünə qədər bizdə yaşı 18-dən yuxarı olan insanların təqribən 70 faizi iki doza vaksin alıb. Ona görə ki, bizdə əsasən yaşı 18-dən yuxarı olan insanlar vaksinlənir. Uşaqlar üçün vaksinləmə yalnız valideynlərin qərarı ilə həyata keçirilir, məcburi vaksinləmə yoxdur. Səhiyyə Nazirliyi belə də elan edir ki, bu, yalnız valideynlərin qərarı ilə həyata keçir. Ona görə də bu iki tədbirin kompleksi ən optimal ssenari üzrə hərəkət etməyə imkan verdi. Əlbəttə, belə bir ehtiyatlı optimizm var ki, "omikron" epidemiyanın sonu ola bilər. Bununla bərabər, başqa versiyalar da səslənir. Deyirlər ki, virusun daha artıq təhlükəli, daha ölümcül yeni versiyaları yarana bilər. Lakin bütövlükdə keçilmiş yolu təhlil edərək bu gün mən bu iki komponenti əsas hesab edirəm: tezliklə yüksək iş qabiliyyətli, çox düzgün komanda yaratmaq, - vurğulamaq istəyirəm ki, bu komanda təkcə həkimlərdən ibarət olmamalıdır, - ikincisi, biz cəmiyyətə fikrimizcə, çox yoxlanılmış və çox düzgün ismarıclar vermişik. Bu, öz təsirini göstərib. Bu, elə mövzudur ki, fürsətdən istifadə edib, hamıya cansağlığı arzu etmək istəyirəm. Ona görə ki, əlbəttə, bu iki il hamı üçün çox mürəkkəb olub. Kimlərinsə daha uğurlu sağalmasına baxmayaraq, təəssüf ki, kimlərinsə müalicəsi nisbətən uğursuz olur, insanlar vəfat edir.



*Ardı 5-ci səh.*

# Aysberqin zirvəsi

## Prezident İlham Əliyev TASS Agentliyində Rusiyanın aparıcı KİV rəhbərləri ilə görüşdə Moskva Bəyannaməsini belə dəyərləndirdi

*Əvvəli 4-cü səh.*

Bizdə də ölənlər olur. Çox ümid etmək istərdim ki, biz artıq bu bəlanın sonuna yaxınlaşırıq.

**Mixail QUSMAN:** Mehriban xanım, qeyd etmək lazımdır ki, cənab Prezident televiziya formatında müraciət edirdi, yaşı "18+" olanlar isə Sizin yazdıqlarınızı sosial şəbəkələrdə oxuyurdular. Obyektivlik naminə həm də daim sosial şəbəkələr vasitəsilə müraciət edirdilər.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:** Bax, məhz bu, çox vacibdir. Ona görə ki, yadımdadır, bu iki il ərzində Prezidentin keçirdiyi müxtəlif tədbirlərin istər pandemiyaya, istərsə təbabətə aidiyyəti yox idi. Lakin mən hər dəfə ondan xahiş edirdim ki, həmin məqam üçün mühüm tezis hazırlayım, bu və ya digər formada xahiş edirdim ki, bu tezis səsləndirilsin, bilirəm ki, insanlar qulaq asır və inanırlar. Bu da real təsirini göstərdi. Bax, bu, çox kömək etdi.

**Prezident İlham ƏLİYEV:** Yeri gəlmişkən, biz beynəlxalq səviyyədə də həm kömək edən, həm də "vaksin millətçiliyi"nə qarşı çox fəal çıxış edən azsaylı ölkələrdən biriyik. Mən beynəlxalq tribunalardan çıxışlarımda dəfələrlə demişəm, rəqəmlər gətirmişəm ki, inkişaf etməkdə olan ölkələr arasında vaksinasiya səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə onlarca dəfə aşağıdır. Üstəlik, inkişaf etmiş bəzi ölkələr, xüsusən ilk dövrdə, bu vaksinlərin çatışmadığı, onları əldə etməyin çox çətin olduğu dövrdə onları külli miqdarda alıblar və almaqda davam edirlər. Mehriban deyir ki, biz yanvarda başlamışıq, lakin bu, çox çətin idi, çünki o vaxt, ümumiyyətlə, vaksinləri olanlar az idi, biz regionda birincilərdən biri olduq. Məhz yardım göstərmək, inkişaf etməkdə olan ölkələrə kömək göstərmək üçün biz başçılıq etdiyimiz Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi təşəbbüsünü, sonra isə Qoşulmama Hərəkatının adından Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdük və bu sessiya keçirildi. Həmçinin nəinki başqalarına kömək etməyən və yalnız özü haqqında düşünən, həm də onlara lazım olduğundan qat-qat çox vaksin alan ölkələri qınayan müvafiq qətnamələr qəbul edildi. İndi mən həmin ölkələrin adlarını çəkmək istəmirəm, bu statistika bizdə var. Bu, qəbul edildi. Ona görə ki, həqiqətən qlobal mənzərəyə nəzər salsaq inkişaf etmiş ölkələr, - təbii ki, Avropa ölkələri, - özlərini tam təmin ediblər, amma belə adlanan üçüncü dünya ölkələrinin çoxunda hətta kimin ölməsi, kimin qalması statistikası belə aparılmır. Onlar, sadəcə, taleyin ümidinə qalıb. Biz təqribən 80 ölkəyə maliyyə yardımı və humanitar yardım göstərmişik. Bir çox ölkələrə vaksinlərlə - həm Çin vaksini, həm AstraZeneca ilə yardım göstərmişik və göstərməkdə davam edirik. Biz Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) ilk növbədə, Qoşulmama Hərəkatının üzvü olan ölkələrdə vaksinasiya üçün 10 milyon dollar könüllü ianə ayırmışıq və ÜST özünün açıq çıxışlarında Azərbaycanı həm daxildə, həm də kənarda nümunəvi ölkə kimi qiymətləndirib. Ona görə bu beynəlxalq format da çox vacibdir. Mən bilirəm ki, Rusiya da çox fəal kömək edib və edir. Yeri gəlmişkən, Rusiya bizə də həm PZR testləri ilə kömək edib, həm həkim briqadaları, həm də "Sputnik V" vaksini göndərib. Biz bilirik ki, bəzən ölkə daxilində də "Sputnik V" vaksini çatışmır, lakin bizim üçün artıq 220 min doza ayrılıb. Əlbəttə, bizim istifadə etdiyimiz 12 milyon doza ilə müqayisədə bu, kiçik miqdardır, lakin hər halda bu da dostluq jestidir. Biz bunu belə qəbul etmişik.

**Mixail QUSMAN: İlham Heydər oğlu, Siz Qoşulmama Hərəkatını xatırlatdınız. Bu Hərəkat daha çox 1960-cı illərdə populyar idi. Siz dediniz ki, indi Hərəkata Azərbaycan sədrlik edir. Dünya arenasında Qoşulmama Hərəkatının yeni amil kimi yaranması meyli varmı? Çünki bu, onunla bağlıdırmı ki, ona Azərbaycan sədrlik edir. Lakin prinsipcə müasir dünyada yeni qüvvə kimi bu, nə qədər aktualdır?**

**Prezident İlham ƏLİYEV:** Fikrimcə, buna tələbat var. Biz bu missiyaya çox məsuliyyətlə yanaşmışıq. Mən, əlbəttə, bizi heç kimlə müqayisə etmək istəmirəm. Lakin siz də qeyd etdiniz ki, müəyyən mərhələdə Hərəkat öz dinamikliyini itirdi. Yəqin ki, bu, nəsillərin dəyişməsi ilə əlaqədar idi. Hər halda Qoşulmama Hərəkatının başlanğıcında Tito, Nasir... durmuşdular.

**Mixail QUSMAN:** Bandaranaike...

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, bu xadimlər siyasi arenadan getdikdən sonra yəqin ki, müəyyən boşluq əmələ gəldi. Lakin beynəlxalq ictimaiyyətin belə qütbləşməsi də ümumilikdə ehtimal ki, öz rolunu oynayıb, çünki o, necə isə yavaş-yavaş sönməyə başladı. Biz nisbətən yeni üzvük. Biz 10 ildən bir az artıqdır ki, seçilmişik və sözün əsl mənasında, bir neçə ildən sonra bizə belə etimad göstərildi, yekdilliklə seçildik. Bizə özümüz daxil olmaqla, 120 ölkə səs verdi. Bizim missiyamızın hansı dərəcədə uğurlu olmasını deyə bilmərik. Lakin sədrliyimizin bir il uzadılması faktı yenə də bizim öz funksiyamızı yerinə yetirməyimizdən xəbər verir. Bakıda, sədrliyi öz üzərimizə götürdüyümüz sammitdə mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti qoruyacaq və üzv ölkələrin maraqlarını müdafiə edəcəyik. Biz bunu edirik. Biz beynəlxalq hüququ və ədaləti 2020-ci ildə bərpa etdik, üzv ölkələrin maraqlarını isə öz imkanlarımız hüdudunda müdafiə edirik. Dediyim kimi, humanitar-maliyyə yardımı və qlobal arenada mühüm tezislərin artikulyasiyası ilə. Hesab edirəm ki, Hərəkatın institutlaşdırılması istiqamətində müəyyən addımların atılması üçün potensial mövcuddur. Çünki bu, təşkilat deyil, Hərəkat adlandırılıb. Həm ölkə daxilində, həm də bəzi ölkələr arasında ziddiyyətlər olmasına baxmayaraq, hər halda bu, BMT-dən sonra ikinci təşkilatdır. Lakin Azərbaycanın həm vicdanlı üzv kimi və rəhbər kimi rolu artıq tanınıb. Bir daha deyirəm ki, Hərəkatın bütün üzv ölkələrinin bizi iki dəfə dəstəkləməsi, - ölkələr arasında çox ciddi qarşıdurmalar mövcuddur, - məhz bizim xarici siyasətimizin qarşıdurmasız kursundan xəbər verir, əksinə, bu siyasət əməkdaşlığa və imkanlar çərçivəsində köməyə hədəflənib. Bu istiqamətdə işləyən bizik. Fikrimcə, məkan mövcuddur və biz onun içərisinə çox səmərəli şəkildə yerləşə bilərik.

**Mixail PETROV,** TASS Agentliyinin baş redaktoru: **İlham Heydər oğlu, icazə versəniz, bugünkü görüşümüzə nə ilə başlamağımıza qayıtmaq istərdim. Belə alındı ki, Siz Rusiya tərəfindən Donetsk respublikalarının tanınmasından sonra Prezident Putin ilə ünsiyyətdə olan ilk xarici dövlət liderisiniz. Aydındır ki, biz, əlbəttə, hamımız Prezidentin bəyanatını, Rusiya Prezidentinin televiziya müraciətini eşitdik. Lakin bununla belə Siz vəziyyəti daxildən bilirsiniz və Putin ilə danışıqlardan sonra Siz ukraynalı həmkarlarınızla, türkiyəli həmkarınızla daim kontaktda olursunuz, hər halda, bu hadisəyə cəlb edilmiş olursunuz. Bu biliyinizlə, böyük təcrübənizlə Sizin proqnozunuz necədir? Aydındır ki, bu, ikitərəfli Rusiya-Ukrayna vəziyyəti deyil, bu vəziyyət bütün dünyaya aid edilir. Bundan sonrakı inkişafı Siz necə görürsünüz? Bu, zaman etibarilə nə qədər davam edəcək? Həm region üçün və həm də bütün dünya üçün bunun nə dərəcədə ciddi fəsadları olacaq? Mən, əlbəttə, Sizdən danışıqlarda səslənən qapalı məlumatlardan söhbət açmağınızı xahiş etmirəm. Lakin bununla belə Sizin bu məsələyə verdiyiniz şəxsi qiymət necədir?**

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ki, proqnoz vermək mən tərəfdən çox məsuliyyətsizlik olardı, çünki mən həmişə faktlardan istifadə etməyin, baş verən vəziyyəti bizə aid olan sahədə dəyərləndirməyin, bu vəziyyətin Azərbaycan üçün maksimum əlverişli formalaşması üçün mümkün olan hər şeyi etməyin tərəfdarıyam. Düzünü desəm, Azərbaycan ilə Ermənistan arasında münasibətlər, bu münasibətlərin necə cərəyan edəcəyi barədə proqnoz vermək mənim üçün çətindir. Çünki bütün bunlar təzədir. Bizim bəyanatlarımız və sülhün bərqərar olmasına hədəflənməyimiz hələ ki erməni rəhbərliyi tərəfindən ən azı açıq şəkildə qəbul edilmir. Buna görə də bu yaxınlarda baş verən hadisələr nəzərə alınmaqla dünyada vəziyyətin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çox çətindir. Fikrimcə, təkcə mənə deyil, bilavasitə bu prosesə cəlb edilənlərə də çox çətindir. Çünki hər şeyi və bütün əsas ölkələrin hərəkətini qabaqcadan görmək çox çətindir. Hətta İkinci Qarabağ müharibəsi başlananda, hətta o potensialla - həm siyasi, həm hərbi, həm iqtisadi potensialla biz hər şeyi qabaqcadan nəzərə ala bilmirdik. Çünki müharibəni qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. Çünki təsdiqlənmiş planlar çərçivəsində gedirdik və yolumuzdan çıxmırdıq, lakin bu axında müxtəlif dolambaclar vardı. Rusiya ilə Ukrayna arasında vəziyyət barədə də bunu demək olar. Hər şey o qədər təzədir ki, hələ aparıcı paytaxtlardan biz yalnız təbii ki, büsbütün zidd bəyanatlar görürük. Vəziyyətin necə cərəyan edəcəyini deməyə çətinlik çəkirəm. Rusiyaya qarşı da sanksiyalar nədən ibarət olacaq? Axı, Qərb hələ də bunları elan etməyib. Yəni, hansısa eyhamlar edilir.

Mən eşitdim ki, sanksiya elan etmək istəmirlər, guya hesab edirlər ki, bu, onların elan olunmamasının qarşısının alınması amili ola bilər, elan isə onların nöqteyi-nəzərindən əl-qolu açacaq. Lakin bu, sizin kimi mənim də həm Rusiya televiziyasına, həm Türkiyə televiziyasına, həm də Britaniya televiziyasına, mənim linqvistik bacarıqlarım imkan verdiyi qədər baxaraq çıxardığım elə həmin təhlildir. Mən hansısa analogiyalar və analiz, vəziyyəti bilmək nöqteyi-nəzərindən sizdən çox məlumata malik deyiləm, çünki biz Rusiya ilə çox sıx işləyirik, Ukrayna ilə də bizim münasibətlərimiz inkişaf edir. Nəyisə təxmin edə bilərəm, lakin əminəm ki, dediyim kimi, bilavasitə cəlb edilənlər hər şeyi proqnozlaşdıra bilməzlər. Bunun üçün planları bilmək lazımdır. Bunun üçün Rusiya rəhbərliyinin planlarını, Ukrayna rəhbərliyinin planlarını, imkanlarını bilmək lazımdır. Biz Qərbin reaksiyasını o, praktik müstəviyə - bəyanatlardan fəaliyyətə keçəndə təxmin edə bilərik. Hələ ki bütün bunları proqnozlaşdırmaq çox çətindir, lakin birmənalıdır ki, bu, uzunmüddətli prosesin başlanğıcıdır. Birmənalıdır ki, Rusiya Federasiyasının Prezidenti bu qərarı qəbul edəndə, yəqin düşünürəm ki, o da bu prosesin uzun olduğunu nəzərə alıb. Mən hesab edirəm ki, Rusiya özünün potensialı, coğrafiyası, imkanları ilə istənilən növ sanksiyaya davamlıdır. Bu, mənim şəxsi fikrimdir və bu, Rusiyaya tətbiq edilmiş həmin sanksiyalarla təsdiq edilir. Əslinə baxanda həmin sanksiyalar Rusiya istehsalçılarına idxaldan asılılığı azaltmaqda kömək etdi. Yəni, mən birmənalı əminəm ki, sanksiya yolu səmərəsizdir. Əlbəttə, o, Rusiya iqtisadiyyatına, sözsüz ki, zərər vuracaq. Prezident Putin bu qərarı qəbul edəndə, yəqin ki, o, bunun hamısını hesablayıb. Lakin bu, həmin sanksiyaları tətbiq edənlərə də birmənalı şəkildə zərər vuracaq. Çünki ixrac üçün, özü də yüksək texnologiya məhsulları üçün ikinci belə perspektivli bazar tapmaq çətindir. Bu, mənim deyə biləcəyim maksimum bundan ibarətdir. Bu mövzunu 30 il ərzində bizə hər zaman çağırış edilən məlum ifadələrlə bitirmək istəyirəm: "Bütün məsələləri sülh yolu ilə həll etmək lazımdır". Biz bunu 30 il eşitdik, 30 il çalışdıq, lakin heç nə alınmadı. Buna görə də, əlbəttə, istərdik ki, hər şey sülh yolu ilə həll edilsin, lakin bu, həyatda, təəssüf ki, heç də hər zaman, mümkün olmur.

**Mixail QUSMAN: İlham Heydər oğlu, Sizə bir texniki sual vermək olarmı? Bildiyiniz kimi, bizim bu görüşlər ənənəvi olaraq "off the record" formatında keçirilir. Bu gün isə bizim görüş bir növ yarım "off the record" formatında alınıb. Sonuncu sualı TASS Agentliyinin baş redaktoru verdiyinə görə, biz həmkarlarımıza Sizin söhbətinizdən özlərinin, necə deyərlər, praktiki fəaliyyətində istifadə etmələrinə icazə verə bilərikmi?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə. Mən dediyim hər bir sözə görə məsuliyyət daşıyıram.

**Mixail QUSMAN: Bu çıxışdan ümumi məkanda istifadə etmək olarmı?**

**Prezident İlham ƏLİYEV:** Birmənalı şəkildə olar.

**Mixail QUSMAN: Mən Prezidentə sual vermək istəyirəm. Gəlin məsləhətləşək, həmkarlar?**

**Prezident İlham ƏLİYEV:** Mən öz praktikam barədə danışaram. Azərbaycan cəmiyyətinin müxtəlif kateqoriyalarının nümayəndələri ilə və media, - Azərbaycan və xarici media, - təmsilçiləri ilə mənim bütün söhbətlərim açıq keçirilir. Yəni, mən heç nəyi gizlətmirəm. Mən nə düşünürəmsə, onu deyirəm, öz sözlərimə görə cavabdehəm və düşünürəm ki, bu gün burada elə bir söz deyilməyib ki, ona görə bizlərdən kim isə xəcalət çəksin. Əksinə, mənim fikrimcə, biz çox mühüm məsələləri aydınlaşdırdıq. Mən Azərbaycanın mövqeyini bütün məsələlər barədə yetərincə dürüst ifadə edirəm və bağlı qapılar arxasında öz həmkarlarıma dediklərimi bu və ya digər dərəcədə açıq şəkildə də deyirəm. Ona görə indiki halda mən aşkarlığın tərəfdarıyam. Bəs siz?

**Mixail QUSMAN:** Onda indiki halda "off the record" formatını ləğv edirik. Bu istisnaya görə sağ olun. Bu, o deməkdir ki, qabaqcadan xəbərdarlıq edirəm, növbəti dəfə biz yenidən qayıdacağıq.

**Prezident İlham ƏLİYEV:** Bəlkə ənənələrin əsasını siz qoyursunuz?

**Mixail QUSMAN:** İlham Heydər oğlu, heç də hamı bizimlə Sizin kimi açıq olmur, heç də hamı.

**Prezident İlham ƏLİYEV:** Mən bilmirəm, siz ki məsuliyyətli insanları, dövlət başçılarını dəvət edirsiniz. Düşünmürəm ki, onlar sizə bir söz desinlər, ictimaiyyətə nə isə başqa söz.

**Mixail QUSMAN:** Bəziləri hətta bizim suallarımızı bilirlər. Belə də olur.

**Prezident İlham ƏLİYEV:** Xeyr, mən hər bir suala cavab verməyə hazıram. Bir daha deyirəm, məndən ötrü hər hansı qapalı mövzu yoxdur. Xarici siyasətə gəldikdə isə, o cümlədən sizin qeyd etdiyiniz kimi, vəziyyətin həssaslığı nəzərə alınmalıdır. Buna görə düşünürəm ki, bu, düzgün yoldur. Çünki bu, hər hansı ikimənalı şərhi və hər hansı interpretasiyanı istisna edir. Mən öz mövqeyimin ən yaxşı interpretasiyasını özüm verə bilərəm, odur ki, belə də edirəm. Qəribə olardı ki, biz burada görüşək, sonra isə Azərbaycanda fikirləşsinlər, tapmaca tapsınlar, onlar orada bağlı qapılar arxasında nə barədə danışıblar?

**Sergey MİXAYLOV:** Biz lap yaxın vaxtlarda Sizin bütün dünyada ardıcıl müsahibələrinizi müşahidə etmişik.

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Sergey MİXAYLOV:** Məlum hadisələr haqqında müsahibələrinizin hamısını diqqətlə izləmişik.

**Prezident İlham ƏLİYEV:** Fikrimcə, bütün prezidentlik illərim ərzində hər hansı dövrdə olduğundan daha çox müsahibəm olub.

**Sergey MİXAYLOV:** Bu zaman kəsiyi ərzində müsahibələr qalan bütün müddətdəkindən çox olub.

**Prezident İlham ƏLİYEV:** Azərbaycanda məni hətta bəzən tənqid edirdilər ki, nə üçün mən nadir hallarda müsahibə verirəm. Hesab edirəm ki, müxtəlif tezislərlə və müxtəlif məsələlərlə əlaqədar kifayət qədər çıxış edirəm. Sadəcə, hesab edirdim ki, mən demək istədiklərimin hamısını çıxışlarımda demişəm. Lakin müharibə xüsusi vəziyyətdir, buna görə belə etməli oldum.

**Sergey MİXAYLOV:** Bu dövrdə müsahibələrinizin sayı misli görünməmiş dərəcədə çox olub.

**Prezident İlham ƏLİYEV:** Yeri gəlmişkən, TASS Agentliyi sağ olsun ki, sizin vasitənizlə öz baxışlarımı çatdırmağa imkan verib.

**Mixail QUSMAN:** Bu əyləşən xanım Sizdən müsahibə götürəndir.

**Prezident İlham ƏLİYEV:** Bəli, tanıdım. Çox vacib idi. Ona görə ki, bilirsiniz, biz müstəqilliyin lap ilk dövründən müəyyən informasiya boşluğu ilə üzləşmişik. Üstəlik, əgər bu, sadəcə, vakuum olsaydı dərd yarı idi, biz öz fəaliyyətimizin düzgün interpretasiya edilməməsi ilə üzləşdik. Yeri gəlmişkən, biz indiyə qədər bunu hiss edirik, təkcə qərb ölkələrində deyil, həm də başqa ölkələrdə. Bəzən bilməmək səbəbindən, bəzən də qərəzli şəkildə bizim ölkə daxilində və beynəlxalq arenada nə etdiyimizi düzgün interpretasiya etmirlər. Buna görə son vaxtlara qədər bizim üçün əsas problemlərdən biri məhz Qarabağ münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması idi. Məhz ictimaiyyətə, çünki siyasi strukturlar hər şeyi çox gözəl bilirdilər. Lakin bu, sadəcə, onları qane edirdi - nə müharibə, nə sülh, faydasız danışıqlar, 30 ildir ki, Minsk qrupu gəlir, gedir. Yeri gəlmişkən, bu il onlar 1992-ci ildən bəri fəaliyyətlərinin yubileyini qeyd edəcəklər. Buna görə biz Qarabağda baş verənlər barədə həqiqəti geniş ictimaiyyətə, ekspert cəmiyyətlərindəkilərə, ictimai əhvali-ruhiyyəni formalaşdıranlara çatdırmalı idik. Məhz həqiqəti, təəssüf ki, illər boyu təqdim edilənləri yox, müharibə dövründə bunu edə bildik. Bacardıq. Çoxları deyir ki, biz informasiya müharibəsini udmuşuq. Lakin biz elə müharibə aparmamışıq. Biz, sadəcə, imkan qazandıq, dünyanın diqqəti bu müharibəyə yönəldiyinə görə biz, sadəcə, həqiqəti demək imkanı qazandıq. Erməni tərəfindən fərqli olaraq biz öz xalqımıza da, ictimaiyyətə də həqiqəti deyirdik. Buna görə mən həm sizə, həm də bu imkanı yaradan digər Rusiya KİV-nə təşəkkür edirəm. Dmitri Konstantinoviçə xüsusi təşəkkürümü bildirirəm ki, o, efirdə Paşinyan ilə olmağa və necə deyərlər, öz mövqeyimizi Rusiya və bir sıra qərb televiziya tamaşaçılarına çatdırmaq imkanı verdi. Hərçənd deməliyəm ki, mənim ünsiyyətdə olduğum qərb KİV-inin demək olar ki, hamısı Azərbaycana qarşı qərəzli əhvali-ruhiyyədə idilər və onların suallarında nə isə öyrənmək arzusundan daha çox ittihamlar səslənirdi. Bununla belə bu, hər halda həmin məkana daxil olmağımıza imkan verdi. Fikrimcə, dünyada bütövlükdə kifayət qədər tezliklə yeni reallıqları qəbul etdilər, o cümlədən ona görə ki, kimin haqlı olması, kimin işğala məruz qalması, kimin öz torpağında vuruşması, kimin işğalçı olması aydın idi. Bax, buna görə Sizə və sizin həmkarlarınıza təşəkkür edirəm. Onu da deməliyəm ki, Rusiya media məkanı bütövlükdə neytral olub. Əlbəttə, bəzi şəxsi məqamlar istisna olmaqla bütövlükdə neytrallıq tamamilə qorunub saxlanıb. Buna görə də təşəkkür edirəm, çünki heç də həmişə belə olmayıb.

**Mixail QUSMAN:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Siz sağ olun.

**Mixail QUSMAN:** Sizə bir hədiyyəmiz var. Bunu həmkarlara demək lazımdır. Hamı bilir ki, bu yaxınlarda İlham Heydər oğlunun yubileyi oldu. Bu, Azərbaycan Prezidentinin TASS lentlərində və fotoxronikasında tam arxividir. Burada 32 mindən çox məlumat və 400-ə yaxın fotoşəkil var. Sizin bütün prezidentlik dövrünün bütün arxividir.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Mənim belə arxivim yoxdur.

Dövlətimizin başçısı da TASS Agentliyinə xatirə hədiyyəsi təqdim etdi.





# Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!
Əziz Qardaşım!

Ad gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz ilə qardaş Türkiyə Respublikası bu gün bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə söz sahibi olmuş və böyük nüfuz qazanmış güclü və qüdrətli dövlətdir. Qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində ölkənizin keçdiyi hərtərəfli inkişaf yolu, imza atdığı uğurları bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır.

Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır. Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır.

Fürsətdən istifadə edərək tarixi əhəmiyyət daşıyan Şuşa Bəyannaməsinin təsdiq edilməsi münasibətilə məmnunluğumu ifadə edirəm. Bu sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərində yeni səhifə açır, regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Biz qardaş Türkiyə ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı və səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək və şaxələndirmək əzmindəyik.

Əziz Qardaşım!

Sizə Allahdan möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2022-ci il*

# Azərbaycanla Avropa İttifaqı arasında səmərəli və uğurlu əməkdaşlıq mövcuddur

Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 24-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Petr Mixalko ilə görüşüb.



Qonağı salamlayan spiker Sahibə Qafarova deyib ki, Azərbaycanla Aİ arasında geniş gündəliyə malik, səmərəli və uğurlu əməkdaşlıq mövcuddur. O, Azərbaycanın Aİ ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu, qurumla əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri Aİ Şurasının prezidenti Şarl Mişelin 2021-ci ilin iyulunda ölkəmizə səfəri və Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ilin dekabrında Brüsseldə keçirilən Aİ-nin 6-cı Şərq Tərəfdaşlığı Sammitində iştirakını xatırladaraq, deyib ki, bu səfərlər Azərbaycanla Aİ arasında münasibətlərin müsbət xarakterini nümayiş etdirir. Onun sözlərinə görə, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Tərəflər arasında enerji sahəsində əməkdaşlıq strateji xarakter daşıyır. Azərbaycan neftlə yanaşı, həm də Avropanın etibarlı qaz tədarükçüsünə çevrilib.

Spiker Sahibə Qafarova ölkəmizlə bu qurum arasında yeni tərəfdaşlıq sazişi üzrə danışıqların son mərhələdə olduğunu, Azərbaycanın Aİ-nin 9 üzvü ilə strateji tərəfdaşlıq sənədləri imzaladığını diqqətə çatdırıb.

İkitərəfli münasibətlərdə parlament çərçivəsi haqqında məlumat verən Milli Məclisin Sədri deyib ki, azərbaycanlı deputatlar həm Parlament Əməkdaşlıq Komitəsi, həm də Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlığın inkişafına töhfə verirlər. O cümlədən Milli Məclisin Aİ-yə üzv olan ölkələrin parlamentləri ilə uğurlu əməkdaşlıq əlaqələri mövcuddur. Sahibə Qafarova cari ilin fevral ayında Aİ-yə üzv olan Latviya, Litva və Estoniya respublikalarına rəsmi səfərlərini xatırladaraq bu səfərlərin əməkdaşlıq əlaqələrinə töhfə verdiyini qeyd edib.

Görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbə və hazırda regionda yeni yaranmış vəziyyət barədə də danışan Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan bu qələbə nəticəsində Ermənistanın 30 illik işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Azərbaycan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini yerinə yetirib. Bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil. Biz müharibədən deyil, sülh və gələcək haqqında danışmaq istəyirik.

Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində bütün şəhər və rayonları, infrastrukturu, mədəniyyət və tarixi abidələri tamamilə dağıdıb, talan edib. Spiker diqqətə çatdırıb ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirir. Qısa müddət ərzində çox böyük həcmli işlər görülüb, yeni nəqliyyat infrastrukturu yaradılıb, Füzulidə Beynəlxalq Hava Limanı fəaliyyətə başlayıb. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması regionun nəqliyyat potensialını xeyli artıracaq. Regional nəqliyyat kommunikasiyalarının açılması bu sahədə əməkdaşlığın daha da inkişafına töhfə verəcək.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Petr Mixalko Azərbaycanın Aİ üçün çox vacib tərəfdaş olduğunu diqqətə çatdırıb. O, ölkəmizlə qurum arasında güclü tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirərək, bu münasibətlərin çox geniş gündəliyə malik olduğunu, iqtisadiyyat, texnologiyalar və innovasiyalar, ticarət, enerji və digər sahələri əhatə etdiyini söyləyib. Petr Mixalko Aİ-nın Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi yenidənqurma və bərpa layihələrini, o cümlədən "ağıllı şəhər", "ağıllı kənd" layihələrini dəstəkləməyə hazır olduğunu bildirib. O, qurumun ərazilərin minalardan təmizlənməsi işinə dəstək verdiyini də diqqətə çatdırıb.

Nümayəndəliyin rəhbəri qeyd edib ki, qarşılıqlı səfərlər münasibətlərin inkişafına dinamizm verir. O, "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində prosesin uğurla davam etdiyini bildirib, Şərq tərəfdaşlığı sammitinin əhəmiyyəti, Azərbaycanın bu beynəlxalq tədbirdə iştirakını xüsusi vurğulayıb.

Petr Mixalko Avropa İttifaqının regionun sabit, təhlükəsiz inkişafında maraqlı olduğunu söyləyərək qeyd edib ki, Aİ bu istiqamətdə bütün addımları dəstəkləməyə, regional əməkdaşlıq səylərində iştirak etməyə hazırdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Avstriya Respublikasının Federal Prezidenti zati-aliləri cənab Aleksander Van der Bellenə

Hörmətli cənab Federal Prezident!

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar təbrik məktubunuza görə təşəkkür edirəm. Mən də öz növbəmdə ikitərəfli əlaqələrimizdə bu əlamətdar tarix münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və xoş arzularımı yetirirəm.

Ötən dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətlərinin mövcud vəziyyəti məmnunluq doğurur. Siyasi, ticari, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığımız dövlətlərimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

İnanıram ki, sağlam təməl üzərində qurulmuş ənənəvi dostluq əlaqələrimiz və qarşılıqlı maraq doğuran əməkdaşlığımız istər ikitərəfli qaydada, istərsə də beynəlxalq strukturlar çərçivəsində bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2022-ci il*

# Azərbaycan-Meksika əlaqələri yüksələn xətlə inkişaf edir

Fevralın 24-də Milli Məclisin Sədr müavini Adil Əliyev Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rodriqo Labardini ilə görüşüb.

Vitse-spiker qonağı salamlayaraq Azərbaycan-Meksika əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib. Hər iki ölkənin tarixinə, mədəniyyətinə nəzər salan sədr müavini qarşılıqlı əlaqələrin inkişafının xalqlarımızın maraqlarına uyğun olduğunu diqqətə çatdırıb. Qanunvericilik orqanları arasında münasibətlərdən danışan Adil Əliyev parlamentlərin dövlətlərimiz arasında münasibətlərin inkişafına özünəməxsus töhfə verdiyini qeyd edib, iqtisadi, təhsil, elm, mədəniyyət sahələrində olan qarşılıqlı əlaqələrdən danışıb.

Hazırda Xocalı soyqırımının 30-cu ildönümünün qeyd olunduğunu bildirən vitse-spiker faciə barədə səfirə məlumat verib. Bildirib ki, Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində öz torpaqlarının Ermənistan tərəfindən 30 il ərzində davam edən işğalına son qoysa da, Xocalı soyqırımının günahkarları hələ də cəzalandırılmayıb.

Söhbət zamanı vitse-spiker Adil Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasına cavab olaraq Meksika parlamentinin 2012-ci ildə Xocalı soyqırımını tanıyaraq ədalətli mövqe sərgilədiyinə görə səfirə bir daha minnətdarlığını bildirib, bundan sonra da iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə inkişaf edəcəyinə əminliyini ifadə edib.

Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Rodriqo Labardini səmimi görüşə görə təşəkkür edərək, ölkələrimiz arasında olan münasibətlərin yüksələn xətlə inkişaf etməsini məmnunluqla qeyd edib. Azərbaycanla Meksika arasında artan ticarət dövriyyəsinə toxunan səfir, münasibətlərin dərinləşməsinin xalqlarımıza, dövlətlərimizə faydasından danışıb. Hər iki ölkənin bu münasibətlərin inkişafında maraqlı olduğunu deyən səfir, bundan sonra da iqtisadi, mədəni, idman sahələrində əlaqələrimizin uğurla davam edəcəyinə əminliyini ifadə edib. Azərbaycanda olduğu müddət ərzində burada sürətli inkişafın şahidi olduğunu söyləyən diplomat, ölkəmizə davamlı uğurlar arzulayıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın beynəlxalq antikorrupsiya fəaliyyətinə töhfələri yüksək qiymətləndirilir

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə korrupsiyaya qarşı qəti mübarizə aparılaraq, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. 2006-cı ildə BMT-nin dəstəyi ilə yaradılmış Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) həmtəsisçilərindən olan Azərbaycan onun işində daim fəal iştirak edir.

Ötən ay IAACA-nın keçirilmiş Ümumi Yığıncağında Azərbaycanın assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi əməli dəstək, habelə onun işinə verdiyi dəyərli töhfələr nəzərə alınaraq, respublikamızın ədliyyə naziri yenidən qurumun vitse-prezidenti seçilib. Eyni zamanda, assosiasiya rəhbərliyinin antikorrupsiya tədbirlərinin təşviqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı konkret regionlar üzrə səlahiyyətləri müəyyən edilib, Şərqi Avropa regionu isə Azərbaycan nümayəndəsinə həvalə olunub. Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar fevralın 24-də IAACA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin videoformatda iclası keçirilib.

İclasda IAACA tərəfindən konkret regionlar üzrə korrupsiya ilə mübarizə sahəsində fəaliyyətin əlaqələndirilməsi, ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri və digər təşkilati tədbirlər müzakirə olunub, regional koordinatorlar tərəfindən bu sahədə görülən işlər barədə məlumat verilib.

Assosiasiyanın vitse-prezidenti Fikrət Məmmədov çıxış edərək ölkəmiz tərəfindən Şərqi Avropa dövlətlərinin antikorrupsiya qurumlarının və regionda fəaliyyət göstərən beynəlxalq antikorrupsiya şəbəkələrinin IAACA ilə əməkdaşlığa təşviq olunduğunu qeyd edib, artıq bir çox dövlətlərin Azərbaycanın təşəbbüsünü dəstəkləyərək assosiasiyanın işində fəal iştirak etmək arzusunda olduqlarını, yeni hüquq-mühafizə və korrupsiyaya qarşı qurumların təşkilata cəlb edildiyini vurğulayıb.

Həmçinin Azərbaycan tərəfinin IAACA-nın fəaliyyətinin səmərəliliyinin artırılması, korrupsiya ilə mübarizədə beynəlxalq səylərin gücləndirilməsi, bu sahədə peşəkarlığın və antikorrupsiya mədəniyyətinin yüksəldilməsi ilə bağlı irəli sürdüyü konkret təkliflər maraqla qarşılanaraq bəyənilib.

Assosiasiyanın rəhbərliyi tərəfindən Azərbaycanın beynəlxalq antikorrupsiya fəaliyyətində qlobal səyləri və töhfələri yüksək qiymətləndirilib.

# Xarici jurnalistlər Birinci Qarabağ müharibəsində azərbaycanlıların kütləvi basdırıldığı məzarlıqda olublar





Erməni hərbçilərinin Birinci Qarabağ müharibəsində Xocavəndin Edilli kəndində azərbaycanlıların kütləvi basdırıldıqları məzarlıq açılıb.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Fransa, Niderland, Çexiya, ABŞ, Ukrayna, Moldova, Türkiyə, Şimali Kipr, Malayziya, Yaponiya, Misir, Əlcəzairdən olan 26 jurnalist işğaldan azad edilən Xocavəndin Edilli kəndində məzarlıqda olub.

Vaxtilə bu kənddə ermənilər tərəfindən girovluqda saxlanılan Füzuli rayon sakini Şəmsi Şıxəliyev yerli və xarici media nümayəndələrinə məzarlıq haqqında məlumat verib. Bildirib ki, 1993-cü ildə Bakı şəhərində işlədiyi vaxt, ermənilərin kəndlərinə hücum etdiyini eşidib və valideynlərini təhlükəsiz yerə aparmaq üçün köməyə gəlib. Avqustda erməni hərbçilər onu girov götürüb. 48 gün Edilli kəndində girov saxlanılıb. Onun sözlərinə görə, erməni hərbçiləri döyüşlərdə ölən, kəndlərdə güllələdikləri mülki əhalinin meyitlərini bu kəndə gətirərək qazılan quyulara töküb, üstünü torpaqlayıblar.

Birinci Qarabağ müharibəsi zamanı Edilli kəndində ermənilər tərəfindən girovluqda saxlanılan şəxslərin həmin məzarlıqda dəfn olunduğu bildirilir. Şahidlərin ifadələri əsasında aşkarlanan məzarlıqda 15-20 nəfərin qalıqlarının olma ehtimalı var.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Zaur İsmayılov bildirib ki, komissiyada toplanmış materiallara, şahid ifadələrinə əsasən, azad olunmuş rayonlarımızda, xüsusən Xocavənd, Ağdam və Füzuli ərazilərində bir çox kütləvi və fərdi məzarlıqların olması barədə məlumat mövcuddur: "Xocavəndin Edilli kəndində kütləvi məzarlığın olması da bu məlumatlar sırasında idi. Şahid ifadələrinin və materialların təhlili nəticəsində bura baxış keçirildi və Prezidentin göstərişinə əsasən yaradılmış İşçi qrupunun mütəxəssisləri tərəfindən məzarlıq aşkarlandı. Məzarlıq fevralın 23-də açılıb. Hazırda mütəxəssislər burada çalışırlar. Şahidlərin ifadələrinə görə, burada 3 metr dərinlikdə 15-20 cəsəd basdırılıb. Üst hissədə 4-5 nəfərin cəsədi görünsə də, torpağın altında da cəsədlərin olması ehtimalı var. Cəsədlər eskumasiya olunduqdan sonra aidiyyəti qurumlara təhvil veriləcək".



Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# İlham Əliyevin hədəfləri



*Əvvəli 1-ci səh.*

## Dostların sayı artdıqca və dostluğumuz möhkəmləndikcə gücümüz də artır

SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçovun Azərbaycana qarşı murdar mövqeyi, sovet ordusunun, xüsusən 366-cı alayın birbaşa yardımı olmasaydı, Ermənistan Azərbaycan torpaqlarını heç zaman işğal edə bilməzdi!

Vətən müharibəsi dövründə isə Rusiya Ermənistan tərəfindən döyüşmədi, əksinə, sülh yaradaraq məsələnin sonrakı mərhələsini diplomatiya müstəvisində həllinə yönəltdi və beləliklə, bəzi təhlükələri qabaqlamış oldu.

*Bu, bir reallıqdır ki, Rusiyanın iştirakı olmadan Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq mümkün deyil!*

*Xüsusən dünyanın indiki dövründə!*

*Bəli, Azərbaycan Prezidenti İlham Əliyev ən çətin, ən ağır məqamdan uduş ilə çıxmağı gözəl bacarır!*

*Baxın, COVİD-19 dünyanı iflic vəziyyətinə salıb, ölkələr özünə qapanır, insanlar normal həyatlarını yaşaya bilmir, iqtisadi fəallıq azalır, istehsal aşağı düşür, çıxılmaz durum yaranır...*

*Cənab İlham Əliyev isə dünya üçün ən pis, fəlakətli il sayılan 2020-ci ili Azərbaycan üçün ən şərəfli, tarixi Zəfər ilinə çevirir, 44 günlük Vətən müharibəsi apararaq ərazi bütövlüyünü bərpa edir!*

2022-ci il də dünya üçün narahat və qorxulu bir ildir!

ABŞ və Avropa Rusiyanın üstünə düşərək onu Ukraynaya hücumdan, fəlakətə çevrilə biləcək müharibədən çəkindirməyə çalışır, yeni sanksiyalarla hədə-qorxu gəlir.

*Azərbaycan Prezidenti İlham Əliyev isə dünyanın bacarmadığı, ipə-sapa yatmayan Rusiya ilə dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəldir, qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında müqavilə imzalayır!*

*Bununla da Rusiya ilə dostluğu daha da möhkəmləndirərək bundan milli maraqlar naminə faydalanmağı, eyni zamanda bu dostluğu məharətlə düşmənə qarşı yönləndirməyi də bacarır!*

**Əsl müdriklik də, məharət də, diplomatiya da budur!**

❖ ❖ ❖

Maraqlı bir detalı da diqqətdən qaçırmayaq:

Moskvada yeni bəyannamə imzalanan gün Milli Məclisin iki deputatı AVRONEST Parlament Assambleyasının komitə iclasında iştirak etmək üçün İrəvana səfər etmişdilər!

Ermənistan paytaxtı bir-birinə dəymişdi!

Erməni xalqı qalib Azərbaycanın iki nümayəndəsinin öz paytaxtlarına səfərini həzm edə bilmirdi!

Çünki biabırçı məğlubiyyətlərinin ağrı-acısını get-gedə daha çox duyurlar!

Hələ mənasız etiraz aksiyaları vaxtı Azərbaycanla Rusiya arasında yeni, daha yüksəksəviyyəli dostluq və əməkdaşlıq sənədinin imzalanmasından xəbərsiz idilər!

Üstəlik, bilmirdilər ki, yeni bəyannamədə baş nazirlərinin gizlənərək qol çəkdiyi kapitulyasiya aktındakı mühüm müddəaların icrasının zəruriliyi də öz əksini tapıb!

Bəyannamənin 9-cu bəndində yazılıb: *"Rusiya Federasiyası və Azərbaycan Respublikası regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün əsas kimi çıxış etmiş Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 9/10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək verəcəklər".*

**Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada yeri, sözü olan və özü görünən siyasi xadimdir!**

**Dövrümüzün ən mahir diplomatlarındandır.**

**Ən böyük məharəti isə kiçik Azərbaycanın maraqlarını böyük dövlətlərin maraqları arasında qoruyub saxlamağı, müstəqil siyasət yürütməyi, dövlətini qovğalardan sovuşdurmağı bacarmasındadır!**

Etibarsız dünyada uzaqgörən və çevik siyasət yürütməsən, salamat baş saxlaya bilməzsən!

Azərbaycan bütün dünya ilə, o cümlədən Avropa ilə sıx əməkdaşlıq edir. Hazırda BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının sədridir.

Pandemiya dövründə atdığı əməli addımları, səmərəli təşəbbüsləri ilə bir sıra ölkələrə müxtəlif yardımlar etdi, hörmət qazandı.

"Cənub qaz dəhlizi" layihəsini vaxtında reallaşdırmaqla Avropa dövlətlərinin indiki çətin məqamında qolundan tutdu, etibarlı tərəfdaş olduğunu sübuta yetirdi, dostlarının sayını artırdı.

Azərbaycan artıq Avropa İttifaqı ilə mühüm saziş imzalamaq ərəfəsindədir!

Həmişə siyasətində, əməlində düzdür, səmimidir, kimdənsə kiməsə qarşı istifadə etməyə yol vermir və özü də başqalarına yönəlik əməllərin heç zaman iştirakçısına çevrilmir, nə də buna şərait yaratmır.

❖ ❖ ❖

*Bütün dünya ilə qarşılıqlı maraqlar əsasında dostluq əlaqələri yaradan Azərbaycan niyə məqam yaranan kimi nəhəng qonşusu Rusiya ilə əlaqələrini daha da yaxşılaşdırmasın!*

- Rusiya ən böyük qonşumuzdur;
- Bu gün də yüz minlərlə azərbaycanlı orada işləyərək çörək qazanır;
- Rus elmi, mədəniyyəti, ictimai fikrinin həmişə Azərbaycana təsiri olub və inkişafında mühüm rol oynayıb;
- Rusiya ən böyük ticarət tərəfdaşımızdır və ticari əlaqələrin həcmi 3 milyard dolları keçib;
- Rusiya bölgədə əsas söz sahibidir;
- Rusiyanın gücünü və imkanlarını görmədən, maraqlarını nəzərə almadan yeridilən siyasətin, atılan addımların uğuru real görünmür.

**İlham Əliyevin bir siyasətçi kimi nəhəngliyi bunların hamısını bilməsində, nəzərə almasında və dəqiq hesablamalar aparmasındadır!**

Reallıq göstərir ki, Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra Cənubi Qafqazda formalaşmış yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Azərbaycanın hər iki ölkə ilə müttəfiqlik bəyannamələrini imzalaması yeni konfiqurasiyanı rəsmən təsbit edir.

**Moskva Bəyannaməsinin bəndləri ilə yaxından tanışlıq oradakı müddəaların Azərbaycanın maraqlarını tam əhatə etdiyini göstərir.**

Bir neçə bəndə birlikdə nəzər salaq:

*"1. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar".*

*"2. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz milli maraqlarının müdafiəsinə yönəlmiş müstəqil xarici siyasət yürüdürlər".*

*"18. Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, silahların, narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alveri və informasiya-kommunikasiya texnologiyaları sahəsində cinayətlərə, eləcə də digər yeni təhlükəsizlik çağırışlarına qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər. Bu kontekstdə Tərəflər məlumat mübadilə edir və qeyd edilən hüquqazidd fəaliyyətlərin maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi və qarşısının alınmasında sıx qarşılıqlı fəaliyyət göstərirlər".*

❖ ❖ ❖

**Azərbaycan heç zaman heç kəsə arxayın olmur, kimsənin arxasında gizlənmir, milli maraqlarını heç bir halda qurban vermir!**

**Yaxın tariximiz də göstərdi ki, ən doğru yol məhz budur!**

BMT Təhlükəsizlik Şurası otuz ildən çox müddətdə dörd məlum qətnaməsinin icrası üçün sözdən o yana keçmədi...

ATƏT-in Minsk qrupu "öz aranızda razılığa gəlin", "bölgədə yeni reallıqlar yaranıb" kimi cəfəng fikirlərlə yaxasını münaqişənin sülh yolu ilə həllindən kənara çəkdi...

Beynəlxalq qurum və təşkilatlar nə ədaləti bərpa etdilər, nə də beynəlxalq hüququn prinsiplərinin tətbiqinə cəhd göstərdilər...

Bircə dəfə də Ermənistana qarşı sanksiya tətbiq olunmadı, işğal ərazisindən çıxması üçün ona heç bir təzyiq göstərilmədi...

*Məhz buna görə də Azərbaycan yalnız özünə, öz gücünə və imkanlarına, dostlarının yardımına arxalanaraq problemi hərbi yolla həll etdi!*

*Münasibət qurduğu ölkələrdən silah-sursat aldı, yüksək hərbi biliklərə malik zabit kadrları hazırladı, qazandığı dostlar hesabına hərbi əməliyyatlar dövründə bir neçə ədalətsiz addımın atılmasının qarşısını vaxtında aldı.*

**Tarix də göstərdi ki, ən doğru yol Azərbaycanın tutduğu yol, Prezident İlham Əliyevin atdığı cəsarətli və dəqiq hesablanmış addımlardır!**

Ermənistanın Rusiyadan incidiyi indiki məqamda bizim Rusiya ilə dostluğu daha da möhkəmləndirməyimiz olduqca vacibdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Zəfər müharibəsində Ermənistan ordusunu məhv etdi, düşməni qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalatdırdı.

Baş sərkərdəmiz düşmənə təkcə hərb meydanında deyil, informasiya cəbhəsində də qalib gəldi və bu müharibənin yeganə baş qəhrəmanına çevrildi!

**İlham Əliyev bütün bu möhtəşəm qələbələrini həm də diplomatiya sahəsindəki yüksək peşəkarlığı, uzaqgörənliyi və hadisələri qabaqlamağı, vaxtında zəruri addımlar atmaq bacarığı ilə qazandı!**

❖ ❖ ❖

Bu gün hərbi əməliyyatlar başa çatıb, düşmən işğal ərazilərindən qovulub, zəhərli dişi çəkilib!

Lakin zamana ehtiyacı olan məsələlər və həllini gözləyən problemlər də var!

Belə ki, informasiya sahəsində döyüşlər səngiməyib və hələ uzun müddət davam edəcəkdir.

Əsas ağırlıq mərkəzi isə diplomatiya müstəvisindədir.

Məğlub ermənini müdafiə edənlər, sözünü deyənlər hələ də azalmayıb.

Ordusu məhv edilən, əsgər, zabit və generalları fərariyə çevrilən, silah-sursatı tükənən Ermənistan isə revanşizmdən dəm vurur, arada "status" deyə sayıqlayır.

**Dövlətimizin iqtisadi gücünü və hərbi qüdrətini artırmaqla yanaşı, diplomatiya sahəsindəki çarpışmaları, bu cəbhənin əhəmiyyətini də unutmamalıyıq!**

- Müharibənin sülh danışıqları fazasına keçməsinin təşəbbüsçüsü və vasitəçisi Rusiyadır!
- Təslim aktında göstərilən bəndlərin icra olunmasının qarantı Rusiyadır!
- Azərbaycanla Ermənistan arasında danışıqların vasitəçisi yenə Rusiyadır!
- ATƏT-in Minsk qrupunun ağırlıqlarını daşıyan və hardasa onu əvəz edən Rusiyadır!
- Faktiki olaraq çözülmüş münaqişənin son akkordları da Rusiyanın ağsaqqallığı ilə münaqişə tərəfləri arasında vurulmaqdadır.

*Bir gözü və bir ayağı Qərbdə olan Ermənistan Rusiyadan narazıdır və bunu heç gizlətmir də!*

*Hələ imkanı düşəndə 102-ci bazanın ölkədən çıxarılacağı ilə hədələyir.*

**Belə olan halda Rusiya ilə əməkdaşlıq niyə də genişləndirilməsin və dərinləşdirilməsin!**

**Əslində, bizim yaxınlaşmağımız həm də Ermənistanın Rusiyadan aralanması, narazılığının daha da artması deməkdir!**

*Qayda belədir: döyüşən tərəf dostlarının, tərəfdarlarının sayını artırmalıdır!*

*Dostun nə qədər çoxdursa, gücün də bir o qədər çox olur!*

*Düşməni təkləmək, müdafiəsini zəiflətmək isə diplomatiyanın üzərinə düşən vəzifədir!*

**Azərbaycan Prezidenti İlham Əliyev dayanmadan Vətən müharibəsindəki şanlı Zəfəri daha da artırır və möhkəmləndirir!**

**Həm Qarabağı yenidən tikib-qurub bərpa etməklə, həm bu regionu əməkdaşlıq, ticari əlaqələr üçün açmaqla, həm də diplomatiya sahəsində yeni nailiyyətlərə imza atmaqla!**

Məğlub və dilənçi, əhalisi miqranta çevrilən Ermənistan isə hadisələrin arxasınca sürünməkdədir!

**Bəxtiyar SADIQOV**




# XX əsrin faciəsi - Xocalı soyqırımı 30



# YAP Mərkəzi Aparatında "Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" mövzusunda videokonfrans keçirilib

Fevralın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Xocalı faciəsinin 30-cu ildönümünə həsr edilmiş "Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" mövzusunda videokonfrans keçirilib.






AZƏRTAC xəbər verir ki, videokonfransda YAP İdarə Heyətinin, Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın əməkdaşları, yerli təşkilatların sədrləri, mətbu orqanların baş redaktorları və Xocalı rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə Xocalı faciəsində, həmçinin ölkəmizin ərazi bütövlüyünün qorunması, torpaqlarımızın azad olunması uğrunda həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Xocalı faciəsinə həsr edilmiş film nümayiş olunub.

Videokonfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, son 200 ildə xalqımız böyük müsibətlərlə üzləşib: soyqırımı, deportasiya, etnik təmizləmə, işğal, terrorizm. Bütün bu faciələrin kökündə böyük güclərin himayəsi altında 2 əsr bundan əvvəl əzəli Azərbaycan torpaqlarında yerləşdirilmiş ermənilərin məkrli planları dayanır. Məqsəd isə bir olub - nəyin bahasına olursa-olsun, azərbaycanlıları sıxışdırıb yurdundan çıxarmaq, torpaqlarımızı ələ keçirmək. Qəddarlığı, cəlladlığı, qaniçənliyi özlərinin həyat tərzinə çevirən erməni millətçiləri öz havadarlarına arxalanaraq çirkin niyyətlərinə nail olmaq üçün hər cür vəhşiliyi törətməkdən çəkinməyiblər. 1905-1906, 1918-ci illərdə törədilən kütləvi qırğınlar, azərbaycanlıların yaşadıqları yüzlərlə yaşayış məntəqəsinin, mədəniyyət abidələrinin, hətta məzarlıqların yerləyeksan edilməsi bəşəriyyətə qarşı cinayətdir. Sonrakı hadisələrdə olduğu kimi, beynəlxalq ictimaiyyət bu ədalətsizliklərə, sadəcə, göz yummaqla kifayətlənib.

YAP Sədrinin müavini qeyd edib ki, yalnız XX əsrin əvvəllərində əzəli Azərbaycan torpaqlarında dövlət qurmağa nail olan ermənilərin Azərbaycana qarşı torpaq iddiası keçmiş sovetlər dönəmində də davam edib. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ermənilər öz xəyallarını - torpaq iddiasını dilə gətirməyə belə cəsarət etmirdilər. Ümummilli Liderimiz SSRİ rəhbərliyindən istefa verəndən dərhal sonra hərəkətə keçdilər, Ermənistanda 250 min azərbaycanlını etnik təmizləməyə məruz qoydular, torpaqlarımızın 20 faizini işğal etdilər və 700 min soydaşımızı yurdundan didərgin saldılar. 1988-1993-cü illərdə davam edən işğal zamanı ermənilərin hədəfi mülki əhali - körpə uşaqlar, qadınlar və yaşlılar olub. Bağanıs Ayrım, Qaradağlı, Ağdaban, Başlıbel, Xocalı qətliamları erməni cəlladlarının vəhşiliyinin, insanlıq əleyhinə cinayətlərinin bariz sübutudur. Yaddan çıxarmaq olmaz ki, Xocalı şəhəri 1988-ci ildə ermənilər tərəfindən 3-cü dəfə dağıdıldı. Şəhər 1905 və 1918-ci illərdə də erməni terror dəstələrinin vəhşiliyinin qurbanı olmuş, yandırılmışdı. Xocalı faciəsi bəşər tarixinin ən qanlı cinayətlərindən biri kimi erməni vandalizminin növbəti nümunəsi idi.

Vurğulanıb ki, dünya 44 günlük Vətən müharibəsi dövründə də erməni vandalizminə şahidlik etdi. Gəncə, Tərtər, Bərdə və digər şəhər və kəndlərimizin kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alınmasına, müharibə qanunlarına zidd olaraq mülki əhalinin öldürülməsinə, evlərin, sosial obyektlərin dağıdılmasına beynəlxalq ictimaiyyət yenə də göz yumdu. Vətən müharibəsi zamanı xarici ölkələrin diplomatik korpusunun nümayəndələri bir neçə dəfə bölgələrə səfər etdilər, erməni cəlladlarının törətdiyi vəhşiliklərin canlı şahidi oldular. Lakin əksər beynəlxalq qurumlar, aparıcı ölkələr erməniyə "dayan" demədi, əksinə, Azərbaycana mütəmadi olaraq təzyiq göstərməyə, müharibəni dayandırmağa, Ermənistanı düçar olduğu məğlubiyyətdən qurtarmağa çalışdılar. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu hər gün irəlilədi, xalqımızın müqəddəs amalını gerçəkləşdirdi, torpaqlarımızı işğaldan azad etdi və bizə tarixi Zəfəri bəxş etdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də beynəlxalq təşkilatların uzun illər kağız üzərində qalmış qərar və qətnamələrinin icrasına da nail oldu, Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı.

"Azərbaycan Xocalı faciəsinin dünyada soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparır, məqsədyönlü tədbirlər həyata keçirilir. Dövlət orqanları, diaspor təşkilatları ilə yanaşı, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən mühüm addımlar atılır. Xüsusilə də fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə 2008-ci ilin may ayından başlanan "Xocalıya ədalət!" kampaniyasının uğurla davam etdirilməsi real nəticələrin əldə olunmasını şərtləndirir. İslam Əməkdaşlıq Təşkilatı, bir sıra ölkələrin parlamentləri, ABŞ-ın 20-dən çox ştatı bu cinayəti qətliam kimi tanıyıb, Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidələr ucaldılıb. Amma hələ də ikili standartlara aludə olan, bu mərəzdən yaxa qurtara bilməyən, yaxud qurtarmaq istəməyən dairələrin XX əsrin faciəsi hesab edilən Xocalı soyqırımına və onu törədənlərə münasibəti birmənalı, yəni obyektiv və ədalətli deyil. Halbuki Ulu Öndər Heydər Əliyevin dediyi kimi: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Buna görə də bu qanlı cinayətin təşkilatçıları və icraçıları - Ermənistanın keçmiş siyasi və hərbi rəhbərliyi beynəlxalq hüquq qarşısında cavab verməli və öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan Prezidenti İlham Əliyevin "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər" sözləri xalqımızda belə bir qəti əminlik yaradır ki, faciə qurbanlarının qanı yerdə qalmayacaq, haqqın, ədalətin zəfər çalması üçün dövlətimizin gördüyü tədbirlər gec-tez öz bəhrəsini verəcəkdir. Belə bir müdrik kəlam var: "Tarixin acı dərslərindən düzgün nəticə çıxarmayan xalqın gələcəyi olmaz". Biz son 200 ildə, həmçinin ötən 30 ildə başımıza gətirilən müsibətlərdən və xüsusən Xocalı faciəsindən doğru-düzgün nəticə çıxarmalı, ibrət dərsi götürməliyik. Bir sözlə, illər keçsə də, Azərbaycan xalqı heç zaman Xocalı faciəsini unutmayacaq", - deyə YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib.

"Xocalı faciəsi 200 il davam edən erməni terrorunun tərkib hissəsidir" mövzusunda çıxış edən YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, Gülüstan və Türkmənçay müqaviləsinə əsasən ermənilərin tarixi torpaqlarımıza köçürülməsindən sonra xalqımızın həyatında faciələr yaşanıb. Onun sözlərinə görə, həmin vaxtdan etibarən ermənilər terror təşkilatları yaradıb, tarixi torpaqlarımızda özlərinə dövlət yaratmaq üçün havadarlarının dəstəyi ilə kütləvi qırğınlar törədiblər. 1905-ci il, 1918-ci il hadisələri də buna sübutdur. Sovetlər dövründə, 1948-1953-cü illərdə azərbaycanlılar öz doğma yurdlarından deportasiya olundular. Daha sonra Qarabağda, 1988-ci il fevralın 12-də Əsgəranda ermənilər torpaq iddiaları ilə çıxış etməyə başladılar, fevralın 13-də isə Xankəndidə mitinq keçirildi və sonra bu hadisə qanlı müharibəyə çevrildi. Ovaxtkı hakimiyyət torpaqlarımızın, o cümlədən Xocalının düşməndən qorunması üçün heç bir addım atmırdı, sadəcə, yalan vədlər verməklə məşğul idilər.

E.Məmmədov qeyd edib ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayının zirehli texnikasının və hərbi heyətinin köməyi ilə Xocalı şəhərində soyqırımı törədərək 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 nəfər Xocalı sakinini qətlə yetirib. Şəhəri tərk etməyə məcbur olan əhali isə dağlara, meşələrə qaçsa da, hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələyib, onlara amansız divan tutublar. Soyuq, qarlı fevral gecəsində yüzlərlə soydaşımız əsir düşüb, girov götürülüb. Soydaşlarımız erməni təcavüzündən yayınıb meşələrə, dağlara qaçsa da, onların çoxu soyuqdan, şaxtadan məhv olublar. O deyib ki, ermənilərin əhatəsində olan Xocalı 4 ay mühasirədə qaldı. Faciə baş verməmişdən əvvəl, son bir ay ərzində respublika rəhbərliyindən bizə məlumat verirdilər ki, "sabah yolu açırıq, mühasirəni yarırıq". Amma bu, baş vermədi. Xocalıdakı vəziyyətə ovaxtkı hakimiyyət məsuliyyətsiz yanaşırdı və ermənilər də bundan istifadə edərək şəhərə hücum etdilər, dinc insanları qətlə yetirdilər. O dövrdə respublikada hakimiyyət uğrunda mübarizə gedirdi, bu səbəbdən də torpaqlarımızın müdafiəsi yaxşı təşkil olunmadı.

Milli Məclisin deputatı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində faciə qurbanlarının qisasının alındığını deyib və yaxın zamanlarda Xocalı sakinlərinin də öz yurdlarına qayıdacaqlarına inandığını söyləyib.

"Xocalı faciəsi erməni vəhşiliyinin əyani sübutudur" mövzusunda çıxış edən Xocalı sakini, şəhid övladı, Daxili İşlər Nazirliyinin Hospitalının həkimi Almaz Həsənova Xocalı faciəsi haqqında danışmağın hər kəs üçün çox çətin olduğunu bildirərək deyib: "Çünki bu qətliam XX əsrin ən böyük faciələrindən biridir. Mənim atam da bu faciənin qurbanı olub. Ermənilər Xocalıda görünməmiş vəhşilik törətdilər. Ermənilər 63 uşağı, 106 qadını, çoxlu sayda qocanı xüsusi qəddarlıqla öldürüblər. Biz bilirik ki, müharibənin öz qanunları var. Müharibələrdə dinc insanları öldürmək hərbi cinayət sayılır. Amma ermənilərin Xocalıda törətdiyi qətliam bütün bəşəriyyətə və insanlığa qarşı cinayətdir. Bu cinayəti törədənlər öz cəzalarını almalıdır, dünya bu soyqırımı tanımalıdır".

Xocalı sakini qeyd edib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu "Dəmir yumruq" əks-hücum əməliyyatı keçirərək 44 gündə ərazilərimizi 30 il davam edən düşmən işğalından azad etdi. Ali Baş Komandanın dəmir iradəsi və sarsılmaz qətiyyəti, eyni zamanda, xalqın birliyi və şanlı ordumuzun şəxsi heyətinin cəsarəti sayəsində müharibə Azərbaycanın qələbəsi ilə başa çatdı. Bu gün bütün şəhidlərimizin ruhu rahatdır.

Videokonfransda "Xocalı XX əsrin faciəsidir" mövzusunda çıxış edən YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev bildirib ki, Xocalı soyqırımına qədər ermənilər Qarabağ ərazisində yerləşən bir çox yaşayış məntəqələrinin, o cümlədən Ağdərə rayonunun İmarət Qərvənd, Xocavənd rayonunun Axullu, Tuğ, Qaradağlı, Xocalı rayonunun Cəmilli, Meşəli, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsini və Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini işğal etmişdilər. Ermənilər azərbaycanlılara qarşı soyqırımı aktını təkcə Xocalıda törətməmişdi. Yuxarıda qeyd olunan yaşayış məntəqələrinin işğalı zamanı da dinc əhaliyə qarşı cinayətlər, qətliamlar törədilmişdi. Şəraitdən asılı olaraq bəzi yaşayış məntəqələrində soyqırımının miqyası böyük, bəzilərində isə nisbətən kiçik olmuşdu. Xocalı rayonunun Meşəli və Xocavənd rayonunun Qaradağlı kəndlərində ermənilər tərəfindən, sözün həqiqi mənasında, insanlıq əleyhinə qətliam törədilmişdi. Cəmi 409 sakini olan Meşəli kəndinin işğalı zamanı 28 nəfər amansızcasına qətlə yetirilmişdi. Əgər mühasirəni yarmaq mümkün olmasaydı, Meşəli kəndindən bir nəfər belə xilas ola bilməzdi. Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı zamanı isə kənddə qalmış 139 nəfərdən 91 nəfəri xüsusi amansızlıqla qətlə yetirilib. Bunları qeyd etməklə bir daha vurğulamaq istəyirəm ki, ermənilər yalnız Xocalıda soyqırımı törətməyib. Yaşayış məntəqələrimizin işğalı zamanı harada fürsət tapıblarsa, öz xislətlərini göstəriblər".

Onun sözlərinə görə, Xocalıda törədilən soyqırımı hadisəsi miqyasına görə ən dəhşətlisi və ən amansızıdır. "Dörd ay tam mühasirə şəraitində qalan, adi çörəyə belə möhtac olan dinc əhali şaxtalı bir qış gecəsi hər tərəfdən mühasirəyə alınaraq ilk öncə artilleriya və ağır texnikaların mərmi yağışına tutulub. Daha sonra isə canlı qüvvə dinc, əliyalın əhali üzərinə hücuma keçib, evlərə od vurulub, qarşılarına çıxan hər kəs qocasına, qadınına, körpəsinə, uşağına baxılmadan vəhşicəsinə qətlə yetirilib. Dünya bu qətliama səssiz qalmamalıdır", - deyə o qeyd edib.

Siyasi elmlər doktoru, professor Elçin Əhmədov tədbirdə "Xocalı soyqırımını törədənlər cəzasız qalmayacaqlar" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan dövləti Xocalı soyqırımının dünyada tanınması üçün sistemli tədbirlər həyata keçirir. Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı işlər Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra başlayıb. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu məsələni diqqət mərkəzində saxlayır. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələlərdən biri kimi müəyyənləşdirilib.

Onun sözlərinə görə, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondu sistemli tədbirlər həyata keçirir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası hazırda uğurla davam etdirilir. Görülən işlərin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, 17 ölkənin parlamenti və ABŞ-ın 24 ştatı Xocalı soyqırımı haqqında müvafiq sənədlər qəbul ediblər. 44 günlük Vətən müharibəsində Xocalı qatillərinin bir qismi öz layiqli cəzalarını aldılar. Amma inanırıq ki, güclü Azərbaycan dövləti qarşıya qoyduğu məqsədə nail olacaq və Xocalı qətliamını törədən bütün canilər ədalət məhkəməsinə çıxarılacaq. Eyni zamanda, Xocalı soyqırımı bütün dünyada tanınacaq.

Daha sonra videokonfransda Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət qəbul olunub.

Videokonfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, biz xalq olaraq bundan sonra da güclənməli və birlik nümayiş etdirməliyik. Azərbaycanın gələcəyinin Heydər Əliyev yolu və ideyaları ilə bağlı olduğunu deyən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu yolu uğurla davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında daha sıx birləşməliyik.

# Yeni Azərbaycan Partiyası Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Yeni Azərbaycan Partiyası (YAP) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. AZƏRTAC Yeni Azərbaycan Partiyasının fevralın 24-də Xocalı faciəsinin 30-cu ildönümünə həsr edilmiş "Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" mövzusunda keçirdiyi videokonfransda qəbul edilən müraciəti təqdim edir.




"30 il bundan əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində soyqırımı aktı törədildi. Şəhər yerləyeksan edildi, 63 uşaq, 106 qadın, 70 qoca olmaqla, 613 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü, 150 nəfərin taleyi isə indiyə kimi naməlumdur. Xəsarət alanlardan 487 nəfəri şikəst olub, onlardan 76 nəfəri azyaşlıdır.

Sonrakı günlərdə hadisə yerinə səfər edən xarici ölkələrin çoxsaylı mətbuat nümayəndələri də bu dəhşətli mənzərənin şahidi oldular. Onların müxtəlif kütləvi informasiya vasitələrində yaydıqları məlumatlarda diqqətə çatdırıldığı kimi, yüzlərlə insan öldürülmüş, mülki şəxslərin, o cümlədən qadın və uşaqların cəsədləri təhqir edilmişdi.

Xocalı soyqırımı Ermənistanın siyasi və hərbi rəhbərliyinin 1988-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizinin işğalı və 700 min nəfər azərbaycanlının öz yurdundan didərgin salınması ilə nəticələnən işğalçılıq siyasətinin həyata keçirilməsi zamanı dinc əhaliyə qarşı törətdiyi ən dəhşətli cinayətdir. Həmin illərdə ermənilərin işğal edərək yer üzündən sildikləri Bağanıs Ayrım, Qaradağlı, Ağdaban, Başlıbel və onlarla digər yaşayış məntəqələrində əksəriyyətini uşaqlar, qadınlar və qocalar təşkil edən yüzlərlə dinc əhalini xüsusi amansızlıqla qətlə yetirməsi vandalizmin, insanlıq əleyhinə cinayətlərin bariz sübutudur.

2020-ci ildə Ermənistanın yeni torpaqlar ələ keçirmək məqsədilə növbəti hücum cəhdlərinin qarşısını almaq üçün Azərbaycanın həyata keçirdiyi əks-hücum əməliyyatları - Vətən müharibəsi zamanı da ermənilər beynəlxalq hüququn tələblərini kobudcasına pozaraq Gəncə, Tərtər, Bərdə və digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə aldılar. Nəticədə 98 mülki şəxs həyatını itirdi, 414 nəfər yaralandı, 3000-dən çox ev və 100 yaşayış binası dağıdıldı.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan torpaqları azad edildi, 30 illik işğala son qoyuldu. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də beynəlxalq təşkilatların uzun illər kağız üzərində qalmış qərar və qətnamələrinin icrasını təmin etdi, Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı. Hazırda işğaldan azad olunan ərazilərdə geniş bərpa-quruculuq işləri həyata keçirilir. Yaxın illərdə bu ərazilərin sakinlərinin öz yurdlarına qayıdışı və layiqli-dayanıqlı məskunlaşması təmin ediləcək.

Xocalı faciəsinin dünyada soyqırımı kimi tanıdılması, qanlı cinayət aktına adekvat qiymət verilməsi istiqamətində Azərbaycan dövləti tərəfindən sistemli iş aparılır. Eyni zamanda, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu məqsədyönlü tədbirlər həyata keçirir. Xüsusilə də, fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə "Xocalıya ədalət!" kampaniyasının uğurla davam etdirilməsi, bir çox ölkədə tədbirlərin təşkili və digər işlər real nəticələrin əldə olunmasını şərtləndirir. Bunun nəticəsidir ki, bir sıra ölkələrin parlamentləri, ABŞ-ın 20-dən çox ştatı bu cinayəti qətliam kimi tanıyıb.

Azərbaycan həmişə sülh, əməkdaşlıq tərəfdarı olub, bunu öz mövqeyi və fəaliyyəti ilə dəfələrlə sübut edib. Lakin heç bir cinayət cəzasız qalmamalıdır. Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vandalizm aktıdır. Təəssüflər olsun ki, 30 il keçməsinə baxmayaraq, beynəlxalq ictimaiyyət tərəfindən bu qanlı faciəyə lazımi siyasi və hüquqi qiymət verilməyib, cinayəti törətmiş şəxslər hələ də məsuliyyətə cəlb edilməyib.

Hesab edirik ki, Xocalı soyqırımı təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə, insanlığa qarşı törədilmiş tarixi bir cinayətdir. Buna görə də bu qanlı cinayətin təşkilatçıları və icraçıları - Ermənistanın keçmiş siyasi və hərbi rəhbərliyi beynəlxalq hüquq qarşısında cavab verməli və öz layiqli cəzalarını almalıdırlar. Cəzasızlıq mühitinin nəticəsidir ki, həmin şəxslər və onların təsiri altında olan revanşist çevrələr bu gün də iki ölkə arasında və regionda sülhün bərqərar olması istiqamətində görülən işlərə, o cümlədən beynəlxalq ictimaiyyətin təşəbbüslərinə mane olmağa çalışırlar.

Biz beynəlxalq təşkilatları, siyasi partiyaları və dünya ictimaiyyətini insanlıq əleyhinə törədilmiş Xocalı soyqırımına biganə qalmamağa, belə cinayətlərin bir daha yer üzündə təkrarlanmaması üçün Xocalıya ədalətin təmin edilməsi yönündə Azərbaycanın təşəbbüslərini dəstəkləməyə, birlik və həmrəylik nümayiş etdirməyə çağırırıq".




# XX əsrin faciəsi - Xocalı soyqırımı 30



# Xocalılı əsir qızın da qisası alındı

## Dürdanə Ağayeva: "Hər zaman Tanrıdan özümə möhlət payı istəyirdim, çox qorxurdum ki, birdən bu dünyadan qisasımın alındığını bilmədən köçərəm, gözüm arxada qalar..."





"...Şükürlər olsun Tanrıya ki, mənə qisasımın alındığı o böyük günü görməyi nəsib etdi. Ürəyimdəki 28 illik dağ yüngülləşdi, təsəlli tapdım! Düzdür, hər zaman bilirdim ki, Xocalıda ermənilərin xalqımızın başına gətirdiyi müsibətin qisası qiyamətə qalmayacaq. Amma ölümü gözləyən insanıq, ürəyimə gətirirdim ki, kim bilir, o günü görmək mənə qismət olacaq, ya yox?! Bax, buna görə də Tanrıdan həmişə özümə, erməni əsirliyində min bir işgəncəyə məruz qalan 20 yaşlı o qıza - Dürdanə Ağayevaya möhlət payı istəyirdim. Çox qorxurdum ki, birdən bu dünyadan qisasımın alındığını bilmədən köçərəm, gözüm arxada qalar..."

### Erməni zindanına qara hörüklü bir qız kimi ayaq basdı, 8 gündən sonra isə...

Dürdanə Ağayeva...

Xocalı soyqırımının şahidi və o müsibəti iliklərinə qədər yaşamış biri...

O zaman sadəcə 20 yaşı var idi... 8 gün erməni zindanında əsir qaldı...

Bu zindana qara hörüklü bir qız kimi ayaq basdı, 8 gündən sonra saçları ağarmış, bu dünyanın bütün ağrı-acısını görmüş 80 yaşlı bir qadın kimi çıxdı...

Çox faciələrə tuş gəldi, çox bədbəxtliklər yaşadı...

Amma bir an olsun gələcəyə inamını itirmədi, millətini, torpağını, xalqını sevməkdən vaz keçmədi. Bütün işgəncələrə dözdü, döyüldü, təhqir olundu, lakin sınmadı. Düşmənin təpiyi altında əyilib öz doğma torpağını öpdü, elə o torpaqdan da güc aldı...



Gənc yaşında bu dünyanın ən acı üzünü görən Dürdanə əsirlikdən azad olunduğu gündən sonrakı bütün ömrünü erməni faşistlərinin qaniçən əməllərini dünyaya duyurmağa həsr etdi. Kitablar, məqalələr yazdı, xarici ölkələrə səfərlərə gedib ictimaiyyət, media qarşısında çıxışlar etdi. Azərbaycan həqiqətləri barədə məlumat verdi və erməni zindanında şahidi olduğu dəhşətləri anlatdı...

### Bu müsahibə əvvəlkilərə bənzəmədi...

Əvvəllər də bir neçə dəfə Dürdanə Ağayevadan müsahibələr almışdıq. Amma 44 günlük Vətən müharibəsi sayəsində Xocalı faciəsinin qisasının alınmasından sonra, Xocalı soyqırımının 30 illik ildönümündə bu xocalılı xanımla müsahibəmiz tamam başqa oldu. Düzdür, yolumuz yenə də heç vaxt unutmayacağımız o faciəli, o ağrı-acının yaşandığı günlərdən keçdi, amma söhbətimizin əsas məcrası bu dəfə daha çox qələbəyə kökləndi...

Dürdanə 1972-ci ildə Xocalıda anadan olub. 1985-ci ildə atasını ürək əməliyyatı zamanı erməni həkimlər öldürüblər. O vaxtdan qardaşları Elşad, Elman və Eldənizlə yetim qalıblar və ana babalarının himayəsində böyüyüblər. 17 yaşından Xocalıda rabitə qovşağında telefonçu işləyən gənc qız 1992-ci il fevralın 25-dən 26-na keçən gecə meşədə ermənilərə əsir düşüb. Və Əsgəran şəhərindəki polis bölməsində sözlə yazıla bilməyəcək məşəqqətlərə, işgəncələrə məruz qalıb.

### "Rabitəçi olduğumu öyrənmişdilər, buna görə mənə daha ağır işgəncə verirdilər"

- Xocalıya hücum olunan gün biz meşəyə üz tutduq. Buz kimi havada qarı yara-yara Ağdam istiqamətinə qaçırdıq. Qara Qayaya çatanda əsir düşdük. Ermənilər birdən qarşımızı kəsib bizi atəşə tutdular. Xocalılıların yükü ancaq balaları idi. Elə bir ana yox idi ki, onun bağrında övladı olmasın. Mən ayağımdan güllə yarası aldım. Anamı və qardaşlarımı itirdim. Sürünə-sürünə gəlib çıxdım xəndək kimi bir yerə. Yanımda hamilə gəlin vardı əri ilə... 19 yaşı olardı, yazığı başından vurub öldürdülər. Biz sürünə-sürünə gedirdik, ermənilər qarşımızı kəsib dedilər ki, "qalxın ayağa, sizi öldürməyəcəyik". Onlar Azərbaycan dilində təmiz danışırdılar. Mən də qardaşım Elşadın əlindən tutub gedirdim. Palçığa bata-bata, yıxıla-yıxıla gəlib çatdıq Əsgəran rayonuna.

Hamımızı üzüqoylu asfaltın üstünə uzatdılar. Bizi hərbçilərin, döyüşçülərin yığışdığı yerə apardılar. Əvvəl elə bildim ki, qadınlardan təkcə mənəm əsirlikdə. Amma orda çoxlu qız-gəlinimizi gördüm, dəhşətə gəldim...

Düşünürəm ki, Allah məni anamın kimsəsizliyinə bağışladı. Fikirləş ki, arıq, gənc bir qızın bütün paltarlarını əynindən çıxarıb, lüt bədənini təpikləyirlər. Məni 3-4 erməni möhkəm döydü, elə bildilər ki, ölmüşəm, götürüb atdılar qarın üstünə. Çöldə don vurmuşdu, kirpiklərim bir-birinə yapışmışdı. Gözümü neçə saatdan sonra açmışam. Ancaq gecə qaranlıqda gözümü açanda məni saçımdan tutub sürüyən erməni dedi ki, sən hələ ölməmisən? Hissiyyatım tamamilə itmişdi, əlimi əlimə vururdum heç nə hiss etmirdim. Bircə dilim tərpənirdi...

Rabitəçi olduğumu öyrənmişdilər, buna görə lap ağır işgəncə verirdilər mənə.

Bilirsiniz, heç zaman nə yadımdan çıxmır?.. Məni əsir alıb Əsgərana apararanda ermənilər soruşdu ki, eviniz hansıdır, göstərdim. Apardılar həyətimizə və başladılar orada döyməyə, təpiklə, zəncirlə vurmağa. Bir anlıq gözlərim uçmuş pilləkənimizə sataşdı və qeyri-ixtiyari düşündüm ki, kaş bunlar hamısı bir yuxu olaydı, anam, atam, doğmalarım burada olaydı, mən də ağ duvaqla bu pilləkənlə düşəydim...

Bax, o acılarla həyatım dəyişdi. Orada öyrəndim ki, İlahi, insan hər əzaba dözərmiş... Mən də dözdüm...

### "O komutatorun arxasında oturanda mənə elə gəlirdi ki, Xocalıdayam"

Həmin faciədən sonra Bakıya gələn Dürdanəni əməliyyat edərək ayağındakı gülləni çıxarırlar, amma ağrıları bununla bitmir. Gənc qızın başı, böyrəkləri soyuqlamış, ürək ağrısı tapmışdı... Yaşananlara, fiziki ağrılara tab gətirə bilməyən Dürdanə dəfələrlə həyatına qəsd etmək istəmiş, amma zamanla yavaş-yavaş ürəyindəki qanayan yaralarını dindirməyə çalışmışdı...

- Bir müddət sonra özümdə güc tapıb Xocalı İcra Hakimiyyətində makinaçı kimi çalışdım. Sonra "Aztelekom"a müraciət etdim və məni isə götürdülər, Xırdalanda bir neçə il telefonçu işlədim. Həmin qulaqcıq, həmin kabinet, həmin abonentlər və yenə həmin "Alo"... O komutatorun arxasında oturanda mənə elə gəlirdi ki, Xocalıdayam. Sanki hər dəfə "Alo" deyəndə Əlif Hacıyevlə, Elman Məmmədovla danışırdım. Yenidən telefonçu işləməyim mənə yeni nəfəs, ruh verdi. Ona qədər isə yaşamaq istəmirdim.

Xeyli müddətdən sonra ailə qurdum. 5 ildən sonra Allah mənə övlad sevinci də yaşatdı. Çox gözəl ailəm var idi, 20 il həyat yoldaşım İlhamla birgə xoşbəxt yaşadıq, övladımızı böyütdük. Təəssüf ki, o, indi mənimlə deyil, bir neçə ildir ki, xərçəng xəstəliyindən vəfat edib.

### Daha susmayacaq ki, qoy dünya insan qatili ermənilərin vəhşiliklərindən xəbərdar olsun

Düz 35 yaşına qədər Dürdanə Ağayeva Xocalı barədə heç kimlə danışmadı, müsahibə vermədi. Ortaya çıxıb əsir düşmüşəm deməyə cəsarəti çatmadı, utandı... Lakin çox düşündükdən sonra bir gün qəti qərarını verdi. Daha susmayacaqdı. Elinin, torpağının faciəsindən danışacaqdı. Danışacaqdı ki, qoy insan qatilləri ermənilərin vəhşiliklərindən dünya xəbərdar olsun.

- Bir il hər gecə o keçmiş günlərimi bir gündəlik kimi yazmağa başladım. Xocalının işğalından 25 il keçirdi. Türkiyədə İnsana Yardım Vakfından dəvət aldım. Orada biləndə ki xatirələrimi yazmışam, buna böyük maraq göstərdilər və tezliklə türk dilində "Erməni zindanında səkkiz gün" adlı kitabım işıq üzü gördü. Daha sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva həmin kitabın Azərbaycan dilinə tərcümə olunmasına kömək etdi. Moskvada həmin kitabın təqdimatında Leyla xanım xoş sözlər dedi. Dedi ki, yaxşı ki, varsınız. Kaş ki, bu faciə başınıza gəlməyəydi və siz işıqlı həyatınızdan yazaydınız.

Elə o zamanlardan şahidi olduğum Xocalı faciəsini bütün çılpaqlığı ilə dünyaya bildirməyə başladım. İndi də bu istiqamətdə kitablar yazıram, məqalələr dərc etdirirəm. İlk kitabımdan sonra "Xocalı şəhidləri - 613" və 44 günlük Vətən müharibəsində sinəsini düşmənə sipər edən igid oğlanlardan biri, hərbi həkim Cəmil Oqtay oğlu Səlimova həsr etdiyim "Yarımçıq qalmış ömür" adlı kitablarım işıq üzü görüb.

### "Torpaqlarımızın işğaldan azad olunduğunu eşitdikcə həm sevinir, həm də qəhərdən ağlayırdım"

- Vətən müharibəmiz başlayanda o qədər həyəcanlandım ki, bunu sözlə ifadə etmək mümkün deyil. Müzəffər sərkərdəmiz İlham Əliyev dədə-baba torpaqlarımızın bir-bir işğaldan azad olunduğunu elan etdikcə həm sevinir, həm də qəhərdən ağlayırdım. 8 noyabr - Şuşanın azad olunduğu gün isə sözün əsl mənasında şok yaşadım. Bəzən insan sevincindən necə dəli olursa, mən də o cür oldum. Artıq tam əmin oldum ki, biz qalib gəlmişik.

Şükürlər olsun, bu gün rahatlıqla deyirik ki, biz düşməndən qisasımızı almışıq. İllər əvvəl xarici ölkələrdə səfərlərdə olanda dəfələrlə ürəkdən istəmişəm dünyaya hayqırım ki, "biz qalib ölkəyik", "torpaqlarımız azaddır", "Xocalının qisası alınıb", amma deyə bilməmişəm, bunlar ürəyimdə ağır bir daş kimi asılıb qalıb.

Amma artıq qürurla hər yerdə deyirəm ki, "Azərbaycan xalqı qalib xalqdır və öz qisasını düşməndən layiqincə alıb".

Tezliklə biz əbədi yaşamaq üçün əzəli torpaqlarımıza böyük qayıdış edəcəyik. Biz erməni vəhşilərinin dağıdıb-viran qoyduğu o yurdları yenidən dirçəldəcəyik. Murdar düşmənə sübut edəcəyik ki, siz heç vaxt vəhşi əməlinizlə Azərbaycan xalqının gözünü qorxuda, onu doğma torpağından ayıra bilməzsiniz. Çünki biz bu Vətən yolunda hər zaman fəda olmağa hazırıq. Təki Vətən sağ, bütöv olsun...

Bu qüruru, təsvirəgəlməz xoşbəxtliyi bizə müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu, Vətən uğrunda sinəsini düşmənə sipər edən şəhidlərimiz yaşadıb. Azərbaycanın mərd oğulları həm də Xocalıda əsir düşən qız-gəlinlərimizin namus qisasını alıblar.

### "Qaraağacı qəbiristanlığının yanında atama laylay çalıb ağladım..."

- İşğaldan azad olunmuş torpaqlardan ilk olaraq Ağdama getmək istədim. Bilmirəm, bəlkə də bu istəyim o zaman əsirlikdən, ölümün əlindən qurtulanda da ilk Ağdama pənah gətirdiyim üçün idi. Ya da ki, atamın və əsirlikdən azad olmağıma səbəb olan Milli Qəhrəman Allahverdi Bağırovun o torpaqda, Ağdamda uyuması, məzarının orada olması idi...

Ötən ilin sentyabrında gedib Ağdamı ziyarət etdim. O torpağa ayaq basanda dizlərimi yerə qoyub, torpağımı öpdüm. 1992-ci ildə Xocalı şəhidlərinin yuyulduğu Ağdam Cümə məscidinə getdim, dualar etdim. "Şükür sənə Tanrı, haqq nahaqqa qalib gəldi" dedim.

Qaraağacı qəbiristanlığı yerləyeksan olunub. Buna görə də atamın oradakı qəbrinə gedə bilmədim. Qəbiristanlığın yaxınlığında durub atamı harayladım, "ata, mən gəlmişəm, ayağa dur" dedim və atama laylay çalıb ağladım...

Ağdamda Allahverdi Bağırovun məzarını ziyarət edəndə elə bildim ki, atamın da ruhu oradadır. Məni erməni əsirliyindəki zülmdən xilas edən Milli Qəhrəmanın məzarını ziyarət edən gündən sanki daxilimdə, ruhumda, özümdə bir sakitlik, dinclik, təsəlli tapmışam...

### "Allah mənə tezliklə Xocalının da yolunu açacaq"

- Bilirəm, tezliklə Allah mənə Xocalının da yolunu açacaq. O zaman qızım Ləmanın əlindən tutub Xocalıya aparacam, doğma yurdumu qarış-qarış gəzdirəcəm. Yazda Kətik meşəsində bənövşə dərəcək, nərgizgülü yığacaq, o buz bulaqlardan su içəcək, görəcək ki, anasının uşaqlığı necə gözəl yerlərdə keçib. Yəni uşaqlarımızı öz kökümüzə qaytaracağıq...

26 fevral 1992-ci ildə Xocalıda yaşanan müsibət o gün orada olanların hərəsinin taleyinə fərqli bir ağrı yazdı. Dürdanə Ağayeva da 20 yaşında əsir düşüb, o vəhşətin girdabında boğulanlardan, həyatının sonrakı illərini də o acılarla, dəhşətli travmalarla keçirənlərdən oldu. Ötən 30 ilə yaxın müddətdə o da dərddən, qəmdən, qüssədən çox xəstəliklər tapdı. Amma hər zaman Allahdan özünə möhlət istədi: həm qisasının alındığını gözləri ilə görmək, həm də şahid kimi Xocalıda yaşanan faciəni dünyaya çatdırmaq üçün: "Və ömrüm vəfa etdikcə ermənilərin əsl faşist simasını üzə çıxarmaq üçün bundan sonra da gecə-gündüz çalışacam..."

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımının 30 illiyi ilə bağlı bəyanat yayıb

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyi tərəfindən görülmüş işlər nəticəsində İslam Əməkdaşlığı Təşkilatı (İƏT) "İƏT Baş Katibliyi Xocalı soyqırımının 30-cu ildönümünü yad edir" ("OIC General Secretariat Commemorates the 30th Anniversary of Khojaly Massacre") başlıqlı bəyanatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, təşkilatın rəsmi internet səhifəsində dərc edilmiş bəyanatda işğal olunmuş Azərbaycan ərazilərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərəkətlərin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər adlandırılması ilə yanaşı, "soyqırımı" ("genocide") kimi qiymətləndirilib.

İslam Əməkdaşlığı Təşkilatının Baş katibi Hissein Brahim Taha 1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində törədilən soyqırımının 30-cu ildönümü ilə əlaqədar faciədə həyatını itirmiş şəxslərin xatirəsini yad edib.

Bəyanatda qeyd edilib ki, Xocalı faciəsi Ermənistan Respublikası tərəfindən Azərbaycan ərazilərinin qeyri-qanuni işğalının nəticəsidir. Xocalıda azərbaycanlı mülki əhaliyə qarşı törədilən hərəkətləri müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və beynəlxalq səviyyədə soyqırımı kimi dəyərləndirən Baş katib 2013-cü ildə Qahirədə keçirilmiş İslam sammitinin 12-ci Sessiyasında qəbul edilmiş Qahirə Yekun Kommünikesinə (117-ci bənd) və 2020-ci ildə İƏT Xarici İşlər Nazirləri Şurasının Niamey şəhərində keçirilmiş 48-ci Sessiyasında qəbul edilmiş 51/47-POL "Xocalı qırğınının qurbanları ilə həmrəylik" qətnaməsinə istinad edib.

# Azərbaycan ombudsmanı Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsmanı) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"XX əsrin ən dəhşətli faciələrindən biri, bəşəriyyətə və insanlığa qarşı törədilmiş ağır cinayət olan Xocalı soyqırımından 30 il ötür.

Ermənistanın tarix boyu azərbaycanlılara qarşı yürütmüş olduğu etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində yüz minlərlə dinc insan kütləvi surətdə qətlə yetirilmiş, öz torpaqlarından didərgin salınmışdır.

Cəzasızlıq mühitindən daha da azğınlaşan erməni silahlı birləşmələrinin Azərbaycanın yaşayış məntəqələrində törətmiş olduğu qətliamlardan ən dəhşətlisi Xocalı şəhərində baş vermişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, onların havadarlıq etdiyi erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində dinc əhaliyə qarşı soyqırımı aktı törədilmişdir.

Soyqırımı zamanı 106-sı qadın, 63-ü uşaq və 70-i qoca olmaqla 613 nəfər xüsusi qəddarlıqla öldürülüb, 1275 nəfər girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli ağır bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib.

Həmin dövrdə dünyanın bir sıra aparıcı telekanalları, "The Times", "The Guardian" qəzetləri, "Reuters", "BBC" agentlikləri Xocalıda xüsusi qəddarlıqla törədilən insanlığa qarşı cinayətlər barədə məlumat yaymışdır.

"Memorial" İnsan Hüquqları Mərkəzinin, "Human Rights Watch" təşkilatının hesabatlarında Xocalıda mülki əhaliyə qarşı törədilmiş dəhşətli cinayətlər barədə məlumatlar öz əksini tapmışdır.

Xocalıda mülki əhalinin məhz etnik mənsubiyyətinə görə kütləvi və məqsədyönlü şəkildə qırğını BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsinə və 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyaya əsasən soyqırımı cinayəti kimi tövsif edilməlidir.

Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində bir sıra beynəlxalq sənədlərin, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının, "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın, "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın, "Uşaq hüquqları haqqında" Konvensiyanın və "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın tələbləri kobud şəkildə pozulmuşdur.

Soyqırımı siyasətini davam etdirən Ermənistan İkinci Qarabağ müharibəsi dövründə də hərbi əməliyyatların baş verdiyi ərazilərdən kilometrlərlə uzaqda olan, mülki əhalinin sıx yerləşdiyi şəhər və kəndləri ballistik raketlərlə, kasetli bombalarla hədəfə almış, bunun nəticəsində 12-si uşaq olmaqla, 100-ə yaxın mülki şəxs həlak olmuş, 50-si uşaq olmaqla, 400-dən çox insan yaralanmışdır. Həmin dövrdə Ermənistanın mülki obyektlərə hücumları 3410-dan çox evin, 120 çoxmənzilli yaşayış binasının və xeyli sayda məktəb, xəstəxana, uşaq bağçası da daxil olmaqla, 512 mülki infrastrukturun dağılmasına səbəb olmuşdur.

Ölkəmizə qarşı yönəlmiş hərbi təcavüzün qarşısının alınması və mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş əks-hücum əməliyyatı nəticəsində 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş torpaqlarımız qısa müddət ərzində azad edilmiş, soydaşlarımızın pozulmuş hüquqlarının bərpa edilməsi üçün əsas yaranmışdır.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü əsasında 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermiş, 26 fevral tarixi "Xocalı Soyqırımı Günü" elan olunmuş və soyqırımı haqqında həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Qarabağla bağlı həqiqətlərin, xüsusilə də Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi "Xocalıya ədalət!" beynəlxalq kampaniyası müstəsna rola malikdir.

Hazırda 17 dövlətin qanunvericilik orqanı, ABŞ-ın 24 ştatı Xocalıda törədilmiş qətliamı pisləyən qətnamə və qərarlar qəbul edib. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyıb.

Xüsusilə qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı münaqişədən bugünədək Xocalıda itkin düşmüş şəxslər də daxil olmaqla, əsir və girov götürülmüş, itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyindən xəbər yoxdur.

Dünya ictimaiyyəti beynəlxalq humanitar hüquq normalarını kobud surətdə pozan Ermənistana münasibətdə təsirli tədbirlər görməli, əsir və girov götürülmüş, itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyi barədə məlumatların əldə olunması məqsədilə cavabdeh dövlətə təzyiqlər etməlidir.

Xocalı soyqırımı öz miqyasına, qəddarlığına və qeyri-insani cəza üsullarına görə XX əsrdə insanlığa qarşı törədilmiş ən dəhşətli soyqırımı aktlarındandır.

Soyqırımının törədilməsindən 30 il keçməsinə baxmayaraq, təəssüf ki, beynəlxalq ictimaiyyət tərəfindən ikili standartlara yol verilərək, bu soyqırımı aktına lazımi siyasi və hüquqi qiymət verilməyib, cinayəti törətmiş şəxslər hələ də məsuliyyətə cəlb edilməyib.

Dünya ictimaiyyəti, əlaqədar beynəlxalq təşkilatlar Xocalıda törədilmiş soyqırımı aktına adekvat reaksiya verməli, bu cinayət soyqırımı kimi tanınmalı, onun sifarişçiləri, icraçıları ədalət mühakiməsinə cəlb olunmalıdırlar".

Qeyd edək ki, bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.


Бизим мусаhибə

ДАhА СУСА БИЛМƏЗДИМ...

Heydər Əliyevin "Şərq qapısı"nın 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibəsi Ulu Öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunan ilk açıqlaması idi

# Şanlı Naxçıvanın fədakar salnaməçiləri








*Jurnalistika, - söhbət əslindən gedir, - qəlbin peşəsidir, könül işidir. Çətindir, məşəqqətlidir, yorucudur, amma sevirsənsə, ondan ayrıla bilmirsən...*

*Yaradıcılıqda əsas missiya da elə məhz yaradıcı olmaqdır. Kiçik bir xəbərlə mükəmməl publisistik yazının, xırda açıqlama ilə müfəssəl təhlilin arasında olan fərq, əslində peşəkarlıq baxımından o qədər də əhəmiyyət kəsb etmir. Nə mövzuda, nə həcmdə, nə janrda yazırsansa yaz, ərsəyə gətirdiyin məhsul - mətn keyfiyyətli, lazımlı, oxunaqlı, obyektiv olmalıdır, onun cəmiyyətə faydası gərəklidir.*

*Başqa sözlə, ürəkdən gəlməlidir...*

*Həm də jurnalist ən obyektiv salnaməçidir, dünənlə bugünün və sabahın arasında etibarlı məlumat körpüsüdür, daim istinad ediləcək mənbədir...*

## 147-ci ildönümün düşüncələri

Ustadlarımız belə deyib, indi "nəsli kəsilməkdə olan zümrə"yə çevrilən əsl jurnalistlər də belə düşünür...

Təəssüf ki, milli jurnalistikamızda "əsl və saxta", "peşəkar və naşı" ayrımı heç vaxt olmadığı qədər bu gün aktualdır. Keçid dövrünün onilliklərdir bitmədiyi jurnalistikada indi çox cavabsız sualların (onların çoxu bəlkə də ritorikdir, cavabları bəllidir) qarşısında aciz qalırıq...

"Yolumuz haradır?", "medianın sosial şəbəkələrə qurban verilməsi nə qədər davam edəcək?", "məsuliyyətsiz hay-küyün sədası peşəkar sözdən niyə daha çox eşidilir?", "onilliklərdir aparılan media islahat-eksperimentləri nə vaxt bitəcək və nə zaman uğurla nəticələnəcək?", "dünyada qəzetə marağın qayıtdığı dönəmdə bizdə yazılı medianın çıxdaş edilməsi düzgündürmü?", "yeni nəsil jurnalist hazırlığı və formalaşdırılması prosesi niyə tənəzzüldədir?"... kimi çoxsaylı sualların ağır məngənəsində mili mətbuatın 147-ci ildönümünə hazırlaşırıq...

Cəmiyyətin səsləndirdiyi suallara obyektiv və real cavablar verməyə borclu olan jurnalistlərin özlərinin bu sualları cavabsız qalır...

Qələm sevdası elə budur... Sualların cavabsızdır, peşən ağırdır, amma sıxıntılar, çətinliklər içində yenə də öz qələminlə şam timsalı yaradırsan, zülmətləri yarmağa çalışırsan, cəmiyyətin azalan nurunu öləziməyə qoymursan...

Həqiqət ardınca qaçırsan, bəzən hədəfə çevrilirsən, bəzən güzəştə gedirsən, yaxud da qələminin kimlərinsə qırmasına macal vermədən onu özün qırıb bir kənara çəkilirsən... Amma əsla peşənə xəyanət etmirsən... Əsl jurnalist həyatı əsrlərdir ki, belə yaşanır...

Lakin bir yazının uğuru, doğurduğu müsbət əks-səda elə bir sevincdir, duyğudur ki, onun təəssüratı bütün çətinlikləri unutdurur...

Və qələminə yenə də bərk-bərk sarılırsan, öz mənəvi ağrılarını özün sağaldıb, motivasiya edirsən...

Jurnalist həyatının sıxıntılarını ən çox yaşayanlar isə bölgələrdəki həmkarlarımızdır. Əyalət mediası özünün indi heç vaxt olmadığı qədər ağır durğunluq, ciddi böhran, peşəkar kadr çatışmazlığı dövrünü yaşayır. Bölgə jurnalistikası sanki sonuncu nəfəsini verir və tükənir...

Ümumilikdə isə mətbuatımız itirir, jurnalistikamızın üzləşdiyi fəsadlar gündən-günə ağırlaşır...

Regional inkişafın dünyada ən mükəmməl nümunələrindən birini yaradan, məmləkətdə bölgələrdəki bu tərəqqini, intibahı ölkə ictimaiyyətinə ətraflı çatdıracaq, sabahkı nəsillərə salnamə kimi ötürəcək yaradıcı sistem - bölgə mətbuatı məhvə doğru gedir...

Nə yaxşı ki, bu acı mənzərədə bir istisna var...

## Naxçıvanın peşəkar sədası

...Naxçıvanda qaldığımız hotelin üst qatından ətrafa nəzər salarkən bələdçimizdən qarşıda yerləşən binaların təyinatını soruşurduq. Üçmərtəbəli yaraşıqlı binanın bir qəzetə məxsus olduğunu eşidəndə, sözün düzü, təəccübləndik. Muxtar respublikanın inzibati mərkəzinin əsas küçələrindən birində belə böyük binaya sahib olan qəzet 101 yaşlı "Şərq qapısı"dır!

"Hər bir ənənə yaşamalıdır" - yanaşması tamamilə səhvdir. Özündə mükəmməl təcrübəni əks etdirən, müasir dövrdə də aktuallığını qoruyan, faydalı və ibrətli olan, ən əsası isə, dəyərə çevrilən ənənələr yaşadılmalı, öyrənilməli, istifadə olunmalıdır, xüsusən də mətbuatda. Belə ənənələr yeni dövrün çağırışları, tələbləri, prosesləri ilə birləşəndə isə nəticə uğurlu olur. "Şərq qapısı"nda olduğu kimi...

Ölkənin yeganə rəsmi dövlət qəzeti olan "Azərbaycan" üçün Naxçıvan Muxtar Respublikasının rəsmi nəşri "Şərq qapısı" hər zaman bir köynək yaxın olub, onu əsl dost, qardaş qəzet saymışıq. İki KİV arasında onilliklər boyu səmimi və etibarlı əməkdaşlıq formalaşıb. Belə möhtəşəm binada yerləşən qardaş qəzeti ziyarət etmək isə mənəvi borcumuz idi.

Çox qəzetin tarixdə izi qalır, 101 yaşlı "Şərq qapısı" isə elə müasir dövr tarixinin özüdür. Heç də mübaliğəyə varmadıq, şişirtmədik. Bu gün Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən, Ulu Öndər Heydər Əliyevin adını daşıyan hər bir mərkəzdə, muzeydə "Şərq qapısı" qəzetinin hansısa səhifəsinin fotonüsxəsini görə bilərik. Yaxud Ümummilli Liderin irsini araşdıranlar, Azərbaycanın Qurtuluş missiyasının başlanğıc mərhələsi olan Naxçıvan dövrünü öyrənənlər məhz əsas istinad mənbəyi kimi "Şərq qapısı"nın qapısını döyür...

Necə ki, 1918-1920-ci illərin "Azərbaycan" qəzeti araşdırmaçılar üçün Xalq Cümhuriyyətinin ən mükəmməl fəaliyyət salnaməsi, o dövrdəki prosesləri dəqiq və vicdanla işıqlandıran mənbədir, eləcə də "Şərq qapısı"nın 1990-1993-cü illərdəki nömrələri tariximizin möhtəşəm dönüş mərhələsini obyektiv və əhatəli təqdim edən əsas vasitədir...

Bu gün isə Naxçıvanın inkişaf, quruculuq salnaməsinin obyektiv sədasıdır...

## Heydər Əliyevin redaktə etdiyi qəzet

Ulu Öndər üçün "Şərq qapısı" hələ uşaqlığından etibarən hər zaman sevimli, doğma qəzet olub: "Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".

Ən əsası, bu qəzetə verdiyi yüksək dəyəri başqa heç bir KİV barədə söyləməyib: "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm"...

Ötən əsrin 70-80-ci illərində o zaman başqa adlarla çıxan bu qəzeti və onun əməkdaşlarını yüksək dövlət mükafatları ilə təltif edən Ümummilli Lider Naxçıvana dönən kimi də ilk müsahibəsini məhz bu qəzetə verdi. "Şərq qapısı"nın 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibə həm də Ulu Öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunan ilk açıqlaması idi. Bir məqamı da xatırladaq ki, 80-ci illərin sonlarında Azərbaycan mətbuatında Heydər Əliyevə qarşı total qarayaxma kampaniyası aparılarkən, Ulu Öndərin Moskvada "Teatr" jurnalına verdiyi müsahibə tərcümə edilərək "Şərq qapısı"nda dərc olunmuşdu.

"Şərq qapısı" ötən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyevin əsas, daha doğrusu, yeganə tribunası idi. Yalnız Ulu Öndərin Naxçıvandakı fəaliyyəti, gördüyü işlər, imzaladığı tarixi sənədlər burada əks olunmurdu, həm də Xilaskarın Azərbaycan cəmiyyətinə ünvanladığı mesajlar, müstəqilliklə bağlı strateji yanaşmaları bu qəzet vasitəsilə xalqa çatdırılırdı. Muxtar respublikanın və şəxsən Heydər Əliyevin ətrafında yaradılmış informasiya blokadasının yarılmasında əsas fəallığı göstərən "Şərq qapısı"nın fədakar jurnalistləri həm də Ulu Öndərin cəfakeş təbliğatçıları idilər.

Şahidlər danışır ki, qəzetdə dərc olunacaq sənədləri, qərarları, özünün müsahibələrini, açıqlamalarını Ümummilli Lider redaktə edir, yaradıcı prosesə bənzərsiz töhfəsini verərmiş. Onun əsas istədiyi isə jurnalistlərin proseslərlə bağlı azad mövqeyini ifadə etmələri, mətbuatın tam müstəqilliyinin təmini idi. Heydər Əliyev "Şərq qapısı"nın fəaliyyətini daim himayəsində saxlayır, o çətin günlərdə nəşrini dayandırmasına imkan vermirdi. Bunlar isə Ulu Öndərin sonradan daha geniş miqyas alaraq Azərbaycan mətbuatının inkişafına, söz və mətbuat azadlığının təmininə yönələn fəaliyyətinin ilk qığılcımları idi.

1996-cı ildə yubileyi ilə bağlı qəzetə Heydər Əliyev təbrik məktubu da göndərib: "75 illik şərəfli yaradıcılıq yolu keçmiş "Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur"...

## Azərbaycanda ən böyük binası olan qəzet

Beləliklə, "Şərq qapısı"ndayıq. Qəzetin baş redaktoru Mehriban Sultan tanınmış qələm sahibidir, peşəkar jurnalistdir, həm də tədqiqatçı-alimidir. Onunla bu möhtəşəm binanı gəzirik. "Bilirsiniz ki, Azərbaycanda ən böyük bina sizin qəzetə məxsusdur?" sualımıza gülümsünür və "Bu, böyük etimaddır. Etimada da məsuliyyətli işimizlə, yüksək yaradıcı keyfiyyətlə cavab verməyə çalışırıq" deyir.

2010-cı ildə mətbuat günündə Ali Məclis Sədri Vasif Talıbov tərəfindən açılan bu binanı, əslində, 4 mərtəbəli saymaq olar. Özlərinin zirzəmi dedikləri alt mərtəbədə dünya standartlarına uyğun avadanlıqlarla təchiz edilən, poliqrafiyanın ən müasir trendlərini əxz edən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi və mətbəəsi yerləşir.

Gündəlik nəşrin iş qrafikinin gərgin olduğunu burada da görürük. Müxbirlər kompüter arxasında məqalələrini hazırlayır, korrektorlar mətnlər üzərində düzəlişlər edir, yığıcılar və dizaynerlər tərtibatla məşğuldurlar, redaktor heyəti isə ilkin qəzet səhifələri üzərində çalışırlar. Bütün otaqlar çox işıqlıdır, mebellə, müasir avadanlıqlarla, kompüterlərlə tam təmin olunublar. Yeni binanın çölü də gözəl, içi də...

Həmkarlarımızla söhbətləşirik. 20 ildən artıqdır ki, "Şərq qapısı"nda yaradıcılıq fəaliyyəti ilə məşğul olan məsul katib Muxtar Məmmədovun muxtar respublikada jurnalist kadrların formalaşması baxımından da müstəsna əməyi var. Onun müavini Məhəbbət Mirzəyeva 25 illik jurnalist təcrübəsinə malik qələm sahibidir. Səbuhi Həsənovun muxtar respublikanın tarixi, turizm potensialı, iqtisadiyyatı, həyata keçirilən sosial siyasəti ilə bağlı məqalələri mükəmməl araşdırmalardır. İqtisad elmləri namizədi  Əli Cabbarov səmərəli jurnalist fəaliyyəti ilə oxucu rəğbəti qazanıb.

Və "Şərq qapısı"nda gənclik ruhunu, gənclərin iştirakını yaradıcılığın hər mərhələsində aydın müşahidə edirik...

Qəzetdə 10-dan çox jurnalistin çalışdığını deyən Mehriban Sultan qeyd edir ki, yaradılan dövlət qayğısı sayəsində son illərdə gənc kadrlara yüksək etimad göstərilir, onlar qocaman, təcrübəli jurnalistlərlə çiyin-çiyinə çalışırlar ki, bu da jurnalistikada nəsillərarası əlaqə yaratmaqla təcrübə mübadiləsinə, jurnalist potensialının gəncləşməsinə xidmət edir.

Hazırda ölkə üzrə jurnalistkanın ən ağrılı problemlərindən biri olan bu məsələ "Şərq qapısı"nda, həqiqətən də, uğurlu həllini tapıb. Bunu eşitdiklərimiz yox, gördüklərimiz təsdiqlədi. Ali Məclis Sədrinin təşəbbüsü ilə NDU-nun Jurnalistika fakültəsində təhsil alan tələbələr qəzetdə davamlı təcrübə keçir, peşənin incəliklərini öyrənirlər. Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən bu diqqətin nəticəsidir ki, qəzetdə təcrübəli jurnalistlərlə yanaşı, xeyli gənc əməkdaş da çalışır. Burada hətta tələbə də işə götürülür, əlbəttə ki, bacırığı, istedadı qanedici olanda... "Şərq qapısı" hami təşkilat kimi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası ilə birgə muxtar respublikada ali təhsilli mütəxəssis hazırlığı, tələbə-jurnalistlərin mətbuatda çıxışlarının təşkili ilə bağlı davamlı tədbirlər həyata keçirir. Ən əsası isə, gənc jurnalistlərin bütün təşəbbüslərinə açıqdırlar.

## Nədən yazmalı?

Ötən il qəzetin 100 illik yubileyi muxtar respublikada silsilə tədbirlərlə geniş qeyd edilib. Ali Məclis Sədrinin sərəncamları ilə redaksiya əməkdaşlarının maaşları artırılıb, fəxri adlar, mükafatlarla təltif olunublar.

Oxucular tərəfindən rəğbətlə qarşılandıqlarını, məqalələrin müsbət əks-səda doğurduğunu söyləyən həmkarlarımıza "bəs təsisçinin sizdən tələbi nədir?" sualını ünvanlayırıq. Məlum olur ki, tələb yoxdur, çünki burada qəzetin fəaliyyətinə müdaxilə yolverilməzdir. Sadəcə "Şərq qapısı"na Ali Məclisin tövsiyəsi var: dövrün tələbinə uyğun, insanları düşündürən yazıların hazırlanması, çevik informasiya siyasəti aparılması, milli dəyərlərimizin, adət-ənənələrimizin təbliği, vətəndaşımızda, gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hissləri və milli duyğuların güclənməsinə töhfə, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf, quruculuq salnaməsini yaratmaq və tarixləşdirmək, bütün yaşayış məntəqələrinin, eyni zamanda ucqar dağ və sərhəd kəndlərinin həyatının qəzet səhifələrində obyektiv əksini tapması...

Hələ üstəlik tənqidi materialların artırılması da xüsusi istənilir...

Redaksiyada olarkən dəyərli publisistik yazıların müəllifi Gülcamal Tahirova bizdən müsahibə aldı və geniş material "Şərq qapısı"nda dərc olundu. Həmçinin Naxçıvan Televiziyasının əməkdaşı Adilə Səfərovanın telereportajı da muxtar respublikanın mərkəzi telekanalının xəbərlərində yayımlandı.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi və onun mətbəəsi ilə tanış oluruq. Buradakı cild, çap sexlərində olan avadanlıqların əksəriyyəti alman texnologiyasıdır ki, yüksək texnologiyanın tətbiqi işləri keyfiyyətli, yüksək poliqrafik göstəricilərlə, sərfəli qiymətlərlə həyata keçirməyə imkan verir.

Mətbəədə kadr hazırlığına da diqqət yetirilir. Müasir avadanlıqların düzgün idarə olunması, texniki qulluğun göstərilməsi, fəaliyyətin günün tələbləri səviyyəsində qurulması üçün işçilər Türkiyə və Bakıda müxtəlif kurslarda olmuş, biliklərini təkmilləşdirmiş, avadanlıqların tam funksional olaraq idarə olunmasını öyrənmişlər. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi 10 qəzetdən əlavə kitab, miniatür kitab, məktəbli ləvazimatı, jurnal və digər çap materiallarının hazırlanmasını həyata keçirir.





















## Naxçıvanda gur yanan maarifçilik məşəli

Səfər müddətində bizə yardımını əsirgəməyən, yol yoldaşımız olan Ali Məclis Aparatının baş məsləhətçisi Rəmzi İbrahimovdan muxtar respublikada KİV-in ümumi fəaliyyətini öyrənirik. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır. Sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyar haqqında məlumatların daha operativ çatdırılmasına imkan verir.

Media sahəsində inkişafın keyfiyyətcə yeni mərhələyə yüksəldiyini söyləyən Rəmzi İbrahimov əlavə edir ki, mətbuat sahəsində çalışanların əməkhaqları artırılıb, fərqlənən jurnalistlər fəxri adlara layiq görülüb: "Hərtərəfli qayğı KİV-də keyfiyyət dəyişikliyi yaradıb. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilib, yaradıcılıq imkanları artırılıb. 2018-ci ildə "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınıb. Dövlət teleradiosuna yeni çəkiliş və efir avadanlıqları alınıb. Bu gün Naxçıvan Televiziyası, o cümlədən "Naxçıvanın səsi" radiosu və "Kanal 35" Televiziyası ən müasir rəqəmsal bazaya malikdir. "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri, foto və videoinformasiyaları dünyaya çatdırır. Naxçıvan Mətbuat Şurasının 2019-cu ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir, eyni zamanda bu sahədə əlaqələrin genişlənməsinə də zəmin yaradır. Elə ötən il ərzində muxtar respublikada Medianın İnkişafı Agentliyi yaradılıb, dövlət teleradiosunun fəaliyyəti yenidən təşkil olunub, Naxçıvan Dövlət Universiteti Televiziyasının bölgə miqyasında yayımı təmin edilib".

Naxçıvan səfərimizdə müşahidə etdiyimiz bir maraqlı məqama da toxunaq. Hərbi hissələrdə, məktəblərdə, universitetlərdə, dövlət müəssisələrində, bir sözlə, bu diyarın hansı məkanında olduqsa, "Oxunması zəruri olan kitablar" stendini və orada \xeyli kitabı gördük. Öyrəndik ki, muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü ilə 2017-ci ildə Naxçıvanda maarifçiliyə əhəmiyyətli töhfə olan bir proses başlanılıb, xüsusən də gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən kitablar müəyyənləşdirilib.

Bu kitabların çapına, müvafiq mərkəzlərdə, guşələrdə yerləşdirilməsi işinə dərhal başlanılıb və qısa müddətdə Naxçıvanın dörd bir yanında 33 kitabın timsalında yeni maarifçilik məşəli alovlanıb.

Kitabların siyahısına nəzər salırıq, mükəmməl ədəbi zövq, əsl milli hisslər, yüksək bəşəri duyğular əsasında hazırlandığı dərhal diqqəti cəlb edir. Ümummilli Lider Heydər Əliyevin "Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"i ilə başlayan silsilədə "Kitabi-Dədə Qorqud" dastanı, "Nizaminin hikmət və nəsihətləri", Nəsrəddin Tusinin "Əxlaqi-Nasiri", Cəlil Məmmədquluzadənin "Hekayələr", Qurban Səidin "Əli və Nino", Məmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam", Seyid Əzim Şirvaninin "Seçilmiş əsərləri", Sədi Şirazinin "Gülüstan" və digər belə mili ruhlu əsərlərlə yanaşı, həm də dünya ədəbiyyatının inciləri - Teodor Drayzerin "Dahi", Cek Londonun "Həyat eşqi", Ernest Heminqueyin "Qoca və dəniz", Nikolo Makiavellinin "Hökmdar", Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" kimi şedevrlər əks olunub. Gənclərə tövsiyə edilən kitablar içində ingilis casusunun etirafları əsasında radikal dini təriqətləri ifşa edən "Mister Hemferin xatirələri" əsəri ilə yanaşı, "İslamda müdrik kəlamlar"ın da olması, ABŞ-ın 16-cı Prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu ilə bərabər, Rəşidəddin Fəzlullahın "Oğuznamə" əsərinin də əks edilməsi, həqiqətən də, alqışlanası, ibrət götürüləsi hadisədir.

Bu əsərləri oxuyan, onların təsiri ilə formalaşan yeniyetmələr, gənclər həm məmləkətə layiqli vətənpərvər övladlar tək yetişəcək, həm də dünyaya özlərini modern təfəkkürlü, humanizm ənənələrinə sadiq vətəndaş kimi təqdim edə biləcəklər. Belə təşəbbüslərin geniş miqyasda davamı və gerçəkləşməsi isə maarifçiliklə bərabər, dövlət maraqlarına da birbaşa xidmət edir.

Naxçıvanda mətbuatın təməli 101 il öncə "Cavanlar həyatı" qəzeti ilə qoyuldu. Bu şanlı bayrağı indi peşəsinə məsuliyyətlə, qələminə sədaqətlə daşıyan "Şərq qapısı", "Nuh Yurdu", "Yeni Fikir", "Şərurun səsi", "Şərqin səhəri", "El həyatı", "Arazın səsi", "Oğuz səsi", "Yeni həyat", "Oğuz yurdu" qəzetləri, informasiya portalları, telekanallar, radiolar elə əsl cavanlıq şövqü ilə Yeni Naxçıvanın nailiyyət, yüksəliş, quruculuq salnaməsini yaradırlar...

Salnaməçilərin yazdıqları gələcəyə ünvanlanan tarixdir. Onun obyektiv, dürüst olması isə gələcək nəsillərin düzgün nəticə çıxardıb, ədalətli rəy verməsinin əsas zəminidir. Bu dilbər diyardakı həmkarlarımız bu şərəfli işi də yüksək vətəndaş məsuliyyəti, peşəkar jurnalist bacarığı ilə layiqincə həyata keçirirlər...

*Yeni Naxçıvanın salnaməsi yalnız yazılı mətnlərə əks olunmur. Muxtar respublikanın dağ kəndindən inzibati mərkəzinədək hər bir yerdə real quruculuq ünvanları ilə gələcək nəsillərə inkişafın izləri kimi ötürülür...*

*"Səndən ötrü can verməyə cümlə hazırız!" hayqırtısının ucaldığı ən yüksək sərhəd postundan "Üç rəngli bayrağınla məsud yaşa!" sədalarının kəsilmədiyi uşaq bağçasınadək hər məkanda vətənə əbədi məhəbbət duyğularına çevrilir...*

*Heydər Əliyevin yaratdığı, Prezident İlham Əliyevin zirvələrə ucaltdığı Yeni Naxçıvanın həm də muxtar respublika rəhbərliyinin fədakarlığı ilə gündən-günə miqyası genişlənən inkişafı, firavanlığı, rifahı gələcək nəsillərə ərməğan edilən əmanətdir...*

*Qüdrətli Azərbaycanın, onun ayrılmaz diyarı Yeni Naxçıvanın ən möhtəşəm salnaməsini isə Zəngəzur dəhlizi ilə bölgəyə gələcək Müzəffər Komandanını sərhəddə qarşılayacaq zəhmətkeş, sədaqətli, əzmkar naxçıvanlılar yazacaq...*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

*Bakı-Naxçıvan-Bakı*

# İkinci Dünya müharibəsində həlak olan azərbaycanlı əsgərin nəşinin qalıqları doğulduğu kənddə dəfn edilib

İkinci Dünya müharibəsində həlak olan azərbaycanlı əsgərin nəşinin qalıqları 79 il sonra Vətəninə gətirilərək doğulduğu Qax rayonunun Güllük kəndində dəfn edilib.





Bu günlərdə Rusiya Federasiyasının Volqoqrad vilayəti ərazisində İkinci Dünya müharibəsində həlak olan və qardaşlıq qəbiristanlığında dəfn edilən naməlum əsgərlərin qəbirləri açılan zaman oradan çıxan qalıqların yanında güllə aşkar edilib. Gilizin içərisindən çıxan ad və soyada əsasən əsgərin kimliyi müəyyən olunub. Məlum olub ki, həmin şəxs 1922-ci ildə Qax rayonunun Güllük kəndində anadan olan Əliyev Əli Molla oğludur. O, 1942-ci ildə cəbhəyə yollanıb və bir il sonra döyüşlərdə həlak olub. Əli Əliyevin nəşinin qalıqları Volqoqrad vilayətində yaşayan diaspor nümayəndələrinin köməyi ilə Azərbaycana gətirilib və fevralın 24-də Qax rayonunun Güllük kənd qəbiristanlığında dəfn edilib.

*AZƏRTAC*

# Xocalı faciəsi ilə bağlı unikal kampaniya

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzi (İƏGF-ARM) Ermənistan baş nazirini Xocalı faciəsini tanımağa dəvət edən "Khojaly:RecognizeToReconcile" (Xocalını barışıq üçün etiraf et) adlı beynəlxalq təşəbbüsə dəstəyi davam etdirir və hamını bu təşəbbüsə qoşulmağa çağırır.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, təşəbbüsə dəstək vermək üçün birinci addım - sosial şəbəkələrdə (feysbuk, tviter) Ermənistan baş nazirinin @NikolPashinyan və ombudsmanın @atatoyan profilini tapmaq, ikinci addım - son postlarının şərh yerinə iki söz #Khojaly #RecognizeToReconcile yazmaq və ya öz profilinizdə bu həştəqləri yazmaq və Nikol Paşinyan ilə ombudsmanı təq etmək lazımdır.

Bu kampaniyanın əsas hədəfi müxtəlif ölkələrdən olan insanların sosial şəbəkələrdə Ermənistan baş nazirini Ermənistanın əvvəlki hakimiyyətinin cinayətlərindən olan Xocalı soyqırımını tanımağa çağırmaq və bununla iki ölkə arasında sülhə töhfə verməyə dəvət etməkdir.

Belə ki, fevralın 23-də Avstriyanın paytaxtı Vyanada keçirilən "Sülh və ədalət" beynəlxalq tədbirində Macarıstanın Soyqırımı və Kütləvi Qırğınların Qarşısının Alınması üzrə Budapeşt Beynəlxalq Mərkəzinin sədri Georgi Tatar, Bosniya və Herseqovinanın Srebrennisa Memorial Mərkəzinin direktor müavini Amra Beqiç Ermənistanın Xocalı soyqırımında əli olmayan indiki hökumətinin Xocalı soyqırımını tanımasının Ermənistan ilə Azərbaycan arasında sülh üçün ən böyük töhfələrdən biri ola biləcəyini vurğulayıb.

Beynəlxalq beyin mərkəzlərinin tədbirdə iştirak edən nümayəndələri və ekspertlər bu təşəbbüsü dəstəkləyiblər.

Bu kampaniyanın beynəlxalq vüsət alması və daha çox insana çatması məqsədilə İƏGF-ARM həmin gün #Khojaly#RecognizeToReconcile" təşəbbüsünə beynəlxalq ictimai dəstəyə başlayıb.

Artıq yüzlərlə insan bu kampaniyaya qoşularaq Ermənistan rəhbərliyini Xocalı faciəsini tanımağa çağırıb. İƏGF-ARM hətta Ermənistan bu faciəni tanımasa belə, təşəbbüsün əsl cinayətkar və təcavüzkarın kimlər olduğunu bir daha beynəlxalq ictimaiyyətə çatdırmağa xidmət edəcəyini, bu aksiyanın Xocalı faciəsinin 30 illiyi ilə bağlı "Xocalıya ədalət!" beynəlxalq kampaniyası daxilində növbəti addım olduğunu bəyan edir.

# "AZAL" və Polşanın "LOT" aviaşirkəti əməkdaşlıq perspektivlərini müzakirə ediblər

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətiin verdiyi məlumata görə, Baş əməliyyat direktoru Matsey Vilkin başçılığı ilə Polşanın "LOT" aviaşirkətinin nümayəndə heyəti "Azərbaycan Hava Yolları"nın dəvəti ilə Bakıya işgüzar səfərə gəlib.



Fevralın 24-də AZAL-ın ofisində keçirilən görüşdə AZAL-ın vitse-prezidenti Eldar Hacıyev və "LOT" aviaşirkətinin baş əməliyyat direktoru Matsey Vilk əməkdaşlığın perspektivlərini və mülki aviasiyanın aktual məsələlərini müzakirə ediblər.

Görüş zamanı tərəflər həmçinin epidemiya əleyhinə məhdudiyyətlərdən çıxmaq üçün aviaşirkətlər tərəfindən görülən ardıcıl tədbirlər və sərnişin reyslərinin mərhələli şəkildə bərpa edilməsi haqqında məlumat veriblər.

Eldar Hacıyev qeyd etmişdir ki, birbaşa hava əlaqəsinin açılması iki ölkə arasında turizim və işgüzar münasibətlərin inkişafı üçün əlavə stimul olacaqdır.

Onun sözlərinə görə, 2020-ci ilin yanvar ayından Azərbaycanın bütün hava limanlarında hava məkanının beşinci və yeddinci dərəcəli "hava azadlığı" rejimi tətbiq olunur. "Bu dərəcələr bütün xarici aviadaşıyıcılara Azərbaycandan Avropa, Şimali Amerika, Avstraliya və Cənub-Şərqi Asiyanın 40 ölkəsinə heç bir məhdudiyyət olmadan uçuş icra etmək imkanı verir", - deyə Eldar Hacıyev qeyd edib.

Matsey Vilk Polşada xaricilərin girişinə qoyulan bir sıra koronavirus məhdudiyyətlərinin aradan qaldırılması fonunda "LOT" aviaşirkətinin Varşavadan Bakıya birbaşa reyslərinin açılmasında maraqlı olduğunu bildirib.

Qonaqlara beşulduzlu Heydər Əliyev Beynəlxalq Aeroportunun imkanları, xüsusilə təyyarələrə göstərilən yerüstü xidmətlər, müxtəlif xidmətlərin fəaliyyəti və aerovağzal kompleksində sərnişinlər üçün yaradılmış rahat şərait də nümayiş etdirilib.

*"Azərbaycan"*

# Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir

Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il üçün döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq, həyəcan siqnalı ilə qaldırılan hərbi hissələrin idarəetmə orqanlarının ərazidə açılması təmin edilir və bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilir. Tapşırıqların icrası ilə bağlı komandirlər tərəfindən qəbul edilmiş qərarlarla bağlı məruzələri dinlənilir.

Təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirməkdir. Komanda-qərargah təlimlərində qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# Azərbaycanda xüsusi karantin rejiminin müddəti mayın 1-dək uzadılıb

Fevralın 24-də Azərbaycan Respublikasinin Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, bu barədə qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 may saat 06:00-dək uzadılıb.

# Azərbaycanın Ukraynadakı səfirliyi və Xarkovdakı fəxri konsulluğu gücləndirilmiş iş rejimində çalışır

Azərbaycanın Ukraynadakı səfirliyi bu ölkədə yaşayan soydaşlarımızın problemlərinin həlli üçün gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Bu barədə AZƏRTAC-a səfirlikdən məlumat verilib.

Səfirlik soydaşlarımızı təhlükəsizlik baxımından evdən çıxmamağa çağırıb və bildirib ki, ehtiyac yarandığı halda səfirliyin 00380735050000 nömrəli qaynar xəttinə zəng edə bilərlər. Ukrayna hava yollarını bağladığı üçün hələlik ölkədən çıxış mümkünsüzdür.

Azərbaycanın Xarkovdakı fəxri konsulluğundan isə AZƏRTAC-a bildiriblər ki, Xarkov şəhəri ətrafında vəziyyət gərgin olaraq qalır.

"Soydaşlarımız və vətəndaşlarımız üçün ən təhlükəsiz yer evləridir. Problemlərin həllinə yardım göstərmək üçün konsulluğun qaynar xətti fəaliyyət göstərir və soydaşlarımız istənilən an müraciət edə bilərlər", - deyə məlumatda qeyd olunur.

## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

***1 illik***
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

***6 aylıq***
**62,40 (altmış iki manat qırx qəpik) manat**

***3 aylıq***
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

bakcell

## abunəçilərinin nəzərinə

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, daha müasir texnologiyaların tətbiqi və göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılan təkmilləşdirmə işləri çərçivəsində 10 mart 2022-ci ildən etibarən A5/1 standartını dəstəkləyən mobil cihazlardan istifadə məhdudlaşdırılacaq.

Əhalinin mobil xidmətlərə, o cümlədən yüksəksürətli mobil internetə artan tələbatı ilə əlaqədar olaraq istifadəçilər, minimal gecikmə ilə irihəcmli məlumatların sürətli ötürülməsinə imkan yaradan 4G xidmətlərdən daha çox istifadə edilməsinə üstünlük verirlər. Buna müvafiq olaraq, hazırda yeni nəsil mobil rabitə şəbəkələri, xüsusilə də 4G şəbəkəsinin əhatə zonası genişləndirilir. Odur ki, 2G şəbəkəsi üzərindən yalnız A5/1 standartı ilə işləyən mobil cihazların istifadəçilərindən öz cihazlarının yenilənməsi xahiş olunur. Bu proses tədricən respublikamızın bütün ərazisində həyata keçiriləcək. Qeyd olunan məhdudlaşdırma tətbiq olunan rayon və şəhərlərdə yaşayan abunəçilərə əvvəlcədən məlumat xarakterli SMS göndəriləcək.

Digər standartları dəstəkləyən texnologiyalardan istifadə edən abunəçilər isə hər hansı bir çətinliklə qarşılaşmayacaqlar.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan akkumulyatorların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 10 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

# Liderlərin Moskva görüşü İrəvanı təlaşa salıb

## Ermənistan mətbuatı və siyasi ekspertləri Azərbaycanın diplomatik uğurlarından daha çox narahat olmağa başlayıblar

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri və orada imzalanan müttəfiqlik bəyannaməsi Bakı və Moskva arasında münasibətlərin kifayət qədər yüksək səviyyədə olduğunu bir daha əyani şəkildə nümayiş etdirdi. Burada əldə edilən razılıqlar qarşıdakı dövr ərzində Rusiya və Azərbaycan arasında münasibətlərin daha da dərinləşəcəyini göstərir.

Proseslərin bu istiqamətdə inkişafından narahat olan əsas tərəflərdən biri isə Ermənistandır. İrəvanda açıq etiraf edilir ki, Azərbaycanın uğurlu siyasəti nəticəsində Moskva Bakını regionda əsas müttəfiqi kimi qəbul edir.

Azərbaycan və Rusiya prezidentlərinin son görüşü və orada imzalanan sənədlərin məzmunu İrəvanı əməlli-başlı təlaşa salıb. Erməni ekspertlər və media narahatlıqla vurğulayırlar ki, Moskva ilə Bakı daha da yaxınlaşdı.

"Qraparak" qəzeti yazır ki, Ermənistan Rusiya üçün regionda ikinci dərəcəli dövlətdir: "Rusiya əsas müttəfiqi kimi artıq Azərbaycanı qəbul edir. Bunu Rusiya və Azərbaycanın dövlət başçıları tərəfindən imzalanan müttəfiqlik bəyannaməsi də aydın göstərir. Bu, Rusiya və Azərbaycan arasında pozitiv notlardan xəbər verir. İki ölkə arasındakı münasibətlər yüksək səviyyədə inkişaf edib. Bu, Moskva ilə münasibətləri gərginləşdirən İrəvan üçün də bir nümunədir. Son hadisələrdən sonra Putin İrəvana göstərir ki, Ermənistan rəhbərliyi öz siyasəti ilə ölkəni təhlükəli zonaya daxil etdi, çünki Rusiya regionda əsas müttəfiqi kimi Azərbaycanı görməyə başlayıb".

Erməni siyasi ekspert Qaqik Petrosyanın fikrincə isə prezidentlərin Moskvada energetika, iqtisadiyyat, Xəzər dənizində əlaqələr, nəqliyyat layihələrini və hərbi-texniki əməkdaşlığı müzakirə mövzusu etməsi bu sahədə əməkdaşlığı daha da genişləndirəcək: "Bütövlükdə regiondakı münasibətlər diqqət mərkəzindədir. Vladimir Putin dünya siyasətinin əsas oyunçularından biridir, İlham Əliyev də çox təcrübəli siyasətçidir. Azərbaycan liderinin böyük əlaqələri və ciddi informasiyaları var".

Ermənistanın tanınmış politoloqlarından Samvel Baqdasaryan isə deyib ki, Putinlə Əliyev görüşlərinin intensiv şəkildə baş tutması iki ölkə münasibətlərinin çox pozitiv trekdə inkişaf etməsinin nümunəsidir: "Bununla yanaşı, İlham Əliyevlə Putinin arasında çox yaxşı dostluq münasibətləri var. Liderlərin görüşünün mütəmadi baş tutmasının səbəblərindən biri də postmüharibə dönəmində regionda davam edən vəziyyətdir. Ermənistandakı hadisələr də buna nümunədir".

Beləliklə, qeyd edilənlərdən aydın olur ki, Rusiya və Azərbaycan arasında münasibətlər dinamik şəkildə inkişaf edir və yürütdüyü qeyri-rasional siyasət üzündən bu hal Ermənistanın regionda təcridini daha da dərinləşdirəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5630
Sifariş 518
Qiyməti 40 qəpik